26 aprel 2019-cu il
№15 (8830)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

## Bu sayımızda

**Birinci vitse-prezident Mehriban Əliyeva təhsil müəssisələrində mövcud şəraitlə tanış olub** ⇨səh.3

**Azərbaycanın 2 universiteti dünya reytinqində** ⇨səh.3

**Hədəf məktəb olanda...** ⇨səh.4

**Şagirdlərin fərdi inkişaf dinamikasının izlənilməsi** ⇨səh.7

# Daimiləşmək üçün

## Müəllimlər yüksək hazırlıq səviyyəsi nümayiş etdiriblər



Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda həyəcan yenə zirvədədir. Binanın giriş qapısından başlayan gərginlik içəriyə doğru daha da artır. Hər kəs gözləyir - biri bacısını, o biri qızını... Gözləmə müddəti artdıqca gərginlik də artır. Yaxınlarının çıxmağını gözləyənlərin həyəcanı müsahibəyə girəcəyi vaxtı gözləyən namizədlərdən çoxdur ki, qətiyyən az deyil. Ətrafda baş verənlər də onların gərginliyini daha da artırır. Qızını gözləyən Fatma Nəbiyevanın sözlərinə görə, övladının çəkdiyi əziyyətin bəhrəsini görmək ana üçün xoşbəxtlikdir: "Bu qapıdan işlədiyi təhsil müəssisəsinin müəllimi olaraq çıxmağını istəyirəm. Ona görə də həyəcandan ürəyim əsir. Heç cür özümü ələ ala bilmirəm. Burada baş verənlər də həyəcanımı daha da artırır. Bir az əvvəl gənc qız buradaydı. Sənədlərini taksidə unutduğundan müsahibəyə girə bilmirdi. Taksi sürücüsü bura qayıdana qədər ağladı. Elə vəziyyəti görəndə öz övladını unudub başqasının yerinə də həyəcanlanırsan və təbii olaraq gərginliyin artır".

Nicat İbadov isə içəridə gözləyir. Elə də həyəcanlı görünmür. Lerik rayonundan gəlib. Barzavu kənd ümumi orta məktəbində riyaziyyat müəllimi kimi daimi əsaslarla işləyə bilmək üçün komissiyanı layiqli namizəd olduğuna inandırmalıdır.

⇨Ardı səh.8

# "Orda da məktəblinin dostları olsaydı..."

Bu dəfə də gözlər onları axtardı. "Orda da məktəblinin dostları olsaydı..." , - deyib, bir məktəblinin intiharının ardından axtardığımız boşluqlar arasında məhz "Məktəblinin dostu" layihəsinə ehtiyac duyulan bir yerdə yoxluğunu gördük. Hansı ki, 2016-2017-ci tədris ilinin ikinci yarısından başlasa da, həmin dərs ilinin ən uğurlu layihəsi oldu. Cəmi 30 məktəbdə pilot olaraq başlayan layihə tezliklə böyük nüfuz qazandı. Əməkdaşları məktəblilərin qəhrəmanlarına, valideynlərin güvən yerinə, məktəbin isə görən gözünə, eşidən qulağına çevrildi. Təcrübəsinə daha bir tədris ili də əlavə olundu. Bu il də onlar eyni temp, dəyişməyən fədakarlıq, daha çevik münasibət nümayiş etdirərək qazandığı nüfuzu artırdı. Nəticədə məktəblərə uşaq gətirən valideynlərin gözü məhz boz geyimli, gülərüz, çevik gənc dostlarını axtardı. Hara getdilərsə, məhz onları soruşdular: "Bu məktəbdə məktəblinin dostu var?".

Bu da bir faktdır ki, artıq məktəblinin dostlarına olan maraq ayrı-ayrı hadisələrin fonunda tələbə çevrilir. Elə 162 nömrəli tam orta məktəbdə VIII sinif şagirdi Elina Hacıyevanın intiharı və bu faktın üzərinə işıq saldığı halların üzə çıxması nəticəsində məktəblinin dostlarının fəaliyyətə başlaması üçün edilən çağırış kimi. Bu çağırışın nəticəsidir ki, "Məktəblinin dostu" layihəsi 162 nömrəli tam orta məktəbdə də fəaliyyətə başladı.

### Məqsəd birdir: təhlükəsiz məktəb, arxayın valideyn

Məktəblilərin dostları "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun olaraq Bakı Şəhəri üzrə Təhsil İdarəsinin təbeliyindəki təhsil müəssisələrində iş başındadırlar. Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birgə reallaşdırdığı layihə tədris prosesinin sağlam, təhlükəsiz, əlverişli psixoloji mühitdə təşkil edilməsi, valideynlərin övladlarının təhsil şəraiti barədə məlumatlılığının və məmnunluğunun artırılmasına xidmət edir.

Əvvəlcə 112 məktəblinin dostu ilə 30 məktəbdə xidmətə başlayıblar. Bu dərs ilindən layihənin tətbiq edildiyi məktəblərin sayı 35-ə, məktəblinin dostlarının sayı isə 139-a çatdırılıb. 20, 200 nömrəli tam orta məktəblər ötən tədris ilindən, 1 nömrəli idman və Vətən liseyləri isə bu ildən "Məktəblinin dostları"nın "siyahı"sına düşüb.

⇨Ardı səh.9

# Humanitar təhsilli rəhbər

## İdarəetmə prosesinə yaradıcı yanaşmaya ehtiyac artır

2015-ci ildə "Forbes" jurnalının ABŞ versiyası belə bir başlıqlı yazı dərc etmişdi: "Bura texniklərin yeri deyil: Humanitarlar Silikon vadisini işğal edirlər". Məqalənin işıq üzü görməsi təsadüfi deyildi - psixoloq, filosof, marketoloq, hətta filoloq diplomlu şəxslər ciddi texnoloji korporasiyalar və startapların rəhbər vəzifələri uğrunda mübarizədə texniki təhsil almış mühəndislər və riyaziyyatçıları rəqabətdən kənarlaşdırmağa başlamışdılar. Məlum olmuşdu ki, alıcıya məhsulun təqdim edilməsi və çatdırılması, istifadəçilərə biznesin dəyəri və prinsiplərinin izah edilməsi humanitar təhsil almış rəhbərlər tərəfindən daha uğurla həyata keçirilir.

### Humanitar ehtiyac

Ötən 4 ildə vəziyyət nəinki dəyişib, hətta idarəetmə prosesinə yaradıcı yanaşmaya ehtiyac daha da artıb. ABŞ-ın Əmək Nazirliyinin proqnozlarına görə, 2022-ci ildə 1 milyona yaxın amerikalı müəllimlik fəaliyyəti ilə məşğul olacaq, təqribən 1,1 milyon vətəndaş isə satış şöbəsinin əməkdaşı. Ancaq humanitar sahəyə marağın artımına səbəb tək məktəblər və supermarketlər olmayacaq: yüksək məvacibli biznes-kouçlar, master-klas müəllifləri, satış üzrə menecerlərə ehtiyac da getdikcə artacaq. Top-menecerlərin seçimi üzrə ixtisaslaşmış "Spencer Stuart" şirkətinin funksioneri Marqarita Koşman hesab edir ki, humanitar təhsilli mütəxəssislərə hər kəslə fərqli dildə danışmağı və fikirlərini daha aydın çatdırmağı bacarır: "Liderlərin kreativliyi, kommunikasiya bacarıqları, empatiya üzərindən idarətmə qabiliyyəti müasir həyatımızda şirkətin uğurunun əsas səbəblərindən birinə çevrilir".

Müxtəlif statistik məlumatlara görə, şirkət və holdinqlərdəki rəhbər vəzifələrdən təqribən 50%-də humanitar təhsilli idarəçilər "otururlar". Amerikalı milyarder Mark Kyuban hesab edir ki, bu tendensiya getdikcə daha da güclənəcək: "Təqribən 10 ildən sonra humanitar təhsilli mütəxəssislərə proqram tərtibatçıları və hətta mühəndislərdən daha çox ehtiyac duyulacaq". Kyubana görə, yaxın gələcəkdə bir sıra texniki sahələri süni intellekt öz üzərinə götürəcək, çünki iri rəqəmsal məlumatları daha dəqiq və tez analiz etmə qabiliyyətinə malikdir.

"Deloitte" konsaltinq şirkətinin IT-direktoru Larri Kuinlan da Kyubanla həmfikirdir: "Texnoloji cəhətdən hazırlıqlı olmaq artıq yetərli deyil. Lap yuxarıda elə adamlar oturmalıdırlar ki, biznes prosesləri daha yaxşı təsəvvür edir və anlayırlar".

⇨Ardı səh.8

## Təhsil naziri Çinə səfər edib

Aprelin 25-də Təhsil naziri Ceyhun Bayramov Çin Xalq Respublikasının Pekin şəhərində keçirilən ikinci "Bir Kəmər, Bir Yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edib. Təhsil naziri proqram çərçivəsində təşkil olunan "Xalqlar arasında əlaqələr" adlı tematik foruma çıxış edib.

Çıxış zamanı Təhsil naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn təhsilin bütün sahələrində aparılan islahatlar, 2019—2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramının qarşıya qoyduğu məqsəd və vəzifələr, BMT-nin Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün təhsil sahəsində görülən tədbirlər, o cümlədən təhsil sahəsində iki ölkə arasında həyata keçirilən əməkdaşlıq haqqında tədbir iştirakçılarına məlumat verib.

Sözügedən tematik forumda BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Miqel Anqel Moratinos, UNICEF-in icraçı direktoru Henrietta Fore, Mozambik Respublikasının prezidenti Filipe Nyusi, Myanma İttifaqı Respublikasının dövlət müşaviri Su Kyi və Serbiya Respublikasının prezidenti Aleksandar Vuçiç də çıxış edib.

## Azərbaycanda texniki elmlər sahəsində çalışanların 53 faizini qadınlar təşkil edir

"Azərbaycan qadınlarının elmi-texnoloji sahələrdə təmsil olunma səviyyəsi dünya üzrə müvafiq orta göstəriciləri xeyli qabaqlayır". Bu sözləri AMEA-nın prezidenti, akademik Akif Əlizadə aprelin 25-də Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və AMEA İnformasiya Texnologiyaları İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən "Qızlar İKT-də Beynəlxalq Günü"nə həsr edilən respublika elmi-praktik konfransda deyib. Qeyd olunub ki, bu göstəricilər ölkəmizdə həyata keçirilən gender siyasətindən, elm və təhsilə diqqət və qayğıdan, milli-mənəvi dəyərlərin xüsusiyyətlərindən irəli gələn mühitin formalaşması hesabına əldə edilib.

AMEA prezidenti informasiya cəmiyyətinin mühüm hədəflərindən birinin qadınların informasiya-kommunikasiya texnologiyalarında (İKT) rolunun artırılması olduğunu bildirib. Qadınların hüquq və azadlıqlarının təmin olunmasında informasiya cəmiyyətinin texnoloji platforması olan İKT-nin mühüm rol oynadığını vurğulayan Akif Əlizadə qeyd edib ki, İKT elmi-texnoloji fenomen olmaqla yanaşı, cəmiyyətdə bütün növ sosial bərabərsizliklərin effektiv şəkildə aradan qaldırılması vasitəsidir.

⇨Ardı səh.4




# "Balaca fidanlara səbr və sevgi ilə yanaşmalıyıq"

*Samirə Əliyeva:* "Biz müəllimlər ən ağır yükü eyni sevinclə qarşılayırıq"

Səh.10

## RƏSMİ XRONİKA



■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Lüksemburqun Böyük Hersoqu Anriyə atasının- görkəmli dövlət xadimi, Böyük Hersoq Janın vəfatı ilə əlaqədar başsağlığı verib.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikası Sədrinin dəvəti ilə 2-ci "Bir kəmər, bir yol" beynəlxalq forumunda iştirak etmək üçün aprelin 24-də bu ölkəyə işgüzar səfərə gedib. Həmin gün dövlət başçısı Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə, Çin Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, Çin Xalq Siyasi Məşvərət Şurasının sədri Van Yanla, "ZTE" Korporasiyasının sədri Li Cisue, CETC" Korporasiyasının baş direktoru Vu Mançin ilə görüşüb. Aprelin 25-də Prezident İlham Əliyevin Pekində "Huawei" şirkətinin sədri Lian Xua, "China National Electric Engineering" şirkətinin prezidenti Cao Huy, "China Poly Group" Korporasiyasının sədri Su Nianşa ilə görüşü olub.

■ Aprelin 23-də Prezident İlham Əliyev Bakının Xəzər rayonunda Mərdəkan-Qala avtomobil yolunun açılışında iştirak edib. Ölkə başçısı İlham Əliyev sakinlərlə görüşüb.

■ Dövlət başçısı İlham Əliyev aprelin 23-də Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı (YUNESKO) arasında Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Sazişin təsdiq edilməsi haqqında fərman imzalayıb.

■ Aprelin 23-də ölkə başçısı İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev aprelin 22-də Ukraynanın yeni seçilmiş Prezidenti Vladimir Zelenskiyə bu vəzifəyə seçilməsi münasibətilə təbrik məktubu ünvanlayıb.

■ Aprelin 22-də dövlət başçısı İlham Əliyev Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maytripala Sirisenaya ölkəsində törədilmiş partlayışlar nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verib.

■ Ölkə başçısı İlham Əliyev aprelin 22-də "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

■ Aprelin 22-də Prezident İlham Əliyev Qazax rayonunun Daş Salahlı-Ürkməzli-Dəmirçilər avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

■ Dövlət başçısı İlham Əliyev aprelin 19-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında fərman imzalayıb.

■ Aprelin 19-da ölkə başçısı İlham Əliyev Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

# "Nəsimi İli"nə həsr olunmuş intellektual oyun üzrə 2019-cu ildə regional məktəb çempionatının keçirilməsi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Prezidentinin 26 yanvar 2015-ci il tarixli 998 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"ndan irəli gələn vəzifələrin icrası ilə bağlı məktəblilərin intellektual və yaradıcı inkişafına təkan verilməsi, şagirdlərin intellektual fəaliyyətə daha geniş miqyasda cəlb edilməsinin və asudə vaxtlarının səmərəli təşkilinin təmin olunması məqsədilə "Azərbaycan Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** "Nəsimi İli"nə həsr olunmuş intellektual oyun üzrə 2019-cu ilin regional məktəb çempionatı keçirilsin.

**2.** Çempionatın Təşkilat Komitəsi (əlavə 1) və keçirilmə qaydaları (əlavə 2) təsdiq edilsin.

**3.** Yerli təhsili idarəetmə orqanlarının rəhbərləri, Nazirliyin bilavasitə tabeliyində fəaliyyət göstərən ümumtəhsil məktəblərinin direktorları çempionatın keçirilmə qaydalarına ciddi əməl etməklə yarışın yüksək səviyyədə təşkili və keçirilməsini təmin etsinlər.

**4.** Məktəbdənkənar fəaliyyətin təşkili şöbəsi (V.Məmmədov) çempionatın keçirilməsi üçün lazımi təşkilati işləri həyata keçirsin və bununla bağlı satın alınması tələb olunan mal, iş və xidmətlər barədə məlumatı Əsaslı Tikinti və Təchizat İdarəsinə təqdim etsin.

**5.** Maliyyə şöbəsi (R.Orucov) müvafiq mal, iş və xidmətlərin satın alınması ilə əlaqədar Əsaslı Tikinti və Təchizat İdarəsinin sifarişi əsasında həmin idarəyə vəsaitin ayrılmasını təmin etsin.

**6.** Əsaslı Tikinti və Təchizat İdarəsi (A.Axundov) çempionatın keçirilməsi, qaliblərin mükafatlandırılması ilə əlaqədar mal, iş və xidmətlərin satın alınması üzrə lazımi tədbirlərin həyata keçirilməsini təmin etsin.

**7.** İnformasiya şöbəsi (E.Məmmədov) əmrin "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini, əmr və əlavələrin çoxaldılaraq yerlərə göndərilməsini təmin etsin.

**8.** Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə olunsun.

**Ceyhun BAYRAMOV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*19 aprel 2019-cu il*

# "Gəlin birgə oxuyaq!"

## Heydər Əliyev Mərkəzində "Oxu Günü" keçirilib



Heydər Əliyev Mərkəzinin parkında "Oxu Günü" keçirilib. Tədbir Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, "Regional İnkişaf" İctimai Birliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA), Azərbaycan Respublikasının Gənclər Fondu və "Hədəf Nəşrləri"nin tərəfdaşlığı ilə reallaşıb.

Tədbirdə təhsil naziri Ceyhun Bayramov, Mədəniyyət Nazirliyinin, AMEA-nın nümayəndələri, millət vəkilləri və digər şəxslər iştirak ediblər.

"Gəlin birgə oxuyaq!" şüarı altında keçirilən "Oxu Günü"nün məqsədi yeniyetmə və gənclər arasında mütaliə mədəniyyəti və oxu vərdişinin inkişafı, kitaba marağın artırılmasına yönəlib.

Tədbirdə paytaxtın müxtəlif ümumi təhsil müəssisələrinin şagirdləri təqdimatlarla çıxış ediblər. Müxtəlif dram əsərlərindən səhnələr, tamaşalar təqdim olunub, ustad dərsləri, interaktiv yarışlar keçirilib. Həmçinin 3 saylı Uşaq-Gənclər İnkişaf Mərkəzinin bədii kollektivinin iştirakı ilə musiqili proqram təqdim olunub.

Təhsil naziri məktəblilərin təqdimatlarını maraqla izləyib.

Tədbir çərçivəsində bədii-elmi kitabların sərgisində nəşriyyat və kitabxanalar öz stendlərində müxtəlif nəşrləri nümayiş etdirib.



# BDU-nun 100 illiyinə həsr olunmuş bilik yarışması

SABAH qrupları layihəsi çərçivəsində Bakı Dövlət Universitetinin 100 illik yubileyinə həsr olunmuş riyaziyyat, müəllimlik və informasiya texnologiyaları ixtisasları üzrə bilik yarışmasının qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Əvvəlcə BDU-nun 100 illik tarixindən bəhs edən videoçarx nümayiş olunub.

Sonra çıxış edən BDU-nun rektoru Elçin Babayev bilik yarışmasının əhəmiyyətindən danışıb. Vurğulayıb ki, tələbələr onlara yaradılan imkanlardan düzgün bəhrələnməli, gələcəyin layiqli vətəndaşı kimi yetişməli, ölkənin rifahı, davamlı inkişafı naminə çalışmalıdırlar. Rektor bütün qalibləri təbrik edərək onlara uğurlar arzulayıb.

Təhsil nazirinin müavini Firudin Qurbanov çıxışında ölkəmizdə ali təhsil sahəsində aparılan siyasətin müsbət nəticəsini verdiyini qeyd edib. Nazir müavini bildirib ki, bu sahədə həyata keçirilən islahatların əsas məqsədi təhsilin maddi-texniki bazasının yüksəldilməsinə nail olmaq, keyfiyyətinin müasir tələblərə cavab verməsini təmin etməkdir. Eyni zamanda Azərbaycan gənclərinin fərdi və peşəkar inkişafına nail olmaq, əmək bazarının tələblərinə uyğun savadlı, bacarıqlı və hazırlıqlı gənclər yetişdirmək əsas hədəflərdəndir.

SABAH qrupları barədə danışan Firudin Qurbanov bilik yarışını tələbələrin təlim və peşə hazırlığı üzrə biliklərinin dərinləşməsində, eləcə də peşəkar kadr kimi yetişməsində mühüm addım kimi qiymətləndirib.

Çıxışlardan sonra qaliblər mükafatlandırılıb. Bildirilib ki, bilik yarışmasında Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU), Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı Mühəndislik Universitetinin tələbələri iştirak ediblər.

İştirakçıların sayı ötən illə müqayisədə 40 faiz artıb və ümumilikdə 800-ə yaxın qeydiyyatdan keçən SABAH tələbəsini əhatə edib. Hər nominasiya üzrə üç nəfər olmaqla 9 nəfər qalib olub.

Riyaziyyat ixtisası üzrə bilik yarışmasında BDU-nun riyaziyyat müəllimliyi ixtisasının IV kurs tələbəsi Süleyman Bağırov, müəllimlik ixtisası üzrə yarışda BDU-nun psixologiya ixtisasının II kurs tələbəsi Mərziyyə Əzməmmədova I yerin qalibi olublar.

Qeyd edək ki, BDU-nun riyaziyyat müəllimliyi ixtisasının IV kurs tələbəsi Süleyman Bağırov həmçinin informasiya texnologiyaları ixtisası üzrə bilik yarışmasında I yerin qalibi olub.

Tədbir SABAH qrupları himninin sədaları altında bilik yarışmasının təşkili və SABAH qruplarının fəaliyyətini əks etdirən videoçarxların nümayişi ilə başa çatıb.

# "eTwinning Plus" layihəsi çərçivəsində tədbir

Azərbaycanlı müəllimlər "eTwinning Plus" layihəsi çərçivəsində Türkiyənin İzmir şəhərində keçirilən konfransda iştirak ediblər.

Layihə əsaslı təhsilin tətbiqi sahəsində müxtəlif təlimlər, sərgilər və seminarlar təşkil olunmuş konfransda 20-dən çox Avropa ölkəsinin müəllimləri iştirak edib.

Tədbirin əsas məqsədi XXI əsr bacarıqları, kompüter elmlərinin tədrisi, layihə əsaslı təhsil mövzusunda müzakirələrin edilməsi və bu sahədə təcrübə mübadiləsinin aparılması olub. 3 gün davam edən tədbirdə iştirak edən Bakı, Gəncə şəhərləri və İsmayıllı rayonundan olan təhsil işçiləri əcnəbi həmkarları ilə əməkdaşlıq edərək beynəlxalq layihələr yaradıb və təhsildə dünya üzrə müasir yanaşmalarla tanış olublar.

Qeyd edək ki, Avropa Komissiyasının təşəbbüsü ilə yaradılmış "eTwinning" layihəsinə Azərbaycan 2013-cü ildə qoşulub. Layihənin əsas məqsədi pedaqoji işçilər arasında ünsiyyəti artırmaq, əməkdaşlıq imkanları, digər ölkələrdən olan həmkarlar ilə birgə təhsilin inkişafı yönümündə müxtəlif layihələr icra etmək üçün şərait yaratmaqdır. Layihə çərçivəsində Azərbaycandan indiyədək 484 məktəbdən 1730 müəllimin iştirakı ilə 1398 təhsil layihəsi həyata keçirilib. Eyni zamanda, layihədə təmsil olunan müəllimlər onlayn təlimlər, Avropanın müxtəlif ölkələrində keçirilən seminar və konfranslarda iştirak ediblər.

# "Rəqəmsal bacarıqlar" layihəsi "Bett Show 2019"-un qalibi olub

Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən "Bett Show 2019" təhsil texnologiyaları sərgisində "Rəqəmsal bacarıqlar" layihəsinə dair stend nümayiş olunub.

Təhsil Nazirliyinin və beynəlxalq "Algoritmika" təhsil şirkətinin birgə pilot layihəsi çərçivəsində görülən işlərə dair ayrıca stend sərgi iştirakçılarının böyük marağına səbəb olub. Qeyd edək ki, "Rəqəmsal bacarıqlar" layihəsinin rəhbəri Fəxri Qurbanov proqram çərçivəsində keçirilən "Liderlik sammiti"ndə iştirak edir.

Sərgi çərçivəsində "Rəqəmsal bacarıqlar" layihəsi "Əməkdaşlıq" nominasiyası üzrə qalib olub.

"Rəqəmsal bacarıqlar" layihəsi 2017-ci ildən həyata keçirilir. Hazırda layihə Bakıda 65, Gəncə şəhərində 6 məktəbi, eləcə də 2 özəl ümumi təhsil müəssisəsini, ümumilikdə isə 26 mindən artıq şagirdi əhatə edir.

"Bett Show" dünyada təhsil texnologiyaları sahəsində ən böyük hadisə hesab olunur. Sərgi təhsilin keyfiyyətini yaxşılaşdırmağa kömək edəcək son texnologiya və innovativ təhsil həlləri ilə tanış edən platformadır.

Sərginin əsas tərəfdaşları arasında "Microsoft Worldwide Education", "Adobe", "Epson" və bir sıra digər yüksək texnologiyalı sənaye liderləri var.

# Birinci vitse-prezident Mehriban Əliyeva təhsil müəssisələrində mövcud şəraitlə tanış olub







Aprelin 25-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Xəzər rayonunun Buzovna qəsəbəsində 229 saylı körpələr evi-uşaq bağçasında, Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada və gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində mövcud şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva əvvəlcə Xəzər rayonunun Buzovna qəsəbəsində 229 saylı körpələr evi-uşaq bağçasına gəldi.

Bağçanın müdiri Ellada Səlimova məktəbəqədər təhsil müəssisəsi barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi. Bildirildi ki, bu bina 1836-cı ildə tikilib. 1957-ci ildən bina bağça kimi fəaliyyətə başlayıb. Burada sonuncu dəfə təmir işləri 2006-2007-ci illərdə həyata keçirilib.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaq bağçası-körpələr evindəki uşaqlarla görüşdü, onlarla söhbət etdi, balacaların bacarıqları ilə maraqlandı, arzularını soruşdu. Uşaqlar da Birinci vitse-prezidentin ətrafına toplaşaraq böyük məmnuniyyətlə öz istəkləri ilə bölüşdülər, məharətlərini nümayiş etdirdilər, rəqs edib, mahnılar oxudular, şeirlər söylədilər.

Məlumat verildi ki, 75 uşaq yerlik məktəbəqədər təhsil müəssisəsində balacaların təlim-tərbiyəsi ilə 27 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Dörd qrupdan ibarət bağçada 2 yaşdan 6 yaşadək uşaqlar tərbiyə olunur və ilkin biliklərə yiyələnirlər.

Birinci vitse-prezident yuxarı yaş qrupundakı uşaqların məktəbə hazırlığı ilə də maraqlandı.

Ölkəmizdə uşaq müəssisələrinin yüksək tələblər səviyyəsində qurulması istiqamətində dövlətin gördüyü işlərə Heydər Əliyev Fondu da böyük töhfələr verir. 2014-cü ilin fevral ayında Fondun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı keçirilib və ölkədə yeni bağçaların inşasına ehtiyac olduğu müəyyənləşdirilib. Həmin vaxtdan Fond ölkəmizdəki məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, yeni, müasir uşaq bağçalarının inşası sahəsindəki fəaliyyətini daha da genişləndirib.

***

Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyaya gəldi.

Gimnaziyanın direktoru Ənvər Mustafayev məlumat verdi ki, 1960-cı ildə istifadəyə verilən təhsil ocağı indiyədək heç vaxt əsaslı şəkildə təmir edilməyib. Əvvəllər internat tipli olan təhsil müəssisəsi 2010-cu ildən xarici dillər təmayüllü gimnaziya kimi fəaliyyət göstərir. İki korpusdan ibarət məktəbdə 50 sinif otağı, idman və akt zalları, emalatxanalar mövcuddur.

Məktəbin sinif otaqları ilə yaxından tanış olan Mehriban Əliyevaya bildirildi ki, gimnaziyada 5-11-ci siniflər üzrə tədris aparılır. Müəssisədə 609 şagird təhsil alır, onların təlim-tərbiyəsi ilə təqribən 70 nəfərdən ibarət pedaqoji heyət məşğul olur. Məktəbdə ingilis, ərəb, fars və rus dilləri tədris edilir.

Azərbaycanın Birinci vitse-prezidenti şagirdlərlə söhbət etdi, onlara dərslərində uğurlar arzulayaraq dedi:

- Sizdə təhsilə, elmə, biliyə həvəs var. Siz Azərbaycanın ümidisiniz, ona görə yaxşı oxumalısınız. Gələcəkdə Azərbaycanın qurucuları siz olacaqsınız. Bilirəm, sizin məktəbinizin hər zaman yaxşı göstəriciləri olub. Uğurlar arzulayıram. Sağ olun.

Bildirildi ki, 2017-2018-ci tədris ilində məktəbi 49 məzun bitirib və onlardan 45-i Azərbaycanın ali məktəblərinə qəbul olunub. Qəbul imtahanlarında məktəb üzrə 3 nəfər 600-dən yuxarı bal toplayıb.

***

Daha sonra Birinci vitse-prezident Mehriban Əliyeva gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində mövcud şəraitlə də tanış oldu.

Məktəbin direktoru Samirə Həsənova Azərbaycanın Birinci vitse-prezidentinə məlumat verdi ki, təhsil ocağı 1993-cü ildən bu binada fəaliyyət göstərir. Gimnaziyanın ikinci korpusunun 3-cü mərtəbəsində yerləşən məktəbdə əsasən məcburi köçkün ailələrindən olan, həmçinin Xəzər rayonunda yaşayan uşaqlar təhsil alırlar.

Sinif otaqlarına baş çəkən Mehriban Əliyeva şagirdlərlə səmimi söhbət etdi, onlarla şəkil çəkdirdi.

Diqqətə çatdırıldı ki, hazırda məktəbdə 170 şagirdin təlim-tərbiyəsi ilə 25 müəllim, 10 texniki işçi məşğul olur. 2017-2018-ci tədris ilində məktəbi 9 məzun bitirib və onlardan 7-si yüksək nəticə göstərərək, Azərbaycanın ali məktəblərinə qəbul olunub.

Xanım Mehriban Əliyeva Xəzər rayonunda məskunlaşan məcburi köçkünlər üçün yaradılan şəraitlə maraqlandı, dövlətin bu sahəyə hər zaman xüsusi diqqət yetirdiyini bildirdi.

Birinci vitse-prezident Mehriban Əliyeva Buzovna qəsəbəsindəki körpələr evi-uşaq bağçasında, Mərdəkan qəsəbəsindəki Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada və gimnaziyanın ikinci korpusunda müvəqqəti fəaliyyət göstərən 32 saylı Laçın rayon tam orta məktəbində şəraitin yaxşılaşdırılması istiqamətində müvafiq tapşırıqlarını verdi.

# Azərbaycanın 2 universiteti dünya reytinqində

Oruc MUSTAFAYEV

## Dünyanın ən yaxşı universitetlərinin adları açıqlanıb

Dünyanın ən yaxşı universitetlərinin növbəti reytinq cədvəli (Round University Ranking) açıqlanıb. ABŞ-ın Harvard Universiteti 2019-cu il üzrə dünyanın 100 ən yaxşı ali məktəbinin siyahısına başçılıq edir. Harvard Universiteti bu il də liderlik mövqeyini saxlayıb. Reytinqin ilk 10-luğunda ABŞ universitetləri üstünlük təşkil edir.

ABŞ-ın Stanford, Yel, Kolumbiya, Kaliforniya, Massaçusets Texniki universitetləri, Böyük Britaniyanın London İmperial Kolleci, Oksford və Kembric universitetləri və İsveçrənin Sürix Universiteti ilk onluğa daxil olublar.

Reytinqdə Rusiya 74 universitetlə təmsil olunur. Bu ölkənin 5 ali məktəbi ilk yüzlüyə daxil olub: M.V.Lomonosov adına Moskva Dövlət Universiteti (38-ci yer), Tomsk Dövlət Universiteti (59-cu yer), Rusiya Xalqlar Dostluğu Universiteti (77-ci yer), Sankt-Peterburq Dövlət Universiteti (93-cü yer) və "MİFİ" Milli Nüvə Tədqiqatları Universiteti (94-cü yer). Reytinq cədvəlində MDB ölkələrindən 30 ali məktəb ilk 500 universitet sırasında yer alıb.

Sıralamada Azərbaycanın iki ali məktəbi də yer alıb. Bakı Dövlət Universiteti reytinqdə 667-ci, Azərbaycan Memarlıq və İnşaat Universiteti 775-ci yerlərdə təmsil olunurlar. BDU tədrisin keyfiyyətinə görə 543-cü, tədqiqatların keyfiyyətinə görə 668-ci, beynəlmiləlləşmənin səviyyəsinə görə 585-ci, maliyyə davamlılığı səviyyəsinə görə 761-ci, Azərbaycan Memarlıq və İnşaat Universiteti tədrisin keyfiyyətinə görə 743-cü, tədqiqatların keyfiyyətinə görə 724-cü, beynəlmiləlləşmənin səviyyəsinə görə 598-ci, maliyyə davamlılığı səviyyəsinə görə isə 812-ci yerlərdə qərarlaşıblar.

Qeyd edək ki, builki reytinqə dünyanın 74 ölkəsindən 820 ali məktəb daxil olub. 2010-cu ildən dərc edilən reytinq universitetləri 20 kriteriya, o cümlədən təhsilin keyfiyyəti, beynəlmiləlçilik və maliyyə dayanıqlığı kimi meyarlar üzrə qiymətləndirilir. Reytinq tamamilə Clarivate Analytics-in Web of Science elmi bazasının məlumatları əsasında hazırlanıb.

# "Cisco" şirkəti ilə əməkdaşlıq müzakirə olunub

Aprelin 25-də Təhsil Nazirliyində "Cisco" şirkətinin rəhbər heyəti ilə görüş keçirilib.

Görüşdə Təhsil nazirinin müavini İdris İsayev, Təhsil nazirinin müşaviri Həsən Həsənli, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, "Cisco" şirkətinin vitse-prezidenti Qay Didrix, şirkətin Rusiya və MDB ölkələri üzrə vitse-prezidenti Conatan Sperou, şirkətin regional meneceri Vladimir Orlov və "Cisco" şirkətinin Azərbaycanda İnnovasiya üzrə direktoru Ramil Eyyubov iştirak edib.

Görüşdə "Cisco" şirkəti ilə əməkdaşlıq çərçivəsində Azərbaycanda əldə olunan nailiyyətlər, fəaliyyətin daha da genişləndirilməsi, gələcək imkanlar barədə müzakirələr aparılıb. Qeyd edilib ki, Azərbaycan Təhsil Şəbəkəsi çərçivəsində "Cisco" şirkəti ilə yaxından əməkdaşlıq edilib. "Cisco" şirkətinin təqdim etdiyi həllər vasitəsi ilə təhsil müəssisələrində İP-telefoniya, videokonfrans rabitə sistemi, vahid təhsil platforması yaradılıb. Eyni zamanda qeyd olunub ki, hazırda Cisco Şəbəkə Akademiyalarının Azərbaycanda sayı 13-ə bərabərdir. Onlardan 5-i ali təhsil müəssisələrində, digərləri isə özəl qurumlarda yerləşir. Akademiyalarda İT texnologiyalarının əsasları və əməliyyat sistemləri, əşyaların interneti, proqramlaşdırma, şəbəkə texnologiyaları, şəbəkə təhlükəsizliyi və kibertəhlükəsizlik istiqamətləri üzrə təlim kursları keçirilir.

Tədbirdə çıxış edən Təhsil nazirinin müavini İdris İsayev bildirib ki, "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən, ölkədə müasir informasiya və kommunikasiya texnologiyalarını geniş tətbiq etməklə vahid ümummilli təhsil mühitinin yaradılması və əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi əsas prioritet istiqamətlərdəndir. Bu baxımdan Təhsil Nazirliyi tərəfindən son illər təhsil sistemində idarəetmənin informasiyalaşdırılması, İKT infrastrukturunun inkişafı, elektron təhsil texnologiyalarının tətbiqi və kadr potensialının gücləndirilməsi istiqamətində geniş işlər həyata keçirilir. Eyni zamanda bu istiqamətdə dövlət və özəl qurumlar arasında əməkdaşlıq əlaqələrinin yaradılmasına xüsusi diqqət yetirilir.

Tərəflər əməkdaşlığın davam etdirilməsi və birgə layihələr barədə müzakirələr aparıblar.

# Təhsil naziri İstanbul Texniki Universitetinin rektoru ilə görüşüb

Aprelin 22-də təhsil naziri Ceyhun Bayramov İstanbul Texniki Universitetinin (İTU) rektoru Mehmet Karaca ilə görüşüb. Görüşdə, həmçinin İTU-nun rektor köməkçisi Lütfihak Alkpan və İTU-nun Memarlıq fakültəsinin dekanı Mehmet Murat Gül iştirak edib.

Görüşdə İTU ilə Azərbaycanın ali təhsil müəssisələri arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib.

# Ali və peşə təhsili müəssisələrində "Huawei"n laboratoriyaları yaradılacaq

## Təhsil Nazirliyi ilə şirkət arasında əməkdaşlıq memorandumu imzalanıb

Aprelin 19-da Təhsil Nazirliyi və "Huawei Technologies Azerbaijan" MMC arasında əməkdaşlıq haqqında memorandumun imzalanması mərasimi keçirilib.

Memorandum çərçivəsində ali və peşə təhsili müəssisələrində "Huawei" şirkətinin tədris və təcrübə laboratoriyalarının yaradılması, həmçinin Təhsil Nazirliyinin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə distant təhsil avadanlıqları və proqram təminatının verilməsi nəzərdə tutulub.

Tədbirdə çıxış edən təhsil nazirinin müavini İdris İsayev bildirib ki, "Təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na əsasən, ölkədə müasir informasiya və kommunikasiya texnologiyalarını geniş tətbiq etməklə vahid ümummilli təhsil mühitinin yaradılması və əhalinin bütün təbəqələri üçün keyfiyyətli təhsil almaq imkanlarının təmin edilməsi əsas prioritet istiqamətlərdəndir. Bu baxımdan Təhsil Nazirliyi tərəfindən son illər təhsil sistemində idarəetmənin informasiyalaşdırılması, İKT infrastrukturunun inkişafı, elektron təhsil texnologiyalarının tətbiqi və kadr potensialının gücləndirilməsi istiqamətində geniş işlər həyata keçirilir. Eyni zamanda qlobal sənaye ehtiyaclarına hazır olan rəqabətqabiliyyətli kadrların hazırlanması məqsədi ilə təhsil və sənaye qurumları arasında əməkdaşlıq əlaqələrinin yaradılmasına xüsusi diqqət yetirilir.

İdris İsayev görülən işlərin davamı olaraq, "Huawei" şirkəti ilə bu istiqamətdə qurulan birgə fəaliyyətin uğurlu olacağına əminliyini bildirib. O qeyd edib ki, birgə əməkdaşlıq gələcəkdə həm Azərbaycan təhsil sisteminə, həm də şirkətin imicinə mühüm töhfə verəcək.

"Huawei Technologies Azerbaijan" MMC-nin rəhbəri Lu Canlin çıxışında bildirib ki, "Huawei" şirkəti aparıcı qlobal informasiya və kommunikasiya texnologiyaları həlləri provayderidir. Lu Canlin çıxışında qeyd edib ki, şirkətin İKT üzrə təqdim etdiyi həllər, məhsullar və xidmətlər 170-dən çox ölkə və regionda istifadə olunur, dünya əhalisinin üçdə birindən çoxunu təmin edir. 180 min işçisi olan şirkət gələcək informasiya cəmiyyətini və daha yaxşı birləşdirilmiş dünya qurmağı qarşısına məqsəd qoyub. Sabahın məhsul və xidmətlərini təqdim etməklə şirkət elmin inkişafına və istedadlı gənc nəslin formalaşmasına xidmət edir.

Şirkət rəhbəri çıxışının sonunda Təhsil Nazirliyi ilə bu istiqamətdə əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağına və Azərbaycan təhsil sistemində İKT infrastrukturunun inkişafına müsbət təsir edəcəyinə inandığını bildirib.

Görüşdə gələcək əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda təhsil nazirinin müavini İdris İsayev və "Huawei Technologies Azerbaijan" MMC-nin rəhbəri Lu Canlin əməkdaşlıq haqqında memorandumu imzalayıblar.

# Hədəf məktəb olanda...

Azərbaycanda uşaqlar qorunur. Özü də onlar üçün təhlükə ola biləcək hər şeydən - zərərli informasiyadan tutmuş uyğunsuz davranışa qədər. Uşaqlara yönələn hər cür təsirin ölkə qanunları ilə cəzası var. Bu təsir hətta ailədə də olsa. Əsas odur ki, cəmiyyət uşaqlara qarşı həssas olsun. Təsirin harda olduğunu düzgün müəyyənləşdirib uşaqların haqları uğrunda mübarizə əzmi olan vətəndaşlar yetişdirsin. Ancaq bir çox hallarda cəmiyyət özü bu təsirin, şiddətin, gərginliyin səbəbidirsə? Onda necə olsun?

Aprel ayının 4-də VIII sinif şagirdi Elina Hacıyevanın təhsil aldığı 162 nömrəli tam orta məktəbin üçüncü qatından özünü ataraq intihar etməsi bütün ölkə ictimaiyyətini sarsıtdı. Hadisənin məktəbdə baş verməsi isə məktəbi hədəfə çevirdi. O gündən bu yana məktəbdə hər yıxılan üçün “Müəllim şagirdin başını yardı” deyildi. “Müəllimin döydüyü”, “məktəbin təzyiq göstərdiyi”, “sinif yoldaşlarının təhqir etdiyi” uşaqlar qəzet manşetlərinə çıxdı, xəbər qəhrəmanına çevrildilər. Mövzu uzandıqca uzandı, məsələ yetərincə çürüdüldü. Uzun-uzadı gedən müzakirələrdə fikirlər, fikirlərin arasında hisslər, hətta həqiqətin özü belə. Bu arada günümüzün gerçəkliyi unuduldu. Nədir o gerçəklik?

### Ailə

Bir uşaq ailədə böyüyür, sonra məktəbə gedir. Bu da bir həqiqətdir ki, bir uşağın məktəbdə keçirdiyi saatlar ailədə keçirdiyi vaxtdan daha çox deyil. İstənilən halda hadisələrdə ailələrin rolu daha böyükdür. Unutmamalıyıq ki, bir ailənin uşağına məktəbdə, küçədə, idman zalında, kitabxanada təzyiq göstərənlər də bir başqa ailənin uşaqlarıdır.

### Məktəb

Həmin ailələrin uşaqlarında buraxdığı mənfi izləri silmək, zərərli vərdişlərdən arındırmaq, doğru yol göstərmək məktəbin işidir. Ancaq biz məktəbin də öz işini görməsinə imkan vermirik. Artıq neçə illərdir ki, uşağına söz dediyinə görə məktəbdən şikayət edənlərlə bağlı xəbərləri media böyük həvəslə işıqlandırır.

### Bu da cəmiyyət

Bir uşaq sadəcə ailədə böyüyüb, ancaq məktəbdə öyrənmir. Yetişməkdə olan nəsil cəmiyyətdə böyüyür, cəmiyyətdən görüb-götürür. Ailədəkilər kimi məktəbdəkilər də bu cəmiyyətin üzvləridir. O cəmiyyətin ki, məktəbin qarşısında biznes qurur, siqareti reklam edir, uşaqlara zərərli vərdişlər aşılayır, pis nümunə olur, yanlış yol göstərirlər. Bakıda bütün çay evlərindən, kafelərdən ətrafa yayılan qəlyan qoxusu ilə uşaqlara nə öyrədirik. Köşklərin qarşısında siqaret qutuları qoyaraq uşaqları nəyə təhrik edirik? Dəfələrlə məsələ qaldırılmasına baxmayaraq, məktəblərin 100 metrliyindən qəlyanxanaları, siqaret köşklərini yığışdıra bilməyən biz deyilikmi? Biz deyilikmi hər yerdən əlimiz çıxanda məktəblərin qarşısında dənə ilə siqaret satan da? Nəticə də ondan ibarətdir ki, cəmiyyətdə nəinki oğlanların, siqaret çəkən qızların da faizi getdikcə artır. Məsələ burasındadır ki, o qızları görməkdən utanmır, hətta onların şəkillərini yayırıq. Xilas edə bilmədiyimiz uşaqları nümunəvi olmayan həyat tərzinə görə qınayırıq. Qınayarkən onları tərbiyələndirmir, əksinə, qeyri-ənənəvi həyat tərzini təbliğ edirik. Yalnız bir uşağı qeyri-ənənəvi həyat tərzinə görə qınayacaq qədər utanmaz bir cəmiyyət qurbanının həyatını sağ qalanlara da göstərər. Görüb götürsün deyə.

### Bəs, məktəb niyə hədəfdədir?

Sadalananlar hər birimizin üzvü olduğu cəmiyyətdə mütəmadi gördüyümüz problemlərin mindən biridir. Elə isə məktəb niyə hədəfdədir?

Bu gün bir çox hallarda valideynin qorxusundan uşağa irad bildirməyən müəllim, valideyni məktəbə gətirmək üçün yollar axtaran məktəb nədə günahlandırılır?

Unutmayın ki, biz özümüz də bilmədən təsir imkanı olduğu halda müdaxilə etməyən müəllimlər hazırlayırıq.

Əməkdaşlıq, sözbirliyi ilə tərbiyəli nəsil yetişdirə biləcəyimiz halda hər cür bəhanə ilə günahlandıraraq biganə məktəb formalaşdırırıq.

Unutmayın, hədəf götürdüyünüz məktəbin məzunları qurucu, yaradıcı, müstəqil, tənqidi təfəkkürü formalaşmış insan deyil, dağıdıcı, tərbiyəsiz, özbaşına, səhvini doğru kimi diqtə edənlər olacaq. Hədəf götürdüyünüz müəllimin yetirmələri isə alimlər, mühəndislər yox, biganələr ordusu kimi həyata addım atacaq.

**“Azərbaycan müəllimi”**

# Azərbaycanda texniki elmlər sahəsində çalışanların 53 faizini qadınlar təşkil edir

⇦ Əvvəli səh.1

Samirə KƏRİMOVA

## Qadınların İKT sektorunda iştirakı müzakirə olunub




Bu gün İKT sektorunda qadınların rolunun və xüsusi çəkisinin artırılmasının aktuallıq kəsb edən məsələlərdən olduğunu söyləyən akademik Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ), YUNESKO kimi nüfuzlu beynəlxalq təşkilatların bu məsələlərin həllinə böyük diqqət ayırdığını nəzərə çatdırıb.

Konfransın 2014-cü ildən etibarən BTİ-nin təşəbbüsü ilə hər il qeyd edilən “Qızlar İKT-də Beynəlxalq günü” ilə əlaqədar keçirildiyini deyən A.Əlizadə tədbirin bu istiqamətdə elmi problemlərin müəyyən edilməsi baxımından önəmini qeyd edib.

Gender məsələsinin Azərbaycanın dövlət siyasətinin əsas prioritetlərindən biri olduğunu vurğulayan AMEA prezidenti bu siyasətin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini söyləyib: “Həmin siyasətin nəticəsidir ki, bu gün Azərbaycan qadınları dövlət orqanlarında, elm, təhsil və tibb müəssisələrində, biznes və vətəndaş cəmiyyəti sektorlarında, ədəbiyyat, incəsənət və idman sahələrində ən yüksək səviyyədə təmsil olunurlar”.

Son dövrlər elm sahəsində çalışan qadınların sayının kişilərə nisbətən ilbəil çoxalmaqda olduğunu qeyd edən akademik texniki peşələr, o cümlədən İKT sahəsi ilə bağlı olan peşələrdə qadınların rolunun artdığını vurğulayıb, bu tendensiyanın Azərbaycanda da özünü qabarıq şəkildə göstərdiyini bildirib. Akademikin sözlərinə görə, 2018-ci ildə Azərbaycanda texniki elmlər sahəsində çalışanların 53 faizini qadınlar, 47 faizini isə kişilər təşkil edib.

Akademik A.Əlizadə çıxışının sonunda AMEA-da, onun elmi müəssisə və qurumlarında Qadınlar Şurasının fəaliyyət göstərdiyini bildirərək bu şuranın elmi mühitdə çalışan xanımların müxtəlif problemlərini, qayğılarını üzə çıxartmağa və onları daha effektli şəkildə həll etməyə imkan verdiyini diqqətə çatdırıb.

“Qadınların elmi yaradıcılıqda və peşə seçimində İKT-nin rolu” mövzusunda məruzə ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə elmlər doktoru, professor Hicran Hüseynova İKT-nin gender bərabərliyi, qadınların hüquq və imkanlarının genişləndirilməsinin təmin edilməsində əsas amillərdən biri olduğunu söyləyib.

“YUNESKO-nun hesabatlarına görə, Azərbaycan bütövlükdə tədqiqatçılar arasında qadınların sayı daha çox olan ölkələr sırasındadır,” - deyən komitə sədri bildirib ki, Azərbaycan qadınları və qızları arasında İKT sektoruna dair məlumatlılıq səviyyəsinin yüksəldilməsi və bu sahəyə peşəkar marağın təşviq edilməsi, gənc qızların gələcək karyeralarını məhz İKT sahəsində iş qurmalarına həvəsləndirilməsi qarşımızda dayanan əsas məsələlərdəndir.

AMEA İdarəetmə Sistemləri İnstitutunun laboratoriya müdiri, texnika üzrə fəlsəfə doktoru, dosent Gülçin Abdullayeva “Qadınlar İKT-də: beynəlxalq aləmdə və ölkəmizdə ümumi mənzərə” mövzusunda məruzə ilə çıxış edərək informatika elminin yaranma tarixindən söz açıb. O, Elektron Hesablayıcı Maşınların istifadə edilməsi üzrə ilk tədqiqatlardan danışıb, keçmiş SSRİ-də və Avropada ilk Kiçik Elektron Hesablama Maşını haqqında məlumat verib.

Məruzəçi, həmçinin ortopediyada cərrahi müdaxilənin məsləhətçi intellektual sistemi və Azərbaycan əl xalılarının naxış, ornamentlərinin tanınma və identifikasiya sistemini təqdim edərək onların imkanlarından danışıb və iş prinsipini diqqətə çatdırıb.

“Gender problemlərinin həllində İKT-nin rolu və perspektivləri” mövzusunda məruzə ilə çıxış edən AMEA-nın müxbir üzvü, texnika üzrə elmlər doktoru, professor Məsumə Məmmədova qadınların İKT-yə cəlb olunması zərurətini təyin edən amillərdən bəhs edib.

Məruzəçi daha sonra e-tibbin qadınların sağlamlıq problemlərinin həlli baxımından təqdim etdiyi imkanlardan söz açıb, eləcə də elektron təhsilin gender assimetriyasının aradan qaldırılması baxımından sosial əhəmiyyətə malik olduğunu söyləyib.

AMEA Qadınlar Şurasının sədri, fəlsəfə elmləri doktoru, professor Rəna Mirzəzadə “AMEA-da gender mədəniyyəti və İKT” mövzusunda məruzə ilə çıxış edərək ölkədə qadınların İKT sektorunda iştirak səviyyəsi, gender problemlərinin həllində İKT-nin rolu və perspektivləri haqqında məlumat verib.

AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Hikmət Quliyev “Azərbaycan mədəni mühitində qadınların sosial statusunun inkişafında kommunikasiyaların rolu” mövzusunda məruzəsində kommunikasiya vasitələrinin meydana gəlməsi ilə sosial-mədəni sferada baş verən dəyişikliklər arasındakı əlaqələrdən danışıb.

AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev “Qadınlar və fərdi məlumatların mühafizəsi problemləri” mövzusunda məruzə ilə çıxış edərək fərdi məlumatların mühafizəsinin normativ-hüquqi bazasından və beynəlxalq çağırışlardan bəhs edib. Dünyanın əksər ölkələrində fərdi məlumatların mühafizəsi ilə məşğul olan milli qurumlar- agentliklər, komissarlıqlar, ombudsman aparatları, inspeksiyalar və s. fəaliyyət göstərdiyini bildirən akademik fərdi məlumatların mühafizəsi sahəsində çoxlu sayda beynəlxalq standart və tövsiyələrin işlənildiyini, hər ilin 28 yanvar tarixinin Beynəlxalq Fərdi Məlumatların Mühafizəsi Günü kimi qeyd olunduğunu diqqətə çatdırıb.

İKT-nin inkişafının insanların şəxsi və ailə həyatına dair fərdi məlumatların daha da şəffaflaşmasına səbəb olduğunu bildirən R.Əliquliyev ölkəmizdə fərdi məlumatların mühafizəsi ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Ədliyyə Nazirliyi və s. qurumların məşğul olduğunu söyləyib.

“Fərdi məlumatların beynəlxalq və ölkələr səviyyəsində “qara bazar”ı formalaşır”, - deyə bildirən institutun direktoru “qara bazar”da təklif olunan xidmətlərdən söz açıb.

R.Əliquliyev milli mentalitetdə fərdi məlumatların qorunmasının mühüm əhəmiyyət kəsb etdiyini söyləyərək xüsusilə qadınların şəxsi və ailə həyatına dair fərdi məlumatlarının böyük hissəsalığa malik olduğunu diqqətə çatdırıb.

Akademik daha sonra fərdi məlumatların mühafizəsi ilə bağlı təkliflərini səsləndirib, onun sosial-psixoloji, hüquqi, texnoloji və s. aspektləri üzrə multidissiplinar araşdırmaların aparılmasının, fərdi məlumatların mühafizəsi sahəsində yüksəkixtisaslı hüquqi, texnoloji və s. sferalar üzrə kadrların hazırlanmasının zəruriliyini vurğulayıb.

Konfransın sonunda müzakirələr aparılıb, təkliflər səsləndirilib.

# Türkiyənin texnopark təcrübəsi öyrəniləcək

## AzMİU-da Azərbaycan və Türkiyə universitetlərinin rəhbərlərinin iştirakı ilə “dəyirmi masa” keçirilib

Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) ölkəmizin aparıcı ali təhsil müəssisələrinin rəhbərləri və Türkiyənin nüfuzlu İstanbul Texniki Universitetindən (İTU) gələn nümayəndə heyətinin iştirakı ilə “dəyirmi masa” keçirilib.

Tədbiri giriş sözü ilə açan rektor, professor Gülçöhrə Məmmədova universitetin Elmi Şurasında professor Mehmet Karacaya AzMİU-nun Fəxri doktoru adı verildiyini və İTU ilə memarlıq ixtisası üzrə ikili diplom layihəsini nəzərdə tutan Niyyət protokolu imzalandığını diqqətə çatdırıb. Daha sonra G.Məmmədova universitetdə keçirilən görüşün mühüm əhəmiyyətini vurğulayıb, həmkarlarını İTU-nun təcrübəsini öyrənməyə səsləyib.

“Dəyirmi masa”da çıxış edən İTU-nun rektoru Mehmet Karacanın “İTU nümunəsində XXI əsrdə universitetlərin dünəni, bu günü və sabahı” mövzusunda geniş məruzəsi maraqla qarşılanıb. O, müasir dünyanın tələblərinə uyğun olaraq bu gün təhsilin forma və məzmununun dəyişdiyini, yeni biznes strukturlarının yaradılması ehtiyacının ortaya çıxmasının vacibliyini, təhsil alanların biznes ideyalarının gerçəkləşməsi üçün startap layihələrinin önəmini vurğulayıb. Rektor İTU-da yaradılan texnoparkın fəaliyyətindən də danışıb, universitet-sənaye işbirliyinin əməkdaşlığının faydalı nəticələrinə diqqət çəkib: “Texnopark yaradılması önəmsi dünyanın bir çox inkişaf etmiş ölkələrində tətbiq olunur. Bizdə 1998-ci ildən bu təcrübədən istifadə olunur. Biz dünya ölkələrindəki uğurlu təcrübələri tətbiq etməklə bu sahədə inkişafa nail olmuşuq. Bu gün tələbələrimizi, gənc tədqiqatçılarımızı, habelə ölkəmizin sənaye şirkətlərini texnoparka cəlb edirik, qarşılıqlı əməkdaşlıq uğurlu nəticələr verir”. Türkiyəli professor çıxışında texnoparklar hesabına universitetlərin maliyyə dayaqlarının möhkəmlənməsi perspektivlərinə də toxunub, texnoparkların yaradılması üçün ilkin görülən işlərlə bağlı təcrübəsini azərbaycanlı həmkarları ilə bölüşüb.

Mehmet Karacanın çıxışından sonra geniş müzakirələr başlayıb. “Dəyirmi masa”da iştirak edən universitet təmsilçiləri mövzu ətrafında fikir mübadiləsi apardılar. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov Türkiyə universitetlərindən fərqli olaraq ölkəmizin ali məktəblərində texnopark ənənəsinin formalaşmasının zəruriliyindən bu məsələnin universitetlərin maraq dairəsində olmasından söz açıb.

Bakı Mühəndislik Universitetinin (BMU) rektoru, professor Havar Məmmədov Türkiyənin tanınmış universitetlərinin texnoparklarında dəfələrlə olduğunu bildirib: “İTU-nun texnoparkı doğrudan da möhtəşəmdir, burada istehsalat nümayəndələri, tələbələr, gənc mütəxəssislər iş aparır. Qurulan sistem olduqca mükəmməldir. Universitetlər olaraq bizim iqtisadi və maliyyə cəhətdən problemlərimiz var, bu ideyanı universitetlərdə tətbiq etmək üçün istehsalatla əlaqələri daha səmərəli qurmaq vacibdir. Hazırda isə bu, mümkün deyil. Çünki istehsalat müəssisələri tərəfindən buna maraq olduqca azdır”.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru, professor Mustafa Babanlı Azərbaycan universitetlərində startap hərəkatının geniş vüsət aldığını, gənclərin bu sahəyə marağının artdığını vurğulayaraq bu layihələrin gələcəkdə biznesə çevrilməsi yolunda yaranan çətinliklərdən bəhs edib. O, rəhbərlik etdiyi ali təhsil ocağının nümunəsində tələbələrinin hazırladığı startap layihələrinin gerçəkləşməməsinin səbəblərinə toxunub.

Müzakirələr zamanı İTU-nun rektoru texnopark ənənəsinin öyrənilməsində Azərbaycan universitetlərinə dəstək göstərməyə hazır olduğunu bildirib, universitet rəhbərlərini və təmsilçilərini İTU Texnoparkının fəaliyyətini izləmək və təcrübəsini öyrənmək üçün Türkiyəyə dəvət edib.

Qarşılıqlı müzakirələr şəraitində keçən “dəyirmi masa”nın sonunda rektor Gülçöhrə Məmmədova Türkiyə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında və inkişafında göstərdiyi dəstəyə görə Azərbaycanın Türkiyə Respublikasındakı səfirliyinin təhsil məsələləri üzrə birinci katibi Nəcibə Nəsibovaya təşəkkürünü bildirib və ona AzMİU-nun Fəxri diplomunu təqdim edib.

N.Nəsibova da öz növbəsində görüş üçün AzMİU-nun rektoru Gülçöhrə Məmmədovaya minnətdarlıq edib, universitet nəzdində texnopark təcrübəsini yerli universitetlərin nümayəndələri ilə bölüşdüyünə görə İTU-nun rektoru M.Karacaya təşəkkürünü bildirib.

# Təhsilin sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə transformasiyası: itirdiklərimiz və qazandıqlarımız

**"Azərbaycan müəllimi" qəzeti təhsil eksperti, fəlsəfə üzrə fəlsəfə doktoru Etibar Əliyevin Azərbaycan Avropa Məktəbində Azərbaycan Müəllim İnkişaf Mərkəzinin təşkil etdiyi "Transformasiya üçün təhsil" TEDx konfransındakı çıxışının aktuallığını nəzərə alıb həmin çıxışı dərc edir.**

Müəyyən olunmuş mövzuya görə mən dərhal təhsildən danışmalı idim. Yəqin siz də bunu gözləyirdiniz. Bilirəm ki, təhsillə bağlı əksəriyyətinizin qayğıları, özünüzün, yaxınlarınızın, övladlarınızın, sizə əziz olan bütün uşaqların və yeniyetmələrin təhsili ilə bağlı ciddi düşüncələriniz var. Ölkə təhsilinin sabahı hamımızı düşündürür. Bəlkə də məndən elə sözlər eşitmək istəyirsiniz ki, planlarınız qətiləşsin, ya dəyişsin, ya da hər şeyin yolunda olduğuna əmin olasınız.

Amma mən indi aclıqdan danışmaq istəyirəm. Bəli, məhz aclıqdan. Sizə də yaxşı bəllidir ki, tarixin müxtəlif dövrlərində bəşər övladlarının böyük qismi aclıqla üz-üzə qalıb və hətta aclıq bəzən böyük insan kütlələrinin sonuna çıxıb.

Ac adamı indi də təsəvvür etmək olar, səhərdən axşamacan, ya sabahacan ac qalan adamı... Onun halını, əsən əllərini, rəngini dəyişən dodaqlarını, qırpınan gözlərini xəyalımızda canlandıra bilərik. Acı mənzərə alınacaq. Amma bir də əksəriyyətin aclıq yaşadığı kənd və şəhərləri, ölkələri düşünün. Aclıq qorxunc və zalımdır. Onu sadəcə düşündükdə də dəhşətli mənzərə adamı çaşdırır.

Bəşər tarixinin böyük hissəsi aclıqla keçilib. Bunu heç kim inkar etmir. Mən indi aclıqla bağlı çox acı tarixi olaylar xatırlada bilərəm. Amma bu acılığa bir az da gülüş qatsaq, fransız kraliçası Mariya Antuanettanın çörək istəyən ac xalq haqda dediyi sözləri hamınız bilirsiniz: "Çörək yoxdursa, tort yesinlər!"

Bu gün siz kəndə getsəniz, görəcəksiniz ki, dadlı kənd məhsulları - kəndin çörəyi, balı, qaymağı, əti, toyuğu, tərəvəzi, göyərtisi adamı iştaha gətirir. Aqrar gözəllik deyə bilərsinizmi buna? Bəli, deyə bilərsiniz. Bilirsiniz ki, aqrar dövr özündən əvvəlkinə nisbətən artıq irəli bir cəmiyyət idi. Amma bəşəriyyət özünün aqrar dövründə, yəni əhalinin böyük əksəriyyətinin kənd təsərrüfatı ilə məşğul olduğu dövrdə daha böyük, daha dəhşətli aclıqlar yaşamışdı. "Yağmadı yağış, bitmədi qamış" dövrü idi. Hətta onu da demək olar ki, sənaye dövrü aclıqlara qarşı yarandı. Təhsilə də aclığa qarşı düşünülmüş layihə kimi baxmaq olardı. Sənaye özünün yeni üsul və qurğuları ilə istehsalı artırmalı, aclığı da yox etməli idi. Maarifçi baxışlarda xeyli mənəvi və ictimai hədəflər də vardı. Amma sənaye dövründə təhsilə əsasən əməyi həyata keçirənləri hazırlamaq vasitəsi kimi baxırdılar. Təhsil sənaye üçün işçilər hazırlayırdı. Aqrar dövrün arxada qalması kənd təsərrüfatının aradan qalxması deyildi, amma indi ona da yardımçı olan və yalnız onunla kifayətlənməyən yeni istehsal sahələri - sənaye yaranmışdı. Üsullar, qurğular, gübrələr, vasitələr yardıma gəlmişdi. Sənayeyə yaxından yardımçı olan yeni təhsil modeli də yaranmışdı. Sənaye dövrü postsənaye dövrünə yaxınlaşanda artıq aclığa kifayət qədər qalib gəlinmişdi. Aclıq tamam yox olmamışdı, amma ondan qurtulmağın yolları tapılmışdı. Yeni situasiya və yeni istehsal sahələri yaranmışdı. Əhalinin daha çox hissəsi artıq sənaye və aqrar sektorda çalışmırdı. Xidmət sahələri böyümüş, yeni növ məhsulun istehsalına başlanılmışdı. Bu məhsulun adı bilgi idi. Yəni postsənaye dövrü gəlmişdi. Bilği çağı, informasiya cəmiyyəti adlandırmaq olardı onu. İkinci Dünya müharibəsi bitmiş, hətta kənd təsərrüfatı məhsuldarlığının bolluğu bəzi ölkələrdə bazarı öldürmüş və böhran yaratmışdı. Bəli, məhz bolluqla böhran yaranmışdı.



Məhsul çox idi və bu səbəbdən ucuzlaşdığı üçün istehsala marağı öldürmüşdü. Amma artıq aclığa qalib gəlməyin yolları tapılmışdı. Aclıq, kasıblıq, səfalət yenə haralardasa vardı, amma bunun qalma səbəbləri ictimai-siyasi idi. Əsas o idi ki, aclığın aradan qaldırılması yolları - yeni istehsal imkanları tapılmışdı. Keçilmiş yolu ümumiləşdirsək, görün necə mənzərə yaranır:

1. Aqrar dövr - bu dövrdə əsas struktur istehsala heç nə verməyən, lakin ona sahib çıxan monarxiya, ordu, kilsə və digər dini idarəçilik strukturlar idi.

2. Sənaye dövrü - əsas struktur firma və korporasiyalar idi.

3. Postsənaye dövrü - əsas struktur bilgini, bilim adamlarını, bilən adamları yaradan və paylayan universitetlərdir. Gördünüzmü, sənaye dövründən sonra təhsilin modeli və rolu necə dəyişdi. Sənaye dövründə təhsil sənayeyə, əməyə bağlı idi. Postsənaye dövründə o, müstəqil və mərkəzi mövqedədir.

Bu gün təhsil klassik maarifçilərin dediyi mənəvi vəzifəni də yerinə yetirir, sənaye dövründəki kimi işi bilən əməkçilər də yetişdirir, ən başlıcası, bilgi istehsal edir və bu bilgilərlə yeni dövr yaradır. İndi yeni dövr də o qədər tez gəlir ki, asanlıqla demək olar - gələcək daha tez ortaya çıxır. Dünən sehrli güzgü ilə danışmağı nağıl edən adamlar bu gün ağıllı telefonlarla videogörüntü ilə danışmağı adi hal sayır.

Yəni aclıq hekayəsinin bitməsi təkcə qarınların doydurulması deyil.

100 il bundan qabaq orta ömür əksər ölkələrdə 30 yaşın civarında idisə, bu gün Avropada orta ömür 80-ni ötüb. Nə vaxtsa kralların ailəsində uşaq ölümü o qədər çox idi ki, bəzən varis tapmaq çətin olurdu. Bu gün isə normal ölkələrdə bu göstərici 1%-in altındadır. Tarix boyu Azərbaycanda ürək və qəlb barədə yalnız gözəl şeirlər yazılırdısa, bu gün ürəkköçürmə əməliyyatları həyata keçirirlər.

Harvardlı alim Deniel Bell 1959-cı ildə postsənaye anlayışını bizə bəxş edəndə, yəqin ki, yeni dövrün bu qədər böyük üfüqlərə sahib olacağını düşünməzdi.

Əzizlərim, aclıqla mübarizə dövrü mahiyyətcə arxada qalıb, indiki dövr insanı bütün bəlalardan qurtarmaq və ya daha böyük imkanlara sahib olmaq dövrüdür.

Və gördünüz ki, təhsil bu dövrün mərkəzində dayanıb. Universitetlər yeni dövrün baş müəssisələridir. Rəqabətə davamlılıq, sürət, məhsuldarlıq, innovasiya və az qala hər fayda oradan gəlir. Təhsildən gəlir. Kimlərsə bu dövrlə hələ yaxşı ayaqlaşa bilmirsə, o demək deyil ki, bu dövr uğurlu deyil. İndi aclıq hekayəsini bitirib, ayaqlaşmağa qayıdaq. Ayaqlaşa bilirikmi? Burada qırxayaq haqda məşhur şeir yadıma düşür. Uilyam Harveyin şeiri:

*Biri vardı, biri yoxdu,*
*şən bir qırxayaq vardı,*
*Qurbağa bir söz soruşub,*
*onu cəncələ saldı.*
*"Hansı ayağından sonra hansı*
*ayağın gəlir?"*
*Qırxayaq bərk fikrə getdi, sonra*
*duruxub qaldı,*
*İndi yazıq çaşbaş olub,*
*daha yeriyə bilmir.*

Baxırıq, nələrimiz var, baxırıq ki, bizə lazım olandan 40 şey var. Amma postsənaye dövrünün bütün tələbləri olmadıqda, o 40 şey, şeirdə deyilən kimi, bir birinə dolaşır - qırxayağın ayaqları kimi. Biz ayaqlaşa bilmirik. Univeristetlərimiz ayaqlaşa bilmir. Başlanğıclar var, amma ayaqlaşa bilmirik. Bu, reallıqdır. Bəziləri düşünə bilər ki, elə ölkələr var universitetləri qədimdir, ona görə irəlidədir. Amma tamam tərsinədir. O universitetlər qədim də ola bilər, cavan da, amma yeni olmalıdırlar. Cənubi Koreyada olduqca gənc bir universitet yaratdılar, Koreya İrəli Texnologiyalar Universiteti (KAİST) bu gün ABŞ universitetləri ilə rəqabət aparır. Onu yaratmaq üçün ABŞ-ın əfsanəvi Massaçusets Texnologiya İnstitutunun köməyindən istifadə etmişdilər. Çox sadədir məsələ! Universitet qocalmaz, yeni, təzə-tər qalar. Təhsil də həmçinin. Bizim müasirliklə ayaqlaşmağımız üçün təhsilimizin cavan, iti ayaqları olmalıdır. Möhkəm və yeriyə bilən. Bu gün dünyada ən iti qaçan ayaq azərbaycanlı idmançıya məxsusdur. Amma təhsilimzin ayaqlarının iti olmasından ötrü işlər görülməlidir. Bilgi məhsula çevrilməlidir. Bilgili insan kapitala çevrilməlidir. Bunun yolunu bilirikmi? Çox vacib sual budur.

Nüfuzlu Kolumbiya Universitetində 2005-ci ildən "Bilməmə" kursları tədris olunur. Universitetə məşhur alimlər dəvət olunurlar ki, onlar nələri bilmədikləri haqqında danışsınlar. Müxtəlif sahələrin alimləri danışırlar ki, onlar nəyi bilmək istəyərdilər, onların düşüncəsinə görə daha vacib olanlar nədir, zəruri bilikləri necə almalıdırlar? Bu kurslarda əsas diqqət ona ayrılır ki, dərsliklərdə nə yoxdur, buna görə də tələbələrdə nəyi bilmədikləri, nəyi bilmək istədikləri haqqında düşüncələri oyadırlar.

Bizim təhsil bilgi verməklə yanaşı, insanımıza bilmədikləri haqda da düşünməyi öyrətməlidir. Bizim təhsil bilinməyənləri axtarmağa başlamalıdır.

Postsənaye dövrü budur.

Məncə, biz özümüzə sual etməliyik, biz postsənaye cəmiyyəti olmuşuqmu? Nə qədər olmuşuq? Biliyin statusu dəyişibmi? Bilik güclü məhsula çevrilibmi?

Bizim buradakı mövzunun adı əslində, çox maraqlıdır: "Təhsilin sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə transformasiyası: itirdiklərimiz və qazandıqlarımız". Heç nə itirməyəcəyik. Nə qazanacağıq?

Qazanc haqda düşünməyin də yeri yoxdur burada. Bu, bizim dövrümüzdə mövcud olmağın doğru yoludur. Ayaqlaşmaq yoludur. Ayaqda durmaq yoludur. Yəni təhsilin hekayəsi aclıqdan başlayır və ayaqlaşmaqla bitməlidir.

Təhsilin hekayəsi sonacan yazılmalıdır. Ayaqlaşmaya qədər yazılmalıdır.

Postmodernist filosof R.Rorti iki növ təhsili fərqləndirir: mövcud ənənəvi mədəniyyətə qoşulma və sərbəst cəhdlər, öz təcrübə və mülahizələrinin nəticələrinin dərk edilməsi hesabına müasir mədəniyyətin müxtəlifliyinə qoşulma.

Postmodernistlər müasirlərin diqqətini canlı və mürəkkəb həqiqətin birxətli doqmaya çevrilməsi təhlükəsinə cəlb edirlər. Tənqidi pedaqogika istənilən digər pedaqogikanı məcbur edir ki, bir şeyi daima nəzərdə saxlasınlar: insan öz yanlış fikirlərinin əsirinə çevrilməyib ki?

Deviz belədir: "Özünə kənardan baxmağın vaxtı deyilmi? Bəli, özümüzə kənardan baxmağı bacarmalıyıq".

## Bakı Dövlət Universitetində Himayəçilər Şurası yaradılıb

Təhsil naziri Ceyhun Bayramov Bakı Dövlət Universitetinin Himayəçilər Şurasının tərkibini təsdiq edib.

Himayəçilər Şurasının tərkibinə Təhsil naziri Ceyhun Bayramov, Ədliyyə nazirinin müavini Azər Cəfərov, AMEA-nın vitse-prezidenti İsa Həbibbəyli, Xalq yazıçısı Elçin Əfəndiyev, Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, "Azərkosmos" ASC-nin sədri Rəşad Nəbiyev, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə heyətinin sədri Fərid Şəfiyev və "BP" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli daxildir.

Qeyd edək ki, Himayəçilər Şurası ali təhsil müəssisələrinin inkişafına yardım edən, ictimai əsaslarla fəaliyyət göstərən strukturdur. Təhsilin inkişafı baxımından xüsusi əhəmiyyət daşıyan Himayəçilər Şurasının üzvləri müxtəlif peşə sahibləri olan nüfuzlu şəxslərdən təşkil edilir. Şuranın məqsədi elm və təhsilin inkişaf etdirilməsi, milli təhsilin nüfuzunun yüksəlməsi, ona əlavə dəstək verilməsidir.

Şura universitetin qanuni fəaliyyətinin həyata keçirilməsində, ali təhsil müəssisəsinin inkişafına mane olan aktual problemləri həll etməkdə köməklik göstərəcək. Bundan başqa, universitetdə təhsil xidmətlərinin rəqabətqabiliyyətliliyinin təmin edilməsi, universitetin tədqiqat və təhsil, mədəni və intellektual mərkəz kimi inkişafına dəstək verilməsi, ali təhsil müəssisəsinin dövlət, ictimai və biznes strukturları ilə əməkdaşlığının təşviq edilməsi Şuranın səlahiyyətlərinə daxildir.

Şura beynəlxalq təhsil, elmi, texniki və mədəni əməkdaşlığın inkişafına yardım etməklə yanaşı, təhsil müəssisəsinə büdcədənkənar vəsaitlərin cəlbi və universitetin infrastrukturunun inkişafı, maddi-texniki bazasına dəstək verilməsi funksiyalarını da həyata keçirəcək.

Xatırladaq ki, Himayəçilər Şurası dünyanın məşhur universitetlərində strateji qərarların verilməsində mühüm rol oynayır.

## "Logix Academy"də təlim keçən tələbələrə sertifikat verilib

Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) "Destec Group" MMC-nin nəzdində "Logix Academy"də təlim keçən İqtisadiyyat və Menecment fakültəsinin (İMF) tələbələri ilə görüş keçirilib.

Görüşdə ADNSU-nun rektoru, professor Mustafa Babanlı son illərdə universitetdə həyata keçirilən islahatlar barədə məlumat verib, əsas məqsədin ölkə üçün keyfiyyətli mütəxəssis yetişdirmək olduğunu qeyd edib. Universitetin "Dəvətli professor" layihəsinin əhəmiyyətindən danışan rektor bildirib ki, istehsalat müəssisələrində çalışan peşəkar mütəxəssislərin tələbələrlə ünsiyyətdə olması, öz təcrübələrini bölüşməsi gənclərin praktiki biliklərinin artırılması üçün çox vacibdir.

Tədbirdə M.Babanlı "Destec Group" MMC-nin direktoru Mürşüd Həmidova "Təşəkkür plaketi" təqdim edib.

M.Həmidov ADNSU ilə "Destec Group" arasında əməkdaşlıq əlaqələrinin bundan sonra da davam edəcəyinə inandığını bildirib. ADNSU tələbələrinin həmişə yüksək hazırlığı ilə seçildiyini qeyd edən M.Həmidov bu tədris ilində şirkətdə istehsalat təcrübəsinə cəlb olunan 25 nəfər tələbədən 12-nin artıq işlə təmin olunduğunu diqqətə çatdırıb.



Tədbirin sonunda "Logix Academy"də təlim keçən tələbələrə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, ADNSU-nun iqtisadiyyat üzrə təhsil alan bir qrup tələbəsi "Destec Group" MMC-nin nəzdində "Logix Academy"də 5 həftəlik praktiki dərslərdə iştirak edib. Aprelin 16-da təlimin yekun qiymətləndirilməsi və tələbələrin sertifikatlaşdırılması məqsədilə imtahan keçirilib.

## UNEC alimlərinin dünya elminə töhfəsi

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov, UNEC-in İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Yadulla Həsənli və UNEC Biznes Məktəbinin direktoru, Harvard Universitetinin Davis Rusiya və Avroasiya Araşdırmalar Mərkəzində (Beyin Mərkəzində) oktyabr, 2017-sentyabr, 2018-ci il tarixlərində dəvətli tədqiqatçı, dosent Nazim Hacıyevin "Neftin dünya bazar qiyməti: təsir edən amillər və proqnozlaşdırma ("World Market Price of Oil: Impactıng Factors and Forecastıng (SpringerBriefs in Economics))" kitabı dünyanın tanınmış nəşriyyat evi və Elmi nəşrlərin Sosial-iqtisad və Təbiət Elmləri (SENSE) sahəsində resenziyalı yüksək kateqoriyalı Springer nəşriyyatı tərəfindən çap edilib.

Kitabın elmi redaktoru Harvard Biznes Məktəbinin professoru və Davis Rusiya və Avroasiya Araşdırmalar Mərkəzinin (Beyin Mərkəzi) direktoru, professor Ravi Abdelal və Milli Məclisin iqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadədir. Nəşrin elmi rəyçiləri isə Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə və AMEA-nin İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, AMEA-nin müxbir üzvü, İspaniya Kral Akademiyasının akademiki Qorxmaz İmanovdur.

Kitabda qlobal iqtisadiyyatda baş verən yeni tendensiyalar və çağırışlar fonunda mühüm strateji əhəmiyyət daşıyan xam neftin dünya bazarlarında qiymətinə təsir edən amillər, 2020-ci ilə qədər neftin dünya bazar qiyməti və ilk dəfə olaraq Azərbaycan neftinin (AzərLayt) dünya bazar qiymətinin orta və uzunmüddətli dövr üçün elmi və praktik baxımdan əsaslandırılmış proqnozlaşdırmağa imkan verən ekonometrik (ARIMA, Trend və Hibrit) modelləri qurulub.

# M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında ənənəvi olaraq “Açıq qapı” günü keçirilib

Aprelin 20-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında 2019-2020-ci tədris ili üçün bu ali məktəbə qəbulun şərtləri və qaydaları ilə tanışlıq məqsədilə “Açıq qapı” günü keçirilib. Tədbirə 700-dən çox şagird qatılıb.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinin ümumi topologiya və həndəsə kafedrasının müdiri, professor Yuri Sadovniçi “Açıq qapı” günündə iştirak edən professor-müəllim heyətini təqdim edib.





Bildirib ki, M.V.Lomonosov adına MDU-nun Bakı filialı Azərbaycan Prezidentinin Fərmanına müvafiq olaraq 2008-ci ildə yaradılıb. Bakı filialı əgər 2008-ci ildə üç fakültə - tətbiqi riyaziyyat, kimya və filologiya fakültələri ilə fəaliyyətə başlayıbsa, sonralar psixologiya, iqtisadiyyat və fizika fakültələri açılıb. Tədris 2012-ci ildən əsasən Bakı filialının Xocasəndə yerləşən mükəmməl kampusunda aparılır. Burada tələbələrin təhsil alması, eləcə də istirahəti üçün hər cür şərait yaradılıb. Məzunlara bütün dünyada tanınan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin diplomu verilir. Bakalavr səviyyəsini bitirənlər, həmçinin burada magistratura təhsili ala bilərlər. Təhsilin magistratura səviyyəsi filialda yeni olan fizika fakültəsi istisna olmaqla, digər fakültələrin hamısında var. Fizika fakültəsində də magistratura perspektivi olacaq. On bir il ərzində Bakı filialı xeyli genişlənib. Ümumilikdə, 600-dən çox məzun bu müddət ərzində MDU-nun diplomunu alıb. Onlar Azərbaycanda və xaricdə müxtəlif nüfuzlu qurumlarda çalışırlar. Məzunlar Bakı filialında bilik qazandıqlarından çox razıdırlar.

Mart ayında Rusiyanın paytaxtında M.V.Lomonosov adına MDU-da “Universitetlər və bəşəriyyətin gələcəyi” mövzusunda keçirilmiş forumda rektor, akademik Viktor Sadovniçinin müasir dövrün çağırışlarından rəqəmsallaşma, ekologiya, beyin, kosmosla bağlı məsələləri qeyd etdiyini xatırladan professor Yuri Sadovniçi bu sahələrlə bağlı universitetdə yüksək səviyyədə tədris aparıldığını, Bakı filialının MDU-nun müvafiq fakültələri ilə sıx əməkdaşlıq etdiyini bildirib. Vurğulayıb ki, Bakı filialının komandası Moskvaya gedərək kosmik peykin buraxılması müsabiqəsində iştirak edib və layiqli yer tutub.

Diqqətə çatdırılıb ki, Bakı filialında tədris M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tədris planları və proqramları əsasında müasir innovasiya texnologiyaları və tədris üsullarının tətbiqi ilə keçirilir.

Qəbul komissiyasının məsul katibi Denis İlyutko qəbul qaydaları haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycanda buraxılış imtahanı ilə bağlı dəyişikliyə müvafiq olaraq MDU-nun Bakı filialı qəbulla bağlı bəzi tələblərdə dəyişiklik edib. Qəbulla bağlı bütün məlumatlar M.V.Lomonosov adına MDU-nun Bakı filialının *http://msu.az/* saytında yerləşdirilib. Əgər abituriyentin, ümumiyyətlə, M.V.Lomonosov adına MDU ilə bağlı müəyyən sualları varsa, onların cavabını M.V.Lomonosov adına MDU-nun Mərkəzi Qəbul Komissiyasının *http://cpk.msu.ru/* saytından öyrənə bilər.

MDU-nun Bakı filialında həm dövlət sifarişi, həm də ödəniş əsasında təhsil almaq mümkündür. 2019-2020-ci tədris ilində qəbul planında filologiya fakültəsində cəmi 33 - dövlət sifarişi əsasında 30 yer (o cümlədən “Rus dili və ədəbiyyatı” tədris proqramı üzrə 10, “Müasir Qərbi Avropa dilləri və ədəbiyyatı” tədris proqramı, ingilis və italyan dilləri üzrə 20) və 3 ödənişli yer (“Rus dili və ədəbiyyatı” üzrə 1, “Müasir Qərbi Avropa dilləri və ədəbiyyatı”, ingilis və italyan dilləri üzrə 2) nəzərdə tutulub. Tətbiqi riyaziyyat fakültəsində 26 yer (25-i dövlət sifarişi, 1-i ödənişli), kimya fakültəsində 27 yer (25-i dövlət sifarişli və 2-si ödənişli), psixologiya fakültəsində 30 yer (25-i dövlət sifarişli, 5-i ödənişli), fizika fakültəsində 27 yer (25-i dövlət sifarişli və 2-si ödənişli) planlaşdırılıb. İqtisadiyyat fakültəsində cəmi 27 yer - dövlət sifarişli 25 yer (iqtisadiyyat üzrə 13, menecment üzrə 12) və 2 ödənişli yer (1 iqtisadiyyat, 1 menecment) ayrılıb. Qəbul imtahanları iyulun 5-dən 11-dək keçiriləcək. MDU-nun Bakı filialının saytında imtahan qrafiki təqdim edilib.

Magistraturaya 5 fakültə üzrə qəbul aparılacaq. Filologiya fakültəsi üzrə cəmi 13 yer - dövlət sifarişi əsasında 10 (o cümlədən rus dili üzrə 3, ingilis dili üzrə 4, italyan dili üzrə 3), ödənişli 3 yer (rus dili, ingilis dili və italyan dilinin hər biri üzrə 1 yer) ayrılıb. Tətbiqi riyaziyyat fakültəsində 6 yer (5-i dövlət sifarişli, 1-ödənişli), kimya fakültəsində cəmi 7 yer - 6-sı dövlət sifarişli (o cümlədən üzvi kimya, fiziki kimya və neft kimyası təhsil proqramları üzrə hər birinə 2 yer), 1-i ödənişli (qeyd olunan təhsil proqramlarından birinə), psixologiya fakültəsində 14 yer - 12-si dövlət sifarişli (o cümlədən psixoloji inkişaf proqramı üzrə 6, “Koqnitiv və emosional pozulma proseslərində klinik-psixoloji reabilitasiya” proqramı üzrə 6 yer ) və 2-si ödənişli (qeyd olunan müvafiq proqramların hər birinə 1 yer) nəzərdə tutulur. İqtisadiyyat fakültəsində cəmi 12 yer ayrılıb. Bu yerlərdən 10-u dövlət sifarişli (“Beynəlxalq biznes” proqramı üzrə), 2-si ödənişlidir. Magistraturaya imtahanlar iyunun 14-də və 17-də keçiriləcək.

Azərbaycan Respublikasında büdcə hesabına ali təhsil almış vətəndaşlar istisna edilməklə, respublika vətəndaşları üçün təhsil pulsuzdur. Həmçinin əvvəllər pulsuz təhsil almamış və Azərbaycanda daimi yaşayan əcnəbilər üçün təhsil ödənişsizdir.

Filiala qəbul imtahanına buraxılmaq üçün Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən (mayın 12-si və ya 19-u) imtahanda iştirak etmək lazımdır. Bu zaman istənilən ixtisas qrupu üzrə azı 150 bal toplamaq tələb olunur.

Ərizələri yalnız bir fakültəyə vermək olar. Lakin fakültədə bir neçə tədris proqramı varsa, bütün istiqamətlər üzrə ərizə vermək mümkündür. Eyni zamanda, prioriteti göstərmək lazımdır. Qəbul barədə ərizə elektron formada, elektron rəqəmsal imza - FİN kod əsasında verilə bilər. Ərizə forması *http://msu.az/* saytında və ya DİM-in saytında *(http://dim.gov.az/)* doldurula bilər. Bakalavrlar üçün qeydiyyat mayın 29-dan iyunun 28-dək, magistratura üçün qeydiyyat mayın 7-dən iyunun 10-dək aparılır. Sualı olanlar *info@msu.az* ünvanına yaza bilərlər.

Dövlət büdcəsi hesabına artıq təhsil almış Azərbaycan vətəndaşları, əvvəllər pulsuz təhsil almış və Azərbaycanda daimi yaşayan əcnəbilər MDU-nun Bakı filialında ödənişli əsasla təhsil ala bilərlər.

MDU-nun Bakı filialı hər fakültə üzrə ödənişsiz kurslar təşkil edir. Kurslara əvvəlcədən yazılmaq lazımdır.

MDU-nun fizika fakültəsinin ümumi fizika kafedrasının professoru, fizika-riyaziyyat elmləri doktoru, fizika fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul Aleksandr Saletski diqqətə çatdırıb ki, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin yalnız Bakı filialında fizika fakültəsi fəaliyyət göstərir. Fakültədə fizika fənni, həmçinin riyaziyyat yüksək səviyyədə tədris olunur. Qısa müddət ərzində fakültədə 7 laboratoriya praktikumu yaradılıb. Hazırda yüksək səviyyədə elmi laboratoriya təşkil edilir.

Fizika-riyaziyyat elmləri namizədi, MDU-nun mexanika-riyaziyyat elmi-tədris işinin əlaqələndirilməsinə məsul Yevgeni Mıçka tətbiqi riyaziyyat fakültəsi haqqında məlumat verib. Qeyd edib ki, fakültədə oxumaq çətindir, lakin məzunların iş problemi olmur. Məzunlar müxtəlif dövlət qurumlarına, həmçinin “British Petroleum”, SOCAR, “Azercell”, “Azərkosmos” və digər nüfuzlu şirkətlərə işə düzəlir, maliyyə, bank sahələrində, sığorta şirkətlərində işləyirlər. Onlar nəinki Azərbaycanda, xaricdə də işləyə bilirlər. Fakültədə I və II kurslarda tələbələr fundamental fənləri öyrənirlər. Sonra tələbə elmi rəhbər seçməlidir. Üçüncü kursda tələbə kurs işi, dördüncü kursun sonunda isə diplom işi yazır və müdafiə edir. Beləliklə, II kursdan sonra tələbələr elmi fəaliyyətə cəlb olunur. Fakültənin ən yaxşı tələbələri müxtəlif müsabiqələrdə, konfranslarda iştirak edirlər. Magistraturadan sonra Moskvada aspirantura təhsili almaq imkanı da var. MDU-nun Bakı filialında riyaziyyat fənni üzrə bazar günü məktəbi fəaliyyət göstərir. Bazar günü məktəblərinə gələnlərin 50 faizi sonra filialda təhsil alır.

“Açıq qapı” günündə MDU-nun filologiya fakültəsinin rus ədəbiyyatı tarixi kafedrasında filologiya elmləri namizədi Andrey Fedotov da çıxış edib. Bildirib ki, fakültədə universitet üzrə tədris edilən fənlərlə yanaşı, linqvistik, kulturoloji istiqamətlərdə də fənlər öyrədilir. Tələbələrin müasir humanitar biliklərin ən qabaqcıl trendləri ilə tanış olmaq imkanı var. Tələbələrin dil biliklərini möhkəmləndirmək üçün onlara xaricdə staj keçmək imkanı yaradılır. Filialın məzunlarına müxtəlif sahələrdə tələbat çoxdur; onlar səfirliklərdə, şirkətlərdə tərcüməçi işləyə, mətbuat xidmətində fəaliyyət göstərə, tədris edə bilərlər və s.

Kimya elmləri doktoru, professor Aleksey Kopılov kimya fakültəsi haqqında ətraflı məlumat verib, filialda müvafiq sahə üzrə tədris üçün ən yüksək standartlara cavab verən şəraitin yaradıldığını bildirib. Kimyanın sənaye, tibb, texnologiya, məişət və digər sahələrdə mühüm rolundan danışan professor Aleksey Kopılov bu elmi öyrənməyin vacibliyini vurğulayıb. O, fakültədə Moskvadan beynəlxalq dərəcəli müəllimlərin gəlib mühazirə oxuduğunu, seminar, praktikum apardığını bildirib. Qeyd edib ki, fakültədə ən müasir avadanlıqla təchiz edilmiş 12 laboratoriya, habelə ən müasir dərs otaqları var. Təsadüfi deyil ki, 47-ci Beynəlxalq Kimya Olimpiadası M.V.Lomonosov adına MDU-nun Bakı filialında keçirilib.

MDU-nun psixologiya fakültəsinin elmi-tədris işinin əlaqələndirilməsinə məsul Leonid Babanin, ümumiyyətlə, MDU-nun Bakı filialında təhsil almağın maraqlı olmasından danışıb. Qeyd edib ki, bu il 10 yaşı tamam olan psixologiya fakültəsinin məzunları iş tapmaqda əsla çətinlik çəkmir. Magistraturadan sonra Moskvada aspirantura təhsili də almaq mümkündür. Qəbul zamanı MDU-nun proqramı əsasında biologiya fənnindən imtahan vermək çətinlik yaratsa da, Bakı filialında biologiya üzrə bazar günü məktəbi fəaliyyət göstərir ki, bu, abituriyentlərin biliklərini artırmağa imkan yaradır.

İqtisad elmləri namizədi, iqtisad fakültəsinin tədris-elm işinin əlaqələndirilməsinə məsul Ceyhun Hüseynov diqqətə çatdırıb ki, fakültə 2012-ci ildə yaradılıb. Bu il fakültənin bakalavr səviyyəsi üzrə dördüncü, magistr üzrə ikinci buraxılışı olacaq. İqtisadiyyat fakültəsinin populyarlaşdığını deyən Ceyhun Hüseynov ildən-ilə müsabiqənin də böyük olduğunu bildirib. O, iqtisad elmlərinə tələbatdan danışıb, fakültədə tədris edilən proqramların fərqli və çox yüksək səviyyədə olduğunu söyləyib, bakalavr və magistratura təhsili haqqında ətraflı məlumat verib.

Çıxış edənlər tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

Sonra tədbir iştirakçılarına xüsusi avtobuslarda Xocasəndə MDU-nun Bakı filialının kampusuna getmək imkanı yaradılıb.

Beləliklə, tədbir iştirakçıları bu ali təhsil müəssisəsinin filologiya, tətbiqi riyaziyyat, kimya, psixologiya, iqtisadiyyat və fizika fakültələrində bakalavr və magistr hazırlığı ilə bağlı hərtərəfli məlumat əldə ediblər.

# Fransanın Nant şəhərində Azərbaycan məktəbi açılıb

Aprelin 20-də Fransanın Nant şəhərində Azərbaycan məktəbinin açılışı olub.

Bu məktəb Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırıq və tövsiyələrinə əsasən azərbaycanlıların kompakt yaşadığı Nant şəhərində yaradılıb. Məktəb üçün kirayəyə götürülən yeri 3 ay ərzində Fransa Azərbaycanlılarının Koordinasiya Şurası və Azərbaycan İcması təmir edib.

AZƏRTAC xəbər verir ki, “Qarabağ” məktəbi adlandırılan təhsil ocağının açılışına bu ölkədə yaşayan 90 nəfərə yaxın azərbaycanlı qatılıb. Məktəb fəaliyyətə başlayana qədər ərazidə yaşayan ailələrdən 25 uşaq məktəbdə şagird kimi qeydiyyatdan keçib.

Məktəbin açılışında Azərbaycanın Fransadakı səfirliyinin siyasi məsələlər üzrə müşaviri Eldar Məmmədov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Türkiyənin Nantdakı baş konsulu Ebrar Çubukçu, Azərbaycanın Fransadakı səfirliyinin konsulluq məsələlərinə məsul katibi Zaur Fərhadov, Fransa Azərbaycanlıları Koordinasiya Şurasının əlaqələndiricisi - Nantda fəaliyyət göstərən Fransa Azərbaycanlıları Mədəniyyət Assosiasiyasının rəhbəri Toğrul Zeynalov, eyni zamanda, Fransada Azərbaycanlıların Koordinasiya Şurasının üzvü olan təşkilatların sədr və nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Fuad Muradov Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı ilə açılan “Qarabağ” məktəbinin əhəmiyyətindən danışıb və bu cür uğurlu layihələrin davamlı olmasının vacibliyini qeyd edib. Məktəbə “Qarabağ” adının verilməsinin də xüsusi bir siyasi məna kəsb etdiyini bildirən sədr gələcəkdə bu adda məktəblərin açılmasının daha da geniş vüsət alacağını bildirib.

O, eyni zamanda, Fransada Azərbaycan və türk diasporlarının birgə fəaliyyətinin vacibliyindən də danışıb.

Türkiyənin Nantdakı baş konsulu Ebrar Çubukçu çıxışında qeyd edib ki, Nantda Azərbaycan məktəbinin açılması vacib və əhəmiyyətli addımdır. O, bildirib ki, bu məktəbin yaxınlığında türk dərnəyi fəaliyyət göstərir və gələcəkdə məktəblə dərnək arasında sıx əlaqə qurulacaq.

Açılış mərasimində digər çıxış edənlər də Fransada belə bir məktəbin yaradılmasının mühüm addım olduğunu diqqətə çatdırıblar. Əminliklə qeyd ediblər ki, dövlətimizin başçısı tərəfindən uğurla həyata keçirilən diaspor siyasəti sayəsində gələcəkdə daha böyük nailiyyətlər əldə olunacaq.

Yeni məktəbdə kitabxana da fəaliyyət göstərir ki, burada da ölkəmiz haqqında həm fransız, həm də Azərbaycan dilində kitablar toplanıb və gələcəkdə bu kitabxananın Komitə tərəfindən daha da zənginləşdirilməsi nəzərdə tutulub.

Məktəbin açılışında milli geyimli uşaqlar şeirlər söyləyib, “Sarı gəlin” mahnısının sədaları altında rəqs edib, yallı gediblər.

# Şagirdlərin fərdi inkişaf dinamikasının izlənilməsi





**Nasim ABIŞOV,**
*İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyin direktoru, pedaqogika üzrə elmlər doktoru, professor*

## Məktəb idarəetməsi çevikləşərək nəticəyönümlü olur

Hazırda təhsil sahəsində ən geniş tədqiq olunmuş sahə təhsilin məzmunu, ən az tədqiq olunan sahə isə təhsil sisteminin, xüsusilə də təhsilin keyfiyyətinin idarə olunmasıdır. Təhsil müəssisələrində zəruri dəyişikliklər aparmaq üçün hər bir təhsil müəssisəsinin və hər bir şagirdin inkişaf dinamikasının davamlı monitorinqinə ehtiyac var. Müəllimlər şagirdlərin, rəhbərlik isə müəllimlərin və şagirdlərin inkişaf dinamikasının kifayət qədər obyektiv və davamlı qiymətləndirilməsində maraqlı olmalıdırlar. Müasir məktəbdə şagirdlərlə düzgün işin təşkili, sağlam mənəvi-psixoloji və təhlükəsiz mühitin təmin edilməsi, məktəb-ailə, məktəb-müəllim-şagird-valideyn münasibətlərinin daha da inkişaf etdirilməsi hər bir dövrdə olduğu kimi bugünümüzün də aktual məsələlərindəndir.

Təhsil naziri Ceyhun Bayramov 16 aprel tarixində paytaxt məktəblərinin direktorları ilə görüşündə qeyd etmişdi: "Hər bir şagirdinizi tanıyın". Bəs məktəblərdə bu işi necə təşkil etmək olar?

İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyində 2018-2019-cu tədris ilindən başlayaraq II-VI sinif şagirdlərinin inkişaf dinamikasını izləmək məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin layihəsi olan "Şagirdlərin fərdi inkişaf dinamikasının izlənilməsi kitabçası" tətbiq olunmağa başlanıb. İlkin olaraq, bu layihəmizə Azərbaycan və rus dillərində tədris alan 600 nəfərədək şagird cəlb olunub. Layihənin başlandığı dövrdə müəllimlərin bəziləri tərəddüd etsə də, sonda məqsədimizi düzgün anlayaraq həvəslə bu prosesə qoşulublar.

Kitabçada şagirdin soyadı, adı, atasının adı, oxuduğu sinfi, sinif rəhbərinin soyadı, adı, atasının adı, liseydə təhsil almağa başladığı il, şagirdin şəkli, kitabçanın doldurulma qaydaları, layihənin məzmunu, məqsədi və gözlənilən nəticələr yazılıb. İbtidai siniflər üçün nəzərdə tutulmuş kitabça formalarında Ana dili, riyaziyyat, xarici dil, informatika, həyat bilgisi, texnologiya, təsviri incəsənət, fiziki tərbiyə və musiqi fənləri üzrə müəllimlər öz soyadını, adını, şagirdin KSQ və BSQ-lərini balla və qiymətlə, şagirdin fəaliyyətinin qiymətləndirilməsi sütununda isə sözlə təsvirini yazır, sonda tarixi qeyd edir və imza atır. Kitabçanın sosial fəaliyyəti sütununda sinif rəhbəri və təşkilatçının şagird haqqında məlumatları, psixoloji və sosial durumu sütununda isə psixoloq gündəlik müşahidələri və aparılan sorğuların nəticələrinə əsasən məlumatları qeyd edir. Valideynlər bölməsində bir valideyn və ya hər ikisi övladında baş verən dəyişikliklər, dərsə münasibəti və ailədə özünüidarəsi barədə məlumatları yazır.

Hər bir dövrün sonunda valideyn irad və təkliflər bölməsində öz istəklərini, iradlarını, rast gəldiyi müsbət və mənfi halları qeyd edir.

V və VI sinif şagirdləri üçün nəzərdə tutulmuş kitabçada isə həmin siniflərdə tədris olunan fənlər haqqında məlumatlar yazılır.

Məqsədimiz hər bir şagirdin fəal müşahidələr aparılaraq mütəmadi olaraq diqqət mərkəzində saxlanılması, onun inkişafını təmin edən fərdi tədbirlərin müəyyənləşdirilməsi, valideynin dolğun məlumatlandırılması, onunla faydalı və intensiv əks əlaqənin qurulmasıdır.

Şagirdin nailiyyəti olan hissədə fənn üzrə kiçik və böyük summativ qiymətləri, həmçinin başqa qiymətləndirmələr də olarsa, adları göstərilməklə qeyd edilir. Kiçik və böyük summativ qiymətləndirmələri fərqləndirmək üçün böyük summativ qiymətləri dairəyə alınır (böyük summativ qiymətləndirmə direktor tərəfindən obyektiv aparılır, ciddi təhlil olunur və dinamika izlənilir).

Kitabçada ildə 4 dəfə qeydlər aparılır:

10 noyabr tarixi ərəfəsində (15 sentyabr - 10 noyabr aralığı) - I dövr

20 yanvar tarixi ərəfəsində (21 noyabr - 20 yanvar aralığı) - II dövr

12 mart tarixi ərəfəsində (1fevral - 12 mart aralığı ) - III dövr

7 iyun tarixi ərəfəsində (27 mart - 7 iyun aralığı) - IV dövr

Hər dövrün sonunda cədvəldə adları qeyd edilənlərin hər birinin iştirakı ilə direktor müavininin yanında müzakirələr aparılır və nəticə direktor müavininin sətrində qeyd edilir.

Keçən dövr ərzində müəllim, sinif rəhbəri, psixoloq və təşkilatçının iştirakı ilə direktor müavininin yanında hər bir şagirdin ayrılıqda inkişaf dinamikası üç dəfə müzakirə edilib, hər bir şagirdlə bağlı fərdi tədbirlər müəyyənləşdirilib. Qeyd edək ki, tədris ilinin sonunda da qeyd olunan məsələlər müzakirə olunacaq.

Kitabça hər şagird üçün ayrılıqda tərtib edilir və sinifdəki bütün uşaqların kitabçaları bir qovluqda saxlanılır.

Məktəbin psixoloqu, dəvət olunmuş psixoloqlar Gülnarə Abuzərova və Nərgiz Rəsulova valideynlər, müəllimlər və şagirdlərlə görüşlər keçirib, onlarla sorğular aparıblar. Bütün bu sorğuların analizləri həmin kitabçalara əlavə olunub.

Apardığımız araşdırmalar nəticəsində məlum olub ki, ölkəmizdə psixoloqlar əksər valideynlər tərəfindən düzgün qəbul olunmur. "Keçib gedər, hələ uşaqdır" məfkurəsilə yaşayan bəzi valideynlər tərəfindən övladı haqqında psixoloqun verdiyi rəylər bəzi hallarda aqressivliklə qarşılanıb. Həmin valideynlər liseyə dəvət olunub, psixoloqların iştirakı ilə müzakirələr aparılıb.

Gəldiyimiz nəticə budur ki, "Şagirdlərin fərdi inkişaf dinamikasının izlənilməsi kitabçası"nın tətbiqi təlim-tərbiyə prosesinin inkişafı və nəzarətin həyata keçirilməsi üçün konkret mexanizm yaradır, şagirdlərin təlim nəticələri yüksəlir, müəllimlər fəallaşır, şagirdi daha dərindən öyrənməyə çalışır, şagirdin fərdi inkişafı konkret məqamlarla diqqət mərkəzində olur. Sinif rəhbəri, psixoloq, təşkilatçı və direktor müavini məktəbdə gedən təlim-tərbiyə prosesinə aktiv qoşulur, idarəetmə çevikləşərək nəticəyönümlü olur. Valideynlər dolğun məlumatlandırılır və sürətli əks əlaqə yaradılır.

Kitabçada valideynlər tərəfindən yazılan iradlar və təkliflər də liseydə təlim-tərbiyə prosesinin düzgün həyata keçirilməsinə və gələcək strateji planların qurulmasına kömək edir. Valideynlər tərəfindən qeyd olunmuş haqlı iradlar araşdırılıb və həll olunub, irəli sürülmüş təkliflərin bəziləri həyata keçirilib.

Tədris ili başa çatdıqdan sonra kitabça liseyin direktoru tərəfindən imzalanacaq və şagirdin portfoliosunda saxlanılacaq.

Müasir dövrdə məktəb qarşısında duran əsas problemlərdən biri də məktəblə valideyn arasında daimi əlaqənin yaradılmamasıdır. İllər keçdikcə valideynlər məkanca məktəbdən daha da uzaqlaşırlar. Valideyn-məktəb əlaqəsi real formadan yaxşı halda virtual formaya keçir və ya ümumiyyətlə, yox olur. Elə işgüzar valideynlərə rast gəlmək olar ki, onlar, ümumiyyətlə, övladlarının oxuduğu məktəbə baş çəkməyə vaxt tapa bilmirlər. Bu isə həmin valideynin övladının təlim-tərbiyəsinə birbaşa təsir edir. Bəzi hallarda bu sahədə informasiya-kommunikasiya texnologiyaları məktəb və valideynlərin köməyinə gəlir. İnformasiya texnologiyalarının tədris prosesinə tətbiqi məktəbin xarici mühitlə əlaqəsinin formasını dəyişdirərək, müəllim, valideyn və şagird arasında operativ informasiya mübadiləsinin yaradılmasına kömək edə bilər. Bu isə valideynlərin məktəbə gəlmədən internet vasitəsilə övladının təlim müvəffəqiyyətlərini izləməyə kömək edər. Bunları nəzərə alaraq, yaxın vaxtlarda onlayn "Şagirdlərin fərdi inkişaf dinamikasının izlənilməsi kitabçası"nı yaratmağı planlaşdırırıq. Burada məktəbin direktoru, müavinləri, psixoloq və valideynlərin bazası yaradılacaq. Hər bir müəllim bazada qeydiyyatdan keçən zaman onun dərs dediyi siniflər ekrana gələcək və o, həmin sinifdəki şagird üçün öz fikirlərini və qiymətlərini yaza biləcək. Müəllimin işini yüngülləşdirmək üçün şablon rubriklərdən də istifadə etmək olar. Müəllim bu rubrikləri öz fənninə uyğun olaraq bazaya bir dəfə daxil edir və şagird üçün məlumat yazanda hazır siyahıdan seçir. Valideynlər isə əvvəlcədən onlara verilən istifadəçi adı və parolla sistemə daxil olacaq və övladı haqqında məlumatları daxil edəcək. Bazaya daxil olan məlumatlardan müxtəlif statistik məlumatlar almaq olar. Direktor və müavinlər sistemə administrator kimi daxil olaraq siniflər və ayrı-ayrı şagirdlər üçün məlumatlara baxa bilər. Ayrıca olaraq, baza məlumatlarından istifadə edərək ümumi sinfin təlim nəticələrinin dinamikasını izləmək olar. Şagirdin elektron formatda olan bu kitabçası sonda çap olunub şəxsi işində saxlanıla bilər.

# Pedaqoji prosesdə təlim və tərbiyə vəhdət təşkil etməyəcəksə...



**Nadir İSRAFİLOV**

*Əgər belə bir qənaətə gəlsək ki, təlim və tərbiyə bir sosial element kimi cəmiyyətin digər üstqurum və bazis elementləri ilə şərtlənir, mövcud əxlaqi keyfiyyətlər sosial, iqtisadi, hüquqi və s. münasibətlər təlim-tərbiyə prosesinə təsirsiz ötüşmür, heç də yanılmarıq. Təəssüf ki, təlim və tərbiyə haqqında indiyə qədər yazılmış kitabların və dərsliklərin çoxuna ya ideologiyaların təsiri olub, ya da hansısa bizə məlum olan və olmayan səbəblərdən bu sahədə bir çox ədəbiyyatlar nəşr olunub geniş oxucu kütəsinə çatdırılmayıb. Təhsil və tərbiyənin paradiqmaları haqqında yazılan elmi işlərdə və keçirilən dərslərdə məhdud sayda mütəfəkkirlərin əsərlərinə və fikirlərinə istinad olunub ki, bu səbəbdən də insanın bütün dövrlərdə formalaşmasına hərtərəfli yardımçı olan təhsil və tərbiyə haqqında yazılmış bir çox mühüm əsərlər pedaqoqlar, alimlər, tələbələr, bütövlükdə geniş oxucu kütləsinin maraq dairəsindən kənarda qalıb.*

Müxtəlif dövrlərdə, ayrı-ayrı zaman kəsiyində bəşəriyyətə hakim kəsilən materialist, idealist, pozitivist, determinist cərəyanlar dövrümüzə qədər əks qütblərin qarşıdurmasını səciyyələndirib, nəzəri spekulyativliyi gücləndirib. Yəni təhsilimiz də zaman-zaman mübahisəli fikirlərdən, ziddiyyətli yanaşmalardan heç də xali olmayıb. Bu illər ərzində materiyanın və ya şüurun birinci olması, tarixdə şəxsiyyətin və ya kütlənin həlledici rol oynaması, iqtisadiyyatın, yoxsa siyasətin birinci olması kimi dilemmalar üzərində baş sındırmışıq, Darvinin və Kantın nəzəriyyələrinə fərqli mövqelər sərgiləmişik. Çıxış yolunu əsasən dərsliklərimizdə və digər tədris vəsaitlərində hadisə və faktların mahiyyətində formal kosmetik dəyişikliklər aparmaqda görmüşük. Bu mənada uzun illər təlim-tərbiyə məsələləri də öz əvvəlki mahiyyətini, dəyərini və aktuallığını tam itirməsə də, hər halda müəyyən deqradasiyaya uğraması da istisna olunmur.

Bununla belə, məktəblərdə təlim-tərbiyə işinin təşkilinə dair nə qədər fərqli təlimat, metodiki tövsiyə, əsasnamə və digər istiqamətləndirici normativ sənəd olsa belə, bu prosesin səmərəli təşkili məhz müəllimin şəxsiyyətindən, peşəkarlığından, klassik pedaqoji irsə və müasir tendensiyalara nə dərəcədə yiyələnməsindən daha çox asılıdır. Müəllimlərimizin məhz milli və dünya klassik fəlsəfəsinin və maarifçiliyinin görkəmli nümayəndələrinin bilik xəzinəsinin nümunələri ilə silahlanması onlar üçün təhsil sahəsindəki vəzifələrini yerinə yetirməkdə, təlim-tərbiyə prosesinin təşkilində ən yaxın yardımçı rolunu oynaya bilər. Başqa sözlə desək, "təhsil insanlara əsrlər boyu əldə etdiyi təcrübə və biliklərə bir neçə il ərzində yiyələnmək imkanı verir. Yaşadığı zamanın tələbləri səviyyəsində durmağa, hər dəfə sıfırdan başlamaq deyil, özündən əvvəlki nəsillərin işini davam etdirməyə insan yalnız təhsil sayəsində müyəssər olur. Bəşəriyyətin ümumi bilik xəzinəsi bütün xalqlar və millətlər üçün açıqdır".

*Hələ bizim eradan əvvəl qədim dünyanın ilk filosoflarından sayılan Sokratın tələbəsi, Aristotelin müəllimi olan Platon hesab edirdi ki, yaxşı vətəndaş yetişdirmək üçün savaddan çox uşaqların əxlaqi baxımdan yetişməsinin qayğısına qalmaq lazımdır. Platona görə, tərbiyənin qayəsi insanlarda olan qabiliyyətləri inkişaf etdirməkdir.*

*Əlbəttə, məqsədim heç də klassiklərin və ya müasirlərin əxlaq və bütövlükdə tərbiyə haqqında fikirləri ilə bağlı kiməsə mühazirə oxumaq deyil. Bununla belə, istəsək də, istəməsək də, razılaşmaq zorundayıq ki, müasir dövrümüzdə tərbiyə məsələləri öz əvvəlki mahiyyətini, dəyərini və aktuallığını hələ tam itirməsə də, itirməyə meyillidir. Başqa sözlə ifadə etsək, təlimə "ifrat dərəcədə" aludəçiliyimiz tərbiyə məsələlərini arxa plana keçirib. Hətta məktəbəqədər tərbiyə müəssisəsi adlandırdığımız uşaq bağçalarında belə təhsil tərbiyəni üstələyir, məktəbəqədər yaşlı uşaqların harmonik inkişafını və tərbiyəsini lazımi səviyyədə təmin etmir. Zəmanəmizdə tərbiyə işi bir növ, məzmun və mahiyyətinə diqqət azalan mənəvi dəyərlərdən birinə çevrilib.*

Təhsil sahəsində ən görkəmli nəzəriyyəçilərdən olan Hovard Qardner yazırdı ki, təhsilin əsas vəzifəsi anlamın mükəmməlləşməsinə kömək etməkdir. Dərin anlam bizim məqsədimiz olmalıdır. Biz şagirdlərə müəyyən anlaşıqlı kontekstdə nəyin həqiqi, yaxud yalan, gözəl, yaxud zövqsüz, yaxşılıq, yaxud yamanlıq olduğunu dərk etməyə kömək göstərməliyik. Bu mövzular fərdə dünyanı öyrənməyə və onu daha yaxşı başa düşməyə can atmağa stimul verəcək.

Siyasi mütəfəkkir kimi daha çox ad qazanan Maykl Oukşotun fikrincə, məktəb şagirdlərin ilk dəfə ciddi və mütəşəkkil şəkildə intellektual, bədii, mənəvi və emosional irslə tanış olduqları məkandır. Məktəbin məqsədi konkret bacarıq, yaxud maddi üstünlük deyil; məktəb həmçinin gizli siyasi, yaxud sosial məqsədlərin əldə olunmasına da can atmır: məktəbin xarakteristikası üçün bu terminlərdən istifadə olunması onun təbiətinin təhrif olunması deməkdir.

Con Gudledə görə isə məktəb tədrisinin məqsədi nə özünə, nə də onu əhatə edən insanlara ziyan vurmaq iqtidarında olmayan düşünən fərdlərin inkişafı ilə bağlıdır. "Ağlım mənə deyil, dünyaya aiddir" kimi bir fikrin müəllifi Artur Şopenhauer hesab edirdi ki, hər şeydən əvvəl uşaqların heç bir aydın anlayışla bağlı olmayan sözlər işlətməsinin qarşısını almaq lazımdır. Lakin təsəvvürlərin anlayışlardan sonra yox, əvvəl gəlmələri son dərəcə böyük əhəmiyyət kəsb edir; əks təqdirdə bu, uşaq dünyaya gələrkən ayaqlarının qabaqda olmasına, yaxud qafiyənin misranın əvvəlində gəlməsinə bənzəyir.

Martin Haydeqqer sual qoyurdu: "Öyrənmək nə deməkdir? Adam bu an öz fəaliyyət tərzini ona yönəlmişə uyğunlaşdıranda öyrənir. Öyrətmək öyrənməkdən çətindir, çünki tədrisin məqsədi öyrənmək imkanı yaratmaqdır". Haydeqqerə görə, pedaqoq şagirdlərə öyrənməyə imkan yaratmalıdır, tədrisi onlara zorla qəbul etdirməməlidir. Belə bir yanaşmanın tədris prosesini fəallıqdan məhrum etdiyini düşünmək səhv şərh olardı.

Bu baxımdan Xuan Orteqanın fikirləri də xüsusi diqqət çəkir: "Pedaqogika həyatın gücləndirilməsi üsullarını ixtira etməli, təhsil isə onlardan yalnız istifadə etməlidir. Uşaqları yalnız öz meyillərinə uyğun olaraq, yəni təbii proseslərə təqlid edərək inkişaf etməyə imkan vermək olmaz; tərbiyə prosesi şüurlu və refleksiv səviyyə daşımalı, məqsədə nail olmalı, uşaqların dərin və həyati potensialını maksimum üzə çıxarmaq üçün texniki yardıma yönəlməlidir".

Bu da Azərbaycanın və Türkiyənin, bütünlükdə isə çağdaş türk-islam dünyasının mədəniyyət və ictimai fikir tarixinə çoxcəhətli və ensiklopedik şəxsiyyət kimi daxil olmuş Əhməd bəy Ağaoğludan bir iqtibas: "Tərbiyə üsulunda hansı mühit bir idealı ən çox həqiqətə çevirməyə nail olmuşsa, həmin mühit də ən yüksək inkişafa catmışdır. Tərbiyədən bəhs edərkən bu məfhumu ən geniş mənada anlamaq lazımdır. İnsan ruhunun üzərində təsiri olan bütün amillər nəzərə alınmalıdır. Ailə, məktəb, ədəbiyyat, sənət, fikri və hissi cərəyanlar-bütün bunların hamısı tərbiyəyə daxildir".

Gəldiyim nəticə ondan ibarətdir ki, pedaqoji prosesdə təlim və tərbiyə vəhdət təşkil etməyəcəksə, təhsilin dövlət qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, müstəqil və yaradıcı düşünən, hərtərəfli və ahəngdar inkişaf etmiş, geniş dünyagörüşünə malik vətəndaş və şəxsiyyət yetişdirmək kimi əsas məqsədini həyata keçirməkdə problemlərlə üzləşməyimiz də bir o qədər qaçılmaz olacaq.

*Qədim Roma filosofu və dövlət xadimi Senekanın "Əfsus ki, biz həyat üçün yox, məktəb üçün oxuyuruq" fikri bu gün üçün də aktuallığını itirməyib və bu barədə bir daha düşünməyimizə dəyər.*

# Daimiləşmək üçün

## Müəllimlər yüksək hazırlıq səviyyəsi nümayiş etdiriblər

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**



Nicat İBADOV



Sənubər MUSTAFAYEVA



Zülfiyyə ABDULLAYEVA



Rüfət HACIYEV



Nizaməddin BABANLI

İnandıracağına da şübhə etmir. Şagirdlərinə özünü sevdirdiyi üçün komissiyanı inandırmaq ona elə də çətin görünmür: "Tədris ilinin ilk günlərindən işləyirəm. Fikrimcə, şagird öncə müəllimi sevməlidir, sonra fənni. Şagirdlərimi özümə inandıra bilmişəm. Yəni işimin, üzərimə düşən missiyanın böyük hissəsini artıq görmüşəm. Bundan sonrakı mərhələdə şagirdlərimə fənni və öyrənməyi sevdirməliyəm. Bu, mənim ilk dərs ilim idi. Təcrübə topladıqca uğurlarımın artacağına şübhə etmirəm. Bunu deməyə işlədiyim ilk tədris ilində qazandıqlarım da əsas verir. Belə ki, şagirdlərim arasında artıq olimpiadada fərqlənənlər, nailiyyəti olanlar var. Uğurlarımızı hər il artıracağımıza inanıram".

### 1148 namizəd müsahibədə

Beləliklə, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda 3 gün idi ki, həyəcanlı günlər yaşanırdı. Aprelin 22-dən başlayaraq ümumi təhsil müəssisələrində müddətsiz əmək müqaviləsi əsasında işə qəbul olunmaq istəyən müəllimlərin müsahibəsi keçirilirdi. Bu mərhələyə aprel ayının 1-dən 5-dək keçirilən elektron sənəd qəbulu prosesində iştirak edənlər dəvət edilmişdi.

Müsahibələr artıq başa çatıb. Müddətli müqavilə əsasında çalışan müəllimlərin daimiləşmə müsabiqəsinin müsahibə mərhələsinə 1218 namizəd dəvət olunsa da, 1170 namizəd gəlib. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzinin müdir əvəzi Murad Camalzadə "Azərbaycan müəllimi" qəzetinə açıqlamasında bildirib ki, müsahibədə cəmi 1148 namizəd iştirak edib: "Diplomu saxta, ya da qeyri-pedaqoji olanlar elektron ərizədə bunu qeyd etmədiklərindən həmin namizədlərin ərizələri qəbul olunub. Lakin burada aşkarlanan uyğunsuzluqlar səbəbindən namizədlər müsahibəyə buraxılmayıblar".

Müsahibənin ilk günündə ibtidai sinif, kimya, musiqi, ikinci günündə ingilis dili, Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, üçüncü gün isə texnologiya, informatika, rus dili, rus dili və ədəbiyyatı ixtisasları üzrə müsahibələr təşkil edilib.

### "Bütün mərhələlərdə şəffaflıq təmin edilib"

Müsahibəyə heç bir problem yaşamadan girən və inamlı çıxan namizədlərdən biri - Sənubər Mustafayeva Saray 3 nömrəli orta məktəbində Ana dili və ədəbiyyat fənni üzrə dərs deyir. 1991-ci ildən müəllim kimi fəaliyyət göstərir. 2014-cü ilədək Ağcabədi rayonunda işləyib. Yaşayış yerini dəyişməsi ilə əlaqədar yenidən imtahan verib və müddətli müqavilə ilə işə başlayıb: "Artıq çalışdığım məktəbdə daimi əsaslarla işləmək istəyirəm. Bunun üçün də müsabiqə komissiyasına müraciət etdim. İxtisasımla, dünyagörüşü ilə bağlı suallar verdilər. Fikrimcə, suallara lazımi cavablar verdim. Cavablarımın mənimlə daimi müqavilə bağlanması üçün kifayət qədər keyfiyyətli olduğu qənaətindəyəm".

S.Mustafayeva müəllimlərin işə qəbulu imtahanlarında iştirak etsə də, müsahibə mərhələsinə ilk dəfə qatılıb: "Test imtahanları həyəcanlı olsa da, orada heç kəslə əlaqə olmur. Sadəcə oturub suallara cavab verib çıxırsan. Amma müsahibə mərhələsində ixtisasının və peşəsinin peşəkarı olan insanlar qarşısında oturub, onların suallarına cavab vermək həyəcanı ikiqat artırır. Ancaq komissiya üzvlərinin gülərüz olması həyəcanımı sakitləşdirdi və suallara sərbəst cavab verə bildim. Azərbaycanın keçmişi, bu günü ilə bağlı sualları cavablandırdım. Hüseyn Caviddən soruşdular. Hamısına cavab verdim. Müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, bu mərhələ də şəffaf təşkil edilib. Komissiya üzvlərinin namizədlərə yanaşmasından tutmuş qiymətləndirməyə qədər bütün mərhələlərdə şəffaflıq təmin edilib".

### "Müddətli müqavilə ilə işləyənlər üçün bu müsahibələri bizə verilən şans sayıram"

Zülfiyyə Abdullayeva Sumqayıt Dövlət Universitetini iki il əvvəl bitirib. Saatlı rayonunda bir ildir ki, müddətli müqavilə ilə işləyir. Artıq çalışdığı Saatlı rayon Mircəlal kəndindəki orta məktəbin daimi müəllimi olmaq istəyir: "Müddətli müqavilə ilə işləyənlər üçün bu müsahibələri bizə verilən şans sayıram. Buradakı vəziyyət, prosesin təşkilindən çox razı qaldım. Peşəkarlıq bir yana dursun, insanlıq nöqteyi-nəzərindən də təqdirəlayiq bir komandanın işlədiyinin şahidi oldum. Minimum gözləmə olduğu üçün vaxt və əsəb itkisi də olmur. İnsanı hər baxımdan nəzərə alırlar. Hamilə olduğum üçün xüsusi ilə diqqət hiss etdim. Həyəcanlı da olsa, bu mərhələni uğurla başa vurduğumu düşünürəm".

### Müəllimlər komissiyanı razı saldı

İnsan Resursları Mərkəzində müsahibələrin keçirilməsi üçün 3 otaq ayrılıb, 14 komissiya təşkil edilib. Müsahibə komissiyası 3 nəfərdən ibarətdir. Hər biri işinin peşəkarı olan ayrı-ayrı fənn müəllimləri, Bakı şəhərində nəticələri ilə özünü təsdiq etmiş təhsil müəssisələrinin, yerli təhsili idarəetmə orqanlarının, eləcə də Təhsil Nazirliyi sisteminə daxil və bu sahəyə birbaşa aidiyyəti olan idarə və təşkilatların rəhbərləri, eləcə də Təhsil Nazirliyinin əməkdaşlarından ibarət olan komissiya üzvlərinin gözündən heç nə qaçmır. Onlar müsahibə zamanı verdikləri suallarla namizədlərin peşəkar kompetensiyalarını yoxlayır, psixoloji hazırlıq səviyyəsinə diqqət yetirir, ümumi dünyagörüşünü müvafiq qaydada qiymətləndirirlər.

Komissiyalardan birinə yaxınlaşırıq. Komissiya üzvü Quba Rayon Təhsil Şöbəsinin müdiri Rüfət Hacıyevdir. Ümumi vəziyyətdən razı görünür: "2018-2019-cu tədris ili üçün keçirilən müəllimlərin işə qəbulu müsabiqəsində boş qalan vakant yerlərə sonradan Təhsil Nazirliyi tərəfindən müddətli müqavilə əsasında işlə təmin olunmuş müəllimlərin daimiləşməsi üçün müsahibə keçiririk. 2018-2019-cu tədris ili üçün müəllimlərin işə qəbulu üzrə müsabiqədə də iştirak etmişdim. Həmin müsabiqənin müsahibə mərhələsi ilə bugünkü müsahibələr arasında ciddi fərq var. Başqa sözlə, burada təcrübə öz sözünü deyir. Bu müsahibələrdə iştirak edən namizədlərin hazırlıq səviyyəsinin yüksək olduğunu görmək bizim üçün də sevindiricidir".

Qazax Rayon Təhsil Şöbəsinin müdiri Nizaməddin Babanlı isə başqa komissiyada təmsil olunur. O da müəllimlərin hazırlıq səviyyəsindən razı qalıb: "Müəllimlərdə yüksək fəallıq müşahidə edilir. Əksəriyyəti çox həvəslidirlər. Suallara verdikləri cavablardan da açıq görünür ki, öz peşəsini sevir, ona hörmətlə yanaşırlar. Suallarımıza cavablardan müəllimlərin peşə hazırlığını, psixoloji vəziyyətini, ümumi dünyagörüşünü müəyyənləşdirməyə çalışırıq. Bu müsahibələrdə zəif müəllimlər, demək olar ki, yox idi".

### Daha bir müsahibə də yekunlaşdı

Müsahibə yekunlaşsa da, həyəcanlı gözləmə prosesi davam edir. Ancaq bu günlərin də ömrü uzun sürməyəcək. M.Camalzadənin sözlərinə görə, müsahibələrin nəticələri barədə məlumatlar yaxın günlərdə namizədlərin şəxsi səhifələrinə göndəriləcək.

# Humanitar təhsilli rəhbər



## İdarəetmə prosesinə yaradıcı yanaşmaya ehtiyac artır

⇦ Əvvəli səh.1

**Rüstəm QARAXANLI**

Mütəxəssislərin əksəriyyəti əmindir ki, geniş spektrli humanitar hazırlığı olmayan şəxsin effektiv menecment və liderliyi haqqında danışmaq əbəsdir. Təbii ki, istisna amilini unutmamaq şərtilə.

"Rally Health" tibb şirkətinin kadrlar şöbəsinin rəhbəri Tom Ferro HR müstəvisində də məsələyə yanaşmanın dəyişikliyə uğradığını deyir. İzah isə bundan ibarətdir ki, süni intellekt, yəni robotlar nə qədər tez və dəqiq işləsələr də, psixologiya və yaradıcılıq kimi anlayışlar onlara yad olaraq qalacaq. Ferronun fikrincə, insanlara xas bacarıq və qabiliyyətlər yalnız onlara məxsus ola bilər. Yəni robotlar bu sahədə insanlarla rəqabət apara bilməyəcəklər.

Rusiyanın Ali Menecment Məktəbinin dekanı Sergey Filonoviç hesab edir ki, "formal məntiq hər bir şəxsdə var. Humanitar təhsil isə intuisiyanın formalaşmasına təkan verir. İntuisiyadan ideyalar doğulur. Məntiqdən qidalanan ideyalardan fərqli olaraq intuisiyadan yaranmış ideyaları təkrarlamaq, təqlid etmək çətindir. Ona görə də biznes sahəsində çalışan şəxsin mütləq humanitar təhsili olmalıdır".

### Texnologiyada incəsənət

Bu əlaqəni hiss edib aşkara çıxaran ilk iş adamlarından biri Stiv Cobs olub. 2011-ci ildə ilk "İpad"ı satışa çıxarılanda o deyirdi: "Aplle"nın "mayası tək texnologiya ilə yoğrula bilməz". Texnologiya yalnız humanitar elmlərlə ittifaq şəklində nəticə verə bilər".

"Vidyard" marketinq startapının təsisçisi Maykl Litt deyir ki, humanitar fakültələrin məzunlarına daha çox etibar edir, nəinki STEM-məzunlara (STEM - Science, Technology, Engineering, Maths - Elm, Texnologiya, Mühəndislik, Riyaziyyat). İş adamının fikrincə, hazırda texnoloji şirkətlərin əksəriyyəti belə edir və bu tendensiya yaxın illərdə dəyişməyəcək: "Yaxşı olardı ki, iş adamlarının özləri də humanitar biliklərə dair çatışmazlıqlarını bərpa etsinlər, fəlsəfə və psixologiyanı öyrənsinlər".

Dünyanın əksər aparıcı korporasiyaları Littin etdiyi məsləhətdən nəticə çıxarırlar. "Microsoft"un Rusiyadakı layihə direktoru Yuliya Mayorova ali prodüsser kurslarına gedir. Maslovanın fikrincə, bu ona imkan verəcək ki, problemlərə fərqli yöndən baxa bilsin, əldə edilmiş bilikləri idarəçilik fəaliyyətində tətbiq etsin. Ümumiyyətlə, Rusiyada aparıcı şirkətlərin CEO-larının incəsənət, rəsm, rəqs, moda, kino dərnəklərinə getmələri adi hal alıb. Ancaq məsələ tək rəhbər heyəti ilə bitmir. Aparıcı şirkətlər personal üçün də müxtəlif mövzulu kurslar və mühazirələr təşkil edir. Məsələn, "İlim" şirkəti əməkdaşları üçün xüsusi "Humanitar" klub layihəsini gerçəkləşdirir. "Ramble"də əməkdaşlar üçün kinoseanslar təşkil olunur, eyni zamanda, dil kursları və mədəniyyətə dair mühazirələrə də yazılmaq olar. İspaniyanın finteks şirkəti "İD Finance"də əməkdaşlara işdən sonra incəsənətə dair mühazirələr oxunur. IT nəhəngi olan KROK-da isə müxtəlif elm sahələri, mədəniyyət və incəsənət xadimləri ilə mütəmadi görüşlər keçirilir.

**Qərbin biznes mühitində hakim olan qənaətə görə, klassik biznes təhsilinin idarəçilərdə kommunikativ bacarıqlar, emosional intellekt, tənqidi düşüncəni tam şəkildə inkişaf etdirməyə gücü çatmır. Məhz buna görə də dünyanın əksər üzdə olan iri korporasiyaları işçiləri üçün hümanitar elmlər və yaradıcılıq sahələrinə dair korporativ kurslar təşkil edirlər. Teatr, konsert və kinoya birgə səfərlər, sonra isə təəssüratların müzakirəsi geniş yayılmış praktikadır.**

### Yumşaq güc

Xatırlayırsınızsa, qəzetimizdə işıq üzü görmüş bir sıra materiallarda da Qərbin biznes və mühəndislik üzrə aparıcı ali məktəb və kolleclərində incəsənət və humanitar bloka dair digər fənlərdən dərslərin keçildiyini vurğulamışıq. Hətta Almaniyanın təhsil sistemində belə humanitar fənlərə ağırlığın salındığını qeyd etmişdik. "Soft skills", yəni "yumşaq güc"ün əhəmiyyətini dünyanın əksər texnoloji şirkətləri qəbul etməyə başlayıb. "Yumşaq güc" deyərkən humanitar təhsillilər nəzərdə tutulur. "HeadHunter"in araşdırmalarının nəticələrinə görə, IT sahəsində "soft skills"in əhəmiyyəti durmadan artır. İşəgötürənlər yeni əməkdaşla tanış olarkən onun xarici dil bilikləri, işgüzarlığı, sosial intellekti və komandada işləmək bacarığı ilə yaxından maraqlanırlar. "HeadHunter"də hesab edirlər ki, gələcəkdə o rəhbər və menecer uğurlu sayılacaq ki, həm "soft skills", həm də "hard skills" bacarıqları daha güclü olacaq. Mütəxəssislərin fikrincə, bu tendensiya texniki təhsilliləri təlaşa salmamalıdır. Bununla belə, onlar bilməlidirlər ki, rəhbər karyera pillələri ilə irəlilədikcə, onun sosial bacarıqlara daha çox ehtiyacı olur. İşəgötürənlər liderlərdə məhz bu amili qiymətləndirirlər.

Qərbin biznes mühitində hakim olan qənaətə görə, klassik biznes təhsilinin idarəçilərdə kommunikativ bacarıqlar, emosional intellekt, tənqidi düşüncəni tam şəkildə inkişaf etdirməyə gücü çatmır. Məhz buna görə də dünyanın əksər üzdə olan iri korporasiyaları işçiləri üçün hümanitar elmlər və yaradıcılıq sahələrinə dair korporativ kurslar təşkil edirlər. Teatr, konsert və kinoya birgə səfərlər, sonra isə təəssüratların müzakirəsi geniş yayılmış praktikadır. Şirkətlər tanınmış teleaparıcıları, kino və teatr ulduzlarını mühazirə oxumaq üçün ofislərinə dəvət edirlər.

Bir tərəfdən süni intellekt insan fəaliyyətinin əksər sferalarını "işğal" edir, digər yöndən isə humanitar təhsillilər biznes və texnoloji sahədə hakimiyyəti ələ alırlar. Təzadlı deyilmi? Hər bir işlə robot məşğul olandan sonra insan nə edəcək? Süni intellekt və gələcək mövzularında araşdırma aparan əksər futuroloqlar bu sual üzərində "baş sındırır"lar. Həyat isə cavabı özü verir: robot sürətli, dəqiq, məhsuldar olsa da, insan kimi düşünə, yarada, təsəvvür edə bilməyəcək. Deməli, insan idarəetmə, daha dəqiqi, hakimiyyətin yeganə sahibi olaraq qalacaq.

# "Orda da məktəblinin dostları olsaydı..."



## Layihə genişlənir və daha da etimad qazanır

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Artıq qeyd etdiyimiz kimi, ötən həftə isə "Məktəblinin dostları" daha bir təhsil müəssisəsində, 162 nömrəli tam orta məktəbdə 3 əməkdaşla işə başlayıb.

Qeyd edək ki, Azərbaycan təhsil sistemində ilk dəfə olaraq gerçəkləşdirilən "Məktəblinin dostu" layihəsi dünyanın müxtəlif ölkələrində müxtəlif adlarla uğurla sınaqdan çıxarılıb. Burada əsas hədəf məktəb-təhsilalan-valideyn üçbucağının tərəfləri arasında üfüqi ünsiyyətin qurulması və hədəf olaraq təhsilalana ahəngdar özünü gerçəkləşdirmə imkanları yaratmaqdır.

### Gəlişi ilə mühit də dəyişdi, qaydalar da

Onların məktəbə gəlişi ilə çox şey dəyişib. Hər biri fəaliyyəti ilə məktəbdə təhlükəsiz mühit yaratmağa xidmət edib. Olduqları təhsil müəssisələrində sadəcə mühit deyil, qaydalar da dəyişib. Özü də sadəcə şagirdlər üçün deyil. Bəzən müəllimlər, yeri gələndə valideynlər də onların qaydaları ilə hesablaşmalı olub. Məsələn, məktəblinin dostları sadəcə şagirdlərin deyil, elə məktəb rəhbərliyi və müəllimlərin, hətta valideynlərin belə, məktəb ərazisində siqaret çəkməsinə imkan vermir. Görən kimi irad bildirir və təkrarlanmasına mane olurlar. Odur ki, övladını götürməyə gələn və məktəb ərazisində gözləyən valideynlər də bu qaydalara əməl edirlər.

### Məktəblinin dostlarının bir günü

Buna nail olmaq onlar üçün elə də asan başa gəlməyib. Fəaliyyətdə olduqları ilk gündən şagirdlərdən əvvəl məktəbə gəlib, sonuncu şagird məktəbdən çıxanda onların da təhsil müəssisələrindəki işi bitib.

Beləliklə, hər gün səhər saat 7.30-dan iş başındadırlar. Hər bir ümumtəhsil məktəbində onlara məxsus bir otaq var. Bu otaqdan bir baxışdaca hər yeri görmək, binanın hər sinfini, hər dəhlizini izləmək mümkündür. Kameralaşmış sistem məktəblinin dostlarına bütövlükdə məktəbə nəinki nəzarət etmək, yaranan hər hansı problemi sonradan araşdırmağa da imkan verir. Ancaq həmin otaqda 40 dəqiqədən çox vaxt keçirməyiblər. Bu, istəsələr belə, mümkün deyil. Niyə?

Məktəbdə ən çox açılıb-örtülən də onların qapısıdır. Qapıda ən müxtəlif yaş qruplarından olan şagirdləri görmək isə təəccüb doğurmur. Onlardan hər şey soruşa bilərlər. Bu məsələdə də bəlli bir çərçivə yoxdur. Çətinlik çəkdiyi mövzuda onlardan istiqamət istəyən, çalışmasını yerinə yetirməkdə dostlarının köməyinə güvənən, sinif yoldaşlarının qarşısında ona doğum günü sürprizi edilməsini xahiş edən şagirdləri heç vaxt əliboş qaytarmırlar. Məsələn, Xətai rayonu, NZS qəsəbəsi Zakir Yusifov adına 194 nömrəli tam orta məktəbdə şagirdlərin 3 dostundan biri, Hürü Əliyevanın sözlərinə görə, sürpriz doğum günü təşkil etdikləri uşaqların xoşbəxtliyini heç nə ilə əvəz etmək mümkün deyil: "Onlara hər an dəstək olmağa çalışırıq. Məsələn, qarşımıza tez-tez çıxan problemlərdən biri məktəblilərin, xüsusən, ibtidai sinif şagirdlərinin adaptasiyasıdır. Tutaq ki, şagird əmisinin gəlib onunla dərsdə oturmasını tələb və əks halda dərsdə qalmayacağında israr edir. Belə durumlar tez-tez yaranır".

### Məktəblinin dostlarının cəmiyyətə qazandırdıqları

Məktəblinin dostları hər məsələdə gözüaçıqdır. Heç nəyə biganə qalmadıqlarından hər hansı problem olanda hamıdan əvvəl fərqinə varırlar. Odur ki, şagirdlər arasında geniş yayılan zərərli vərdişlərə qarşı mübarizədə ən ardıcıl və qətiyyətli tədbirləri məhz onlar təşkil edirlər.

Sadəcə zərərli vərdişlərmi? Əslində, məktəblinin dostları onları həm zərərli vərdişlərdən çəkindirməyə, həm də mövcud çətinliklərinə qarşı mübarizəyə ruhlandırmağa çalışırlar. Məsələn, H.Əliyeva deyir ki, sağlamlıq imkanları məhdud uşaqlarla mütəmadi işləyir, onları cəmiyyətə qazandırmaq üçün əllərindən gələni edirlər. Öz üzərinə düşəni etməklə həmin uşaqların valideynlərinin də həyatını asanlaşdırırlar: "Onlara kömək etməyimiz xahişi ilə valideynlər də bizə tez-tez müraciət edirlər. Həm sağlamlıq imkanları məhdud uşaqları olanlar, həm də övladı zərərli vərdişlərə qurşananlar uşaqları ilə danışmağımızı, xüsusi işləməyimizi istəyirlər bizdən. Bu, həm valideynlərin bizə güvənməyinin, həm də övladlarına təsir gücümüzün olduğunu qəbul etmələrinin təsdiqidir".

### Məktəblinin dostları dərs vaxtı

Dərs başlayanda məktəblinin dostlarından biri monitorun arxasına keçir, digərləri isə məktəbin binasını və bütün ərazisini gəzir. Nəticədə kameraların görmədiyi künc-bucaq belə gözlərindən yayınmır. Gizli-gizli siqaret çəkən, dərsdən yayınan, məktəbliyə yaraşmayan niyyətlərə düşən, bir sözlə, zərərli vərdişlərə qurşanan yuxarı sinif şagirdlərinin məktəb ərazisindəki planlarını pozur, onlardan nümunə götürməyə çalışan azyaşlı dəcəlləri pis əməllərindən yayındırırlar.

### Məktəblinin dostunun bir ili

H.Əliyeva deyir ki, nəinki dərs gününün, hətta dərs ilinin necə keçdiyini hiss etməyiblər. Halbuki başlanğıcda qəbul edilmir, aqressiya, anlaşılmazlıq ilə üzləşirdilər. Amma o günlər geridə qalıb. İndi 1500 nəfər şagirdi olan 194 nömrəli tam orta məktəbin ayrılmaz hissəsinə çevriliblər.

Fəaliyyət göstərdikləri bütün məktəblərdə onlar böyük nüfuz qazanıblar. Ötməkdə olan 3 ilə baxanda görünür ki, bunun üçün xeyli səy göstəriblər və hər tədris ilində aşkarlayıb üzə çıxardıqları, bununla da kifayətlənməyib tədbirlər gördükləri faktların böyük bir siyahısı əmələ gəlib. Təkcə 2019-cu il ərzində məktəblinin dostları şagirdlərə 4360 dəfə tibbi yardım göstərib, 9 məktəblini ölümdən qurtarıblar. Məktəblərdə 9 yanğının, 8506 münaqişənin qarşısı alınıb.

Layihə ilə əhatə edilmiş məktəblərin 90 faizində siqaret çəkilməsi kəskin azalıb.

Rəqəmlərdən göründüyü kimi, məktəblinin dostları şagirdlərin sağlamlığına qarşı o qədər həssas mövqe nümayiş etdirirlər ki, nəticədə il ərzində qeydə alınanlar sırasında üstünlüyü də məhz belə faktlar təşkil edib.

Ayrı-ayrı faktlarda məktəblinin dostunun yardımının nədən ibarət olduğuna baxaq. Məsələn, 317 nömrəli tam orta məktəbdə məktəblinin dostları müəllimin dadına yetişib. Belə ki, huşunu itirərək yerə yıxılan müəllim xəsarət alıb. Məktəblinin dostları dərhal ona ilkin tibbi yardım göstərib və təcili yardım xidməti çağırıblar.

Ürəyinə inamsızlıq, düşüncələrinə intihar fikri hakim kəsilən məktəbli də onların sayəsində indi həyatdadır. Məktubu intihara cəhddən əvvəl ortaya çıxan və məktəblinin dostlarının müdaxiləsi nəticəsində nəinki həyatda qalan, hətta həyatı dəyişən məktəbliyə kömək etmək üçün məsələyə "Psixoloji mərkəz"in psixoloqları cəlb edilib. Məktub yazaraq halallıq istəyən məktəblinin valideynini də məktəbə çağıraraq şagirdin vəziyyətini birgə dəyərləndiriblər. Məlum olub ki, anası və nənəsi ilə birgə yaşayan şagird hər gün küçədə atası ilə qarşılaşır, amma atası onunla danışmır. Yanından yad bir insan kimi keçib gedir. Anası isə aqressivdir. Onunla kobud rəftar edir. Bütün bunlar uşağın ətraf mühitə qarşı etibarının itməsinə səbəb olub. Buna işarə vuran ilk cümləsi psixoloqların diqqətindən qaçmayıb. Odur ki, valideynlə onun davranışını müzakirə edib, məsləhətlər veriblər. Valideyn uşağa olan münasibətini dəyişdikcə uşağın da ovqatı və rəftarı dəyişməyə başlayıb. Şübhə yoxdur ki, bunu məktəblinin dostları vaxtında müşahidə etməsəydi, həmin şagird artıq həyatda olmayacaqdı.

20 nömrəli məktəb-liseydə "Məktəblinin dostu" layihəsinin fəaliyyətə başladığı ilk dərs ilində bir intihar cəhdinin qarşısı alınıb. Məktəblinin dostu Asya Əbülfəzlinin ayıq-sayıqlığı sayəsində IX sinif şagirdi ölümdən dönüb. Məktəbin sanitar qovşağında qolunu ülgüc ilə kəsən qız şagirdə "Məktəblinin dostları" layihəsinin əməkdaşı ilkin tibbi yardım göstərib. Məsələnin səbəbini araşdırmağa çalışan məktəblinin dostları şagirdin valideynini də məktəbə çağırıblar. Sinif rəhbəri ilə bərabər, valideynlə də söhbət aparıblar. Valideyni qız övladının psixoloji dəstək alması üçün mütəxəssisə müraciət etdiyindən Psixoloji Mərkəzin psixoloqları ilə konsultasiyaya ehtiyac qalmayıb.

### Şagirdlərin təhlükə ilə "rəqs"i

Məktəblinin dostlarının hədəfində duran "təhlükəsiz məktəb" söz birləşməsi təsadüfən seçilməyib. Bilərəkdən, ya da bilməyərəkdən, qəsdən, ya da qəzadan, diqqətsizlikdən, yaxud biganəlikdən hər gün onlarla, hətta yüzlərlə şagird təhlükə ilə üz-üzə gəlir. Məktəblinin dostlarının qarşısını aldığı hadisələri gözdən keçirdikcə bunu daha yaxşı anlayırsan. Belə hadisələrdən biri 270 nömrəli tam orta məktəbdə qeydə alınıb. Şagirdlərin təhlükəli zarafatı məktəblinin dostlarını ayağa qaldırıb. 8-ci sinif şagirdi R.S.-nın (şərti ad - müəl.) ayaqlarından tutub pəncərədən aşağı sallayan sinif yoldaşları M.C. və B.X. ona həyəcanlı anlar yaşadıb. Bu, məktəblinin dostu Nübar Xəlilovanın diqqətindən yayınmayıb və o, R.S.-i xilas edərək, dostlarına bunun çox təhlükəli zarafat olduğunu izah etməyə çalışıb. Baş verənlər zarafat olsa da, ikinci mərtəbədən başıaşağı sallandığı üçün çox qorxan R.S.-ə yardım etmək vəzifəsi də məktəblinin dostlarının boynuna düşüb.

Bu cür fakt 5 nömrəli tam orta məktəbdə də təkrarlanıb. Məktəblinin dostları dərhal müdaxilə edərək şagirdi pəncərədən qaldırıb, sakitləşdiriblər. Şagirdlərlə söhbət aparıb və bu haqda direktor müavininə məlumat veriblər. Şagirdlərin valideynləri də məktəbə dəvət olunaraq, məsələni onların iştirakı ilə müzakirə ediblər.

Beləliklə, məktəblinin dostları ayıq-sayıqlığı sayəsində ağır bir itkinin təsiri ilə neçə ailəyə, neçə ata-ananın ürəyinə "od düşməsi"nə mane olublar.

### Yanğın var!

Yanğın var! Hər yanğının ortasında da yanğınsöndürənlərdən əvvəl məktəblinin fədakar dostları. Onlar uşaqları təhlükədən, məktəbi də, yeri gələndə, yanğından mühafizə ediblər. Necə?

139 nömrəli tam orta məktəbdə ibtidai siniflərin ayaqyolunda çıxan yanğının qarşısını almaq, şagirdləri hadisə yerindən evakuasiya etmək hər cür fövqəladə vəziyyətə hazır olan məktəblinin dostları üçün çətin olmayıb. Layihənin əməkdaşları həm şagirdlərin təhlükəsizliyini təmin edib, həm də yanğının qarşısını alıblar.

9 nömrəli tam orta məktəbdə məktəbin qarşısında yerləşən idman meydançasında baş verən yanğına da ilk onlar müdaxilə edib. Yanğının məktəbin binasına keçməyinin qarşısını alıb, hadisə yerinə yanğından mühafizə xidməti çağırıblar.

5 nömrəli tam orta məktəbdə istilik sobasının yaratdığı yanğını da elə məktəblinin dostları söndürüb.

### Kənar şəxslərin girişi qadağandır

Onların ayaq basdığı məktəblərdən kənar şəxslərin ayağı birdəfəlik kəsilib. Səbəbi bəllidir. Kənar şəxslərin təhsil müəssisələrində yaratdığı problemlər məktəblinin dostlarının fəaliyyətə başladığı ilk aylardan onlara da, onların fəaliyyətini yaxından izləyən təhsil ictimaiyyətinə də yaxşı tanışdır. 95 nömrəli tam orta məktəbdə qeydə alınan faktda olduğu kimi, məktəbli üçün kənar şəxslər təhlükə, məktəb üçün isə ağır məsuliyyət deməkdir. Bu faktda məktəblinin dostları 5-ci sinif şagirdi A.İ.-ni soruşanın kimliyi və məqsədini müəyyənləşdirdiyi zaman bu gerçəklik daha aydın formada üzə çıxıb. Məlum olub ki, qız şagirdin ailəsi həmin şəxsə borcludur. Şagirdi axtarmağının səbəbi isə ailəsinin borclu olduğu pulu ondan istəməkdir. Həmin şəxs kənarlaşdırılsa da, məktəbin yaxınlığında gözlədiyi məktəblinin dostlarının diqqətindən yayınmayıb. Odur ki, layihə əməkdaşları şagirdin valideyninə və sinif rəhbərinə bu barədə məlumat veriblər. Şagirdə nəzarət gücləndirilib.

Məktəblinin dostu H.Əliyeva deyir: "Heç vaxt uşağı yad, tanımadığımız insanlara vermirik. Valideyndən başqası uşağı aparmağa gələndə mütləq araşdırırıq. Hətta valideynə zəng vurur, gələn şəxs barədə məlumat verir, uşağı həmin şəxsə verməyə icazəsi olduğu təqdirdə bunu edirik".

Beləliklə, onların güclü nəzarəti nəticəsində məktəbə daxil olmaq istəyən kənar şəxslər də niyyətinə çatmadan geri qayıdır.

### Yay məktəbi

"Məktəblinin dostları" yayda da məktəbi şagirdsiz, şagirdi nəzarətsiz qoymur. Müşahidələr göstərir ki, uşaqlar "Məktəblinin dostları"-nın təşkil etdiyi yay məktəbinə çox həvəslə qatılırlar. Yayda valideynləri işləyən və bu səbəbdən istirahətə gedə bilməyən məktəblilər çox həvəslə bu layihənin iştirakçısına çevrilirlər. Məsələn, Teymur Bayramov yay məktəbinə artıq 2 dəfə qatılıb və günlərinin çox maraqlı keçdiyini söyləyir: "Hər gün maraqlı oyunlar oynayır, yarışlar keçirirdik. "Su yarışı", "Tornado", "Breyn-rinq" bizim ən çox sevdiyimiz və oynadığımız yarışlardır. Yay məktəbində elə bir gün olmadı ki, günümüz maraqsız keçsin".

Məlumat üçün qeyd edək ki, yay məktəbi yarım gün olur. Uşaqlar səhər saat 9-da məktəbə gəlir, günorta saat 2-dək çıxıb gedirlər. Artıq məktəblilər arasında təşkil ediləcək yay məktəbinə hazırlaşmağa başlayanlar belə var.

### Şagirdlərə psixoloji dəstək: Psixoloji Mərkəzdə

Təhlükədən qurtaran, stress yaşayan, yoldaşlarıyla, hətta ailəsi ilə problemi olan uşaqlar qorxu, təşviş hisslərinə qarşı da məktəblinin dostlarından dəstək alırlar. Aralarında ixtisasca psixoloqlar çox olduğundan məktəblilərin iştirakçısı olduğu belə hadisələrdə xüsusi psixoloqlara zərurət yaranmır. Məktəblinin dostları uşaqları hər an müşahidə altında saxlayır, baş verən dəyişikliyi vaxtında sezməyə çalışırlar. Şagirdlərlə səmimi münasibət də onlara bu imkanı yaradır. Dost hesab etdikləri üçün məktəblilərin özü onlara yaxınlaşıb problemlərini danışırlar. Beləliklə, məktəblinin psixoloji problemləri onun dostunun nəzərindən yayınmır. Yaxşı oxuyan şagirdin qiymətlərinin düşməsindən tutmuş hər hansı müşahidə etdikləri qeyri-adi davranışına qədər heç bir problemə biganə qalmırlar. Yəni, məktəblinin ilk psixoloqu, ilk yardım göstərəni elə dostlarıdır.

Ancaq məktəblinin dostunun əlindən gəlməyən, gücü çatmayan, səlahiyyəti imkan verməyən problemlər də ortaya çıxır.

Maraqlıdır, məktəblinin dostlarının məktəbdə qarşılaşdıqları, ancaq öhdəsindən gəlməkdə çətinlik çəkdikləri hansı problemlərdir? Məktəblinin dostu valideyn-uşaq münasibətlərinin pozulması, I sinfə adaptasiya, yeniyetməlik böhranı, şagirdlər və ya ailə tərəfindən şiddət, aqressiya, qorxu və fobiyalar, suisidal fikirlər, idrak prosesinin pozulması, hiperaktivlik, özünəinamsızlıq, inkişafda ləngimə, imtahanqabağı stress, psixoloji travma, özünəxəsarət, özünəqapanma, davranış pozuntusu kimi problemlərlə qarşılaşdıqda məsələyə psixoloqlar qarışır. "Məktəblinin dostu" layihəsinin psixoloqları dərhal məktəbə dəvət edilir.

"Məktəblinin dostu" layihəsi çərçivəsində fəaliyyət göstərən Psixoloji Mərkəzin adı tez-tez hallanır. Layihədən danışarkən Mərkəzi kənarda tutmaq, demək olar ki, mümkün olmur. Çünki məktəblinin dostlarının müdaxilə etdiyi hadisələrin böyük əksəriyyətində psixoloji dəstək mütləq təmin edilir. Müraciətlər əsasında psixoloji dəstək, diaqnostika və korreksiya işləri aparılır. Ailə terapiyası, valideynlərlə seminarlar və təlimlər keçirilir.

Psixoloji Mərkəzin psixoloqları vəzifələrinin öhdəsindən lazımınca gəlirlər. "Məktəblinin dostu" məktəbə getdiyi gündən bu yana psixoloqların müdaxilə etdiyi və fərdi konsultasiyalara cəlb edilən şagirdlərin sayı mini keçib.

Psixoloji Mərkəzdə hazırda 2 psixoloq - Mehriban Verdiyeva və Nərmin Abbasova öz məsləhətləri ilə həm məktəblilərin, həm müəllimlərin, həm də onların valideynlərinin xidmətindədirlər. Onlar məktəblinin dostlarının bir çağırışı ilə məktəblərə gedir, şagirdlərin problemlərini dərindən araşdırırlar. Artıq məktəblilərin himayədarına belə çevriliblər. Uşaqlar ata-analarını indi psixoloqları ilə "hədələyirlər". Valideyninə "Psixoloquma deyəcəm!", - deyə xəbərdarlıq edirlər. Elə valideynlər də psixoloqların məsləhətlərindən çıxmır, lazım gələrsə, onların təlimatına uyğun hərəkət edirlər. Öz səhvlərini psixoloqa etiraf etməkdən çəkinmirlər.

Qeyd edək ki, Psixoloji Mərkəz Bakı şəhəri 150 nömrəli tam orta məktəbdə yerləşib. "Məktəblinin dostu" layihəsinin ilk günündən fəaliyyətdədir. Məqsəd də budur ki, müxtəlif yaş qrupunda olan şagirdlərə, onların valideynlərinə, həmçinin müəllimlərə ehtiyac olduğu təqdirdə psixoloji dəstək verilsin. Bu dəstək həm məktəbdə, həm də Psixoloji Mərkəzdə göstərilə bilər. Psixoloq Mehriban Verdiyevanın sözlərinə görə, məktəblərdə konsultasiya üçün şərait yaradılsa da, Psixoloji Mərkəz uşaqlar üçün daha maraqlıdır: "Bura gəlməyə həvəs göstərirlər. Xüsusən, bir dəfə gəlib gördükdən sonra daha da həvəslənirlər. Məktəb mühitindən ayrılmaq da onlara yaxşı təsir göstərir. Əlimizin altında hər bir material, diaqnostik vəsaitlər olduğu üçün biz də konsultasiyaların burada keçirilməsində maraqlıyıq. Bəzi diaqnostik vasitələri götürüb məktəbə getmək çətinlik yaradır".

### Onlar məktəblilərə gələcək məşğuliyyətlərini müəyyənləşdirməkdə də kömək edirlər

Psixoloqlar sadəcə hipeaktiv olduğu, ya da tez-tez məktəbdə dava saldığı, yaxud dərslərə biganə qaldığı üçün məktəblilərin köməyinə getmir. Onlar məktəblilərə gələcək məşğuliyyətlərini müəyyənləşdirməkdə də kömək edirlər. Psixoloji Mərkəzdə 7-8-9-cu sinif şagirdlərinin karyera planlamasından tutmuş nisbətən ağır psixoloji problemlərini aradan qaldırmağa qədər hər məsələdə yardımçı olmağa çalışırlar.

Yeri gəlmişkən, Psixoloji Mərkəz fəaliyyətə başladığı ilk gündən məktəblilərin ixtisas seçiminə xüsusi diqqət yetirir. Hətta bu, onların fəaliyyətinin əsas istiqamətlərindəndir. Təkcə bu il peşəyönümü və karyera planlaşdırması ilə bağlı 32 məktəbdə 825 şagirdi əhatə edən davamlı təlim sessiyaları aparılıb. Psixoloqların təlimləri həm diaqnostik, həm də maarifləndirici olub: "Peşələrlə bağlı müzakirələr aparır, meyil və bacarıqlarını müəyyənləşdirən testlərdən keçirir, onlara ümumi məsləhətlər veririk".

Ümumiyyətlə, Psixoloji Mərkəzdə çoxsaylı tədbirlər həyata keçirilib. Mərkəzin təşəbbüsü ilə indiyədək 3 müxtəlif formatda karyera planlama təlimləri baş tutub. Əsasən, 7, 8, 9 və 10-cu siniflərin qatıldığı təlimlər həm məktəblərdə, həm də Psixoloji Mərkəzdə təşkil edilib. Əksəriyyətində şagirdlərlə yanaşı, valideynlər də iştirak edib.

### Şagirdlərin asudə vaxtlarının düzgün idarə olunmamasının ağır nəticələri

Psixoloji Mərkəzdə intihara meyilli uşaqları müəyyən etməyə kömək edən diaqnostik vəsait hazırlanıb. Qrant layihəsi çərçivəsində hazırlanıb ilk dəfə 200 nömrəli məktəb-lisey kompleksində tətbiq edilən vəsait artıq layihənin icra olunduğu bütün məktəblərdə iş zamanı psixoloqların köməyinə gəlir. Psixoloq Mehriban Verdiyeva deyir: "Suisidial fikrin diaqnostikası və korreksiyası" adlı bu layihəni Təhsil Nazirliyinin qrant müsabiqəsinə də təqdim etdik. Layihənin sonunda diaqnostik vəsait yaratdıq. Bu vəsait intihara meyilli uşaqları müəyyən etməyə kömək edir. Ümumiyyətlə, risk qrupuna daxil olan uşaqlar müəyyən olunur və onlarla fərdi korreksiya işləri aparılır".

Mehriban Verdiyevanın sözlərinə görə, onlar depressiyası olan və təşvişli uşaqlar üzərində psixoloji təlimlər keçir, onların fərdi inkişafına kömək edəcək söhbətlər aparır, valideynlərlə seminarlar keçirirlər.

Beləliklə, "Məktəblinin dostu" layihəsi çərçivəsində 136 məktəblinin dostu və 2 peşəkar psixoloq məktəblərdə uşaqların davranışını izləməklə bir çox ciddi problemləri önləməyə nail olur. Mehriban Verdiyeva hesab edir ki, məktəblərdə psixoloji problemlər daha çox şagirdlərin asudə vaxtlarının düzgün idarə olunmaması nəticəsində müşahidə olunur: "Məktəblərdə uşaqlar özünə bir "qurban" müəyyənləşdirib hər fürsətdə ona qarşı planlar qurur, yaranan boş vaxtdan istifadə edib, güclərini ona yönəldirlər. Bu vəziyyətdə uşaqları idarə etməkdə əsas yük məktəbin və müəllimin üzərinə düşür. Təcrübə göstərir ki, psixoloji problemlər daha çox ailələrdən qaynaqlanır. Valideynlə uşaqların ünsiyyəti düzgün qurulmayanda belə problemlərə səbəb olur. Valideyn uşağı eşitmir, vaxtının olmadığını əsas gətirib onlara vaxt ayırmır, qucaqlamır, öpmür, sevgisini uşaqlarına göstərmir. Yaxud, uşaq dərsdən, imtahandan aşağı qiymət alanda onları danlayır, başını aşağı əydiyini deyir, uşaqlarına görə utandıqlarını göstərməkdən çəkinmirlər. Nəticədə uşaqları ilə aralarında sonradan aşa bilmədikləri uçurum əmələ gəlir".

Bunu nəzərə alan "Məktəblinin dostları" məktəblilərin problemlərinə fərdi qaydada müdaxilə etməklə kifayətlənməyib, onları və valideynlərini maarifləndirmək üçün də əllərindən gələni edirlər. "Məktəblinin dostu" layihəsi çərçivəsində həyata keçirilən tədbirlərin çoxu təhlükəsizlik məqsədi daşısa da, şagirdlərin istedadlarının üzə çıxarılması, intellektual inkişafla bağlı təşəbbüslər, xüsusi günlərə həsr edilmiş birgə (məktəb-şagird-valideyn) tədbirlər, o cümlədən komanda idman oyunlarının təşviqi də az deyil. Təkcə bu il ərzində ümumilikdə 5 kateqoriya üzrə 150-yə yaxın təşəbbüs icra edilib.

### Məktəblinin dostları həmişə hazırdır

Bir sözlə, məktəblinin dostları hazır vəziyyətdə dayanıblar. Özü də çox iddialıdırlar. Onların olduğu məktəbdə məktəb təhlükəsiz, valideyn arxayındır.

## "Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti"

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə İmişli Rayon Təhsil Şöbəsinin və Yeni Azərbaycan Partiyası İmişli rayon təşkilatının birgə təşkilatçılığı ilə 9-11-ci sinif şagirdləri arasında "Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti" mövzusunda inşa yazı müsabiqəsi keçirilib.

Tədbirdə RTŞ-nin müdir əvəzi Vahid Tağıyev çıxış edərək ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında geniş təbliği məqsədilə müxtəlif maarifləndirici tədbirlərin keçirildiyini diqqətə çatdırıb.

Müsabiqədə rayon məktəblərindən 22 nəfər şagird iştirak edib.

İnşa yazıları RTŞ tərəfindən hazırlanmış və kodlaşdırılmış xüsusi dəftərlərdə yazılıb. Yazılar təhsil şöbəsində yaradılmış münsiflər heyəti tərəfindən yoxlanılacaq.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## LDU ilə İlahiyyat İnstitutu arasında əməkdaşlıq protokolu imzalanıb

Lənkəran Dövlət Universiteti (LDU) ilə Azərbaycan İlahiyyat İnstitutu arasında birgə elmi-pedaqoji və tədqiqat işlərinin aparılması sahəsində əməkdaşlığa dair protokol imzalanıb.

Protokolda hər iki ali təhsil müəssisəsinin fakültə və kafedraları arasında qarşılıqlı, faydalı əməkdaşlığa əsaslanan elmi-tədqiqat işlərinin aparılması, birgə layihələrin reallaşdırılması, professor-müəllim heyəti və doktorantlar üçün təkmilləşdirmə kurslarının keçirilməsi nəzərdə tutulur. Həmçinin, bağlanmış protokola əsasən, elmi konfransların təşkili, elmi araşdırmaların aparılması, təlim kurslarının və seminarların keçirilməsi məqsədilə institut və universitet əməkdaşlarının qısa və ya uzunmüddətli mübadiləsi, ali təhsil müəssisəsində təhsilalanların elmi rəhbərlik, araşdırma işlərinin yerinə yetirilməsi üçün ədəbiyyat və kitabxana materialları ilə təmin edilməsi üzrə əməkdaşlıq planlaşdırılır.

İlahiyyat İnstitutunun fəaliyyəti haqqında məlumat verən rektor, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov ölkənin digər təhsil müəssisələri ilə əlaqələrin qurulmasına və təcrübə mübadiləsinin aparılmasına xüsusi önəm verdiklərini qeyd edib. O, rəhbəri olduğu ali təhsil müəssisəsinin xarici universitetlərlə yanaşı, yerli təhsil müəssisələri ilə də əlaqələrin qurulması istiqamətində səylərini davam etdirdiklərini nəzərə çatdırıb.

LDU-nun rektoru vəzifəsini icra edən professor Natiq İbrahimov isə universitetdə təhsilin yenilənməsi istiqamətində aparılan çoxşaxəli fəaliyyətləri barədə ətraflı məlumat verib, son illər ölkəmizdə elm və təhsilin inkişafı sahəsində aparılan islahatların təqdirəlayiq olduğunu vurğulayıb. O, İlahiyyat İnstitutu ilə əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağını və qarşıya qoyulmuş vəzifələri yerinə yetirməyə hazır olduqlarını qeyd edib.




## Uşaqların icbari dispanserizasiyası

Qax Rayon Təhsil Şöbəsində Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin, rayon icra hakimiyyətinin, təhsil şöbəsinin nümayəndələrinin iştirakı ilə seminar-müşavirə keçirilib.

Tədbirdə Respublika GEM UYYGB-nin müdiri İqbal Səfərova, həkim-gigiyenist Narınc Orucova, RTŞ-nin müdir əvəzi Babək Heydərov, RİH-nin nümayəndəsi Nəzirməhəmməd Nəsirov, RGEM-nin direktor əvəzi Şəbnəm Qumuxova, ümumtəhsil, məktəbəqədər tərbiyə, ərazi səhiyyə müəssisələrinin rəhbərləri, tibb işçiləri iştirak ediblər.

Tədbirin keçirilməsində məqsəd Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi, "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanununun icrası istiqamətində uşaqların və yeniyetmələrin sağlamlığının mühafizəsinə yönəldilmiş tibbi sanitariya xidmətinin və qidalanmanın təşkili, uşaq və yeniyetmələr arasında su ilə bağlı gigiyenik biliklərin artırılması, sağlam ətraf mühit və sağlam həyat tərzinin geniş təbliği, narkomaniya və alkoqolizmin zərərlərinə dair maarifləndirmə işlərinin aparılmasıdır.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Yaşıl məktəb"

Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə aprelin 8-dən start verdiyi "Yaşıl məktəb" aksiyasına Şəki rayon ümumtəhsil məktəbləri də qoşulub. Belə ki, şəhər təhsil şöbəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrinin həyətlərində məktəblərin pedaqoji və şagird kollektivləri tərəfindən meyvə ağacları, dekorativ ağac və güllər əkilib.

"Yaşıl məktəb" aksiyası çərçivəsində aprel ayının sonunadək şəhər təhsil şöbəsinin tabeliyindəki təhsil müəssisələrinin ərazisində 2000-dən çox tingin əkilməsi nəzərdə tutulub.

"Yaşıl məktəb" aksiyasının məqsədi ətraf mühitin qorunması, şagirdlərdə təbiətə qayğı hissini, ekoloji mədəniyyəti və maarifləndirməni inkişaf etdirmək, onların sağlamlığının qayğısına qalmaqdan ibarətdir.

**Mahal MƏMMƏDOV,**
*Şəki Şəhər Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Müasir dövrdə ümumi təhsilin aktual problemləri"

Saatlı şəhər 4 nömrəli tam orta məktəbdə "Müasir dövrdə ümumi təhsilin aktual problemləri" mövzusunda elan olunan Pedaqoji mühazirələrin I mərhələsi keçirilib.

I mərhələdə Saatlı rayon ümumtəhsil müəssisələrindən 7 müəllim iştirak edib. Dinlənilən mühazirələr təyin edilmiş münsiflər heyətinin müəyyən etdiyi meyarlar əsasında 10 ballıq sistem üzrə iştirakçılar tərəfindən qiymətləndirilib. Yekun nəticələrə əsasən rayonun Varxakənd kənd tam orta məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimi Bikə Allahverdiyeva və Fətəlikənd kənd tam orta məktəbinin tarix müəllimi Fəridə Mədədzadə respublika mərhələsində iştirak etmək hüququ qazanıblar.

**Xalid NƏCİYEV,**
*Saatlı Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Balaca fidanlara səbr və sevgi ilə yanaşmalıyıq"

## *Samirə Əliyeva:* "Biz müəllimlər ən ağır yükü eyni sevinclə qarşılayırıq"



**Samirə Əliyeva 1980-ci ildə Gəncə şəhərində anadan olub. 1998-ci ildə Gəncə Dövlət Universitetinin İbtidai təhsilin pedaqogikası və metodikası fakültəsini bitirib. 2015-ci ildə müəllimlərin işə qəbulu müsabiqəsində müvəffəqiyyətlə iştirak edərək Gəncə şəhər 32 nömrəli tam orta məktəbdə pedaqoji fəaliyyətə başlayıb.**

*- Samirə xanım, müəllimlik peşəsinə sizdə maraq necə yaranıb?*

- Biz ailədə 5 övladıq. Anamın ən böyük arzusu təhsilli övladlar yetişdirmək, vətənə, millətə faydalı şəxsiyyətlər formalaşdırmaq olub. O, hər zaman "Müəllim olun, siz də başqa anaların övladları haqqında qurduqları xəyalları reallığa çevirin" deyirdi. Buna görə də kiçik yaşlarımdan müəllim olmaq arzum formalaşdı. Bundan başqa mən çox səbrli insanam. Belə olan halda, ibtidai siniflərdə tədrisi həyata keçirmək maraqlı bir məşğuliyyətə çevrilir. Düşünürəm ki, evdən yenicə ayrılan, məktəb mühitinə öyrəşməyə çalışan balaca fidanlarımıza mütləq ki, səbr və sevgi ilə yanaşmalıyıq.

*- Müəllim olmaq sizin üçün nə deməkdir? Sizin özünüzə nümunə hesab etdiyiniz müəllimlər olubmu?*

- Bu peşə üzrə fəaliyyətə başlamamışdan əvvəl müəllimliyin bu qədər mükəmməl olduğunu bilmirdim. Amma geridə buraxdığım 3 ilin mənə çox yaxşı öyrətdiyi bir məsələ var. Müəllimlik peşə olmaqdan daha, vacib bir yaşam tərzidir. Həyatını məktəbə, şagirdə həsr etməkdir. Xoşbəxtliyini şagirdin uğuru ilə bağlamaqdır. Özümə nümunə hesab etdiyim kifayət qədər çox müəllimlərim var. Onlara olan heyranlığım və sevgim məni müəllimlik kimi müqəddəs bir peşəyə yönləndirdi.

*- Bir müəllim üçün ən gözəl hədiyyə, sizcə, nədir?*

- Müəllim üçün hər gün hədiyyədir, hər gün bayram, sevinmək və xoşbəxt olmaqdır. Unutmaq lazım deyil ki, gələcəyimizi formalaşdıran biz müəllimlər ən ağır yükü eyni sevinclə qarşılayırıq. Müəllim üçün ən böyük hədiyyə onun tədris etdiyi fənni şagirdin yaxşı mənimsəməsidir. Yalnız bu halda müəllim sevinə, çəkdiyi əziyyətin hədər getmədiyini görə bilər.

*- Dərs prosesində daha çox hansı üsul və vasitələrdən istifadə edirsiniz?*

- Müasir təlim şagirdin maraq və tələbatlarına, bilik səviyyəsinə, imkan və qabiliyyətinə uyğun təşkil olunmalıdır. Buna uyğun olaraq dərs prosesində daha çox müxtəlif xarakterli oyunlardan istifadə edirəm. Oyun zamanı şagirdlər yoldaşlarının istəkləri və maraqlarını nəzərə almağı, təmkinli, daha məsuliyyətli olmağı öyrənirlər. Oyunlar özünənəzarət və özünüqiymətləndirmə bacarıqlarını formalaşdırır.

*- Müəllim olmaq istəyənlərə nə deyərdiniz?*

- Əgər bu gün biz başəriyyətin çatdığı yüksək inkişaf səviyyəsi, elmi-texniki nailiyyətlər barədə məmnunluqla söhbət açırıqsa, buna görə ilk növbədə müəllimlərə minnətdar olmalıyıq. İnsan cəmiyyətinin əzəli və sonu müəllim əməyi ilə bağlıdır. Bütün bunlara görə də müəllim olmaq qərarını verdikləri zaman mütləq ki, bu peşənin məsuliyyətini dərk etsinlər.

**Raminə MƏMMƏDOVA,**
*Gəncə Şəhər Təhsil İdarəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "M.P.Vaqifin həyat və yaradıcılığı" mövzusunda "dəyirmi masa"

Ağstafa rayonu Dağ Kəsəmən kənd 2 nömrəli tam orta məktəbdə "Molla Pənah Vaqifin həyat və yaradıcılığı" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbirdə məktəbin pedaqoji kollektivi, V və IX sinif şagirdləri iştirak ediblər.

Məqsəd şagirdlərdə mütaliə vərdişlərinin inkişaf etdirilməsi, Molla Pənah Vaqif yaradıcılığı barədə məlumat əldə edilməsindən ibarət olub.

"Dəyirmi masa" iştirakçıları Vaqifin yaradıcılığından geniş bəhs ediblər. Tədbirin sonunda Vaqifin həyat və yaradıcılığından bəhs olunan videomaterial izlənilib.

**Nəcibə VƏLİYEVA,**
*Ağstafa Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

## "Şabran tarixin axınında"

Şabran şəhər T.Abbasov adına 1 nömrəli tam orta məktəbdə "Şabran tarixin axınında" adlı tədbir keçirilib.

Tədbirdə rayonun tarixi haqqında geniş məlumat verən məktəbin tarix müəllimi Rəna Məmmədova bildirib ki, bu qədim şəhər özündə Azərbaycan tarixinin ən dəyərli qatlarını daşıyır.

Tədbirdə məktəblilər tərəfindən rayonun qədim dövrlərdən bu günə qədər keçdiyi tarixi yol, adət-ənənələr, Şabran mətbəxi, əhalinin əsas məşğuliyyəti, ixtisaslaşma sahələrini əks etdirən ədəbi-bədii kompozisiya təqdim olunub.

Şagirdlər, həmçinin milli geyimlərdə rəqslər nümayiş etdirərək, xalq oyunları oynayıblar.

Tədbirdə fəaliyyətləri ilə rayonun tarixinə adlarını yazan şəxsiyyətlərdən də bəhs edilib.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

# Pedaqoji ictimaiyyət üçün dəyərli töhfə

**Elbrus İSAYEV,**
*Naxçıvan Müəllimlər İnstitutunun rektoru*

Bu günlərdə işıq üzü görən "Pedaqoji fikir tarixindən" adlı kitab Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən 10 min nüsxədən ibarət nəfis şəkildə tərtib olunaraq pedaqoji ictimaiyyətə təqdim edilib. Bu nəşr mahiyyət etibarilə pedaqoji ictimaiyyət üçün dəyərli mənbə, stolüstü kitab səciyyəsi daşıyır. Kitabda pedaqoji fikir tarixində mühüm əhəmiyyəti olan pedaqoji-didaktik mətn nümunələrinin seçilib yerləşdirilməsi oxunaqlılıq baxımından və tərbiyəvi əhəmiyyətinə görə tədqiqatçılıq səriştəsi ilə ümumiləşdirilmiş mənbə kimi diqqətimizi çəkməkdədir.

"Pedaqoji fikir tarixindən" adlı kitabın "Oxunması zəruri olan kitabların siyahısı"na daxil edilməsi bu siyahını zənginləşdirməklə yanaşı, müəllimlik fəaliyyətinə, pedaqoji prosesə dövlətimizin yüksək qayğısını ifadə edir. Əsərdə pedaqoji fəaliyyət zamanı cəmiyyətin bütün təbəqələrini yalnız bir amala - təhsil, tərbiyə, mütərəqqi təlim metodları istiqamətinə yönəldən fikirlər toplanıb.

Əsərin əhəmiyyətli cəhətlərindən biri də məktəbimizin və pedaqoji fikrimizin keçmişini öyrənməklə, onun hazırkı vəziyyəti və perspektivlərinin müəyyənləşdirilməsindəki rolundan ibarətdir. Təqdim olunan kitaba diqqətlə nəzər saldıqda bu günün nailiyyətlərinin keçmişdən qidalandığını, ondan qüvvət aldığını da aydın görmək mümkündür.

Kitabda XIX-XX əsrlərdə yaşayan Azərbaycan və Rusiya pedaqoqları, yazıçıları və ictimai xadimlərinin maraqlı fikirləri verilib. ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktub, görkəmli pedaqoq-nəzəriyyəçilərdən olan Uşinski, Çernyayevski, Suxomlinksinin pedaqoji görüş və düşüncələri, Maksim Qorki, Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Nəriman Nərimanov, Hüseyn Cavid, Eynəli bəy Sultanov, Məhəmməd Ağa Şahtaxtlı, Məmməd Səid Ordubadinin əsərlərindən seçmələrin kitabda yer alması nəşrin elmi-pedaqoji dəyəri ilə yanaşı, onun mükəmməl xarakteristikası və sistematikasını da ifadə edir.

Kitabı vərəqlədikcə bir daha aydın olur ki, bu maarifpərvər pedaqoqlar yalnız dərs deməklə kifayətlənməyiblər. Həmin ziyalılar bədii əsərlər yazır, qəzet və jurnallar çap etdirir, yeni üsullu məktəb açır, qiraətxana və kitabxanalar təşkil edir, dərsliklər hazırlayırdılar. Təqdim olunan kitabda əsərləri əks olunan müəlliflər məhz bu mühüm göstəricilərə malik olan şəxsiyyətlərdir.

Bu baxımdan publisist-politoloq Reyhan Mirzəzadənin "Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə" və "Pedaqogikada misli görünməmiş təcrübə" adlı tədqiqatlarının kitabda yer alması məhz bu mütərəqqi düşüncəli pedaqoqların irsinin öyrənilməsinə həsr edilmiş dəyərli araşdırma kimi diqqəti cəlb edir. Rus və dünya pedaqogika elminin və xalq məktəblərinin görkəmli nümayəndəsi hesab olunan Konstantin Dmitriyeviç Uşinski pedaqoji prosesdə müəllimin rolunu yüksək qiymətləndirərək deyirdi: "Müəllim nə qədər ki, oxuyur, öyrənir, o yaşayır, oxumağı dayandırdıqda ondakı müəllimlik ölür". Demokratizm və xəlqilik Uşinskinin pedaqoji fəaliyyətində əsas istiqamətdir. O deyirdi ki, "Xalqı öyrənmək gərəkdir, lakin xalqdan öyrənmək daha vacibdir".

Azərbaycanın maarifpərvər ziyalıları pedaqoji fəaliyyətində Uşinskinin irsindən, xüsusilə onun ana dilinin tədrisinə dair qiymətli fikirlərindən bəhrələniblər. Bu gün dünyada model kimi təqdim olunan təhsil məsələləri haqqında hələ uzun illər bundan öncə danışan Uşinski şagirdlərin ev tapşırığı ilə həddindən artıq yüklənməsinin zərərindən bəhs edərək, ibtidai siniflərdə, xüsusilə I sinifdə şagirdlərin bütün dərslərini sinifdə müəllimin nəzarəti və rəhbərliyi altında öyrənməli olduqlarını göstərirdi. Bu faktın özü onu sübut edir ki, təqdim olunan əsər zamanında olduğu kimi bu gün də çox mühüm aktuallıq kəsb edir.

Azərbaycanda və ümumən Zaqafqaziyada pedaqoji fikrin inkişafı tarixində görkəmli yer tutan tanınmış simalardan biri də Aleksey Osipoviç Çernyayevskidir. Uşinski ideyalarının Azərbaycanda ilk təbliğatçılarından biri olan Çernyayevski Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinə 14 il rəhbərlik etmiş, azərbaycanlı uşaqların ana dilində ibtidai təhsilinin elmi cəhətdən əsaslandırılan metodikasını işləyib hazırlamışdı.

Kitabda haqqında bəhs olunan digər görkəmli pedaqoq Anton Semyonoviç Makarenko uşaq kollektivi, tərbiyə prinsipləri, valideynlərin vəzifələri haqqında nəzəri görüşləri ilə məşhurdur. O, məktəbəqədər təhsilin vacibliyini qeyd edərək, valideynlərə xitabən deyirdi ki, "uşağın necə olacağı əsas etibarilə Sizin onu 5 yaşına kimi necə tərbiyə edəcəyinizdən asılıdır. Əgər Siz uşağı 5 yaşına kimi lazımi qaydada tərbiyə etməmişsinizsə, sonra yenidən tərbiyə etmək lazım gələcəkdir, yenidən tərbiyə isə çox çətindir. Buna görə də ailədə uşağın ilk yaşlarından tərbiyə edilməsi çox mühümdür".




Naxçıvan Muxtar Respublikasında təhsil quruculuğu sahəsində həyata keçirilən tədbirlər, imzalanan dövlət sənədləri mütərəqqi təhsil imkanlarını artırmaqla yanaşı, milliliklə bəşəriliyin nümunəvi modelini, tarixiliklə müasirliyin vəhdətini təqdim edir. Naxçıvan Muxtar Respublikasında təhsil quruculuğu sahəsində aparılan işlərin məntiqi ardıcıllığı, sistemli xarakteri diqqəti çəkməkdədir. Əgər bir neçə illər bundan öncə təhsilimizin əsas qayğısı müasir təhsil infrastrukturuna malik məktəb binalarının inşası idisə, ikinci mərhələni məktəbin kadr potensialının gücləndirilməsi təşkil edirdi. Daha sonrakı mərhələdə müasir təlim metodlarının uğurlu tətbiqinə yönəlmiş strateji əhəmiyyətli tədbirlər həyata keçirilib. Təhsil müəssisələrinin müasir kitabxana potensialının gücləndirilməsi və məktəbin kitab fondunun zənginləşdirilməsinə nəzarətin təşkili və qayğıyla əhatə olunması, əlbəttə ki, əsas hədəf kimi mütaliəyə olan marağın artırılmasını zəruri edirdi. Bunun üçün təhsil müəssisələrinin kitabxanalarında elektron kataloq yaradılıb, kitabxanalara 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat verilib. Bugünkü mərhələdə kitabların oxunmasının zəruriliyinin dövlət səviyyəsində təbliği və təşviq olunması tam zamanında və obyektiv maraqlar çərçivəsində yüksək əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar" haqqında Sərəncamı ilə təqdim olunan kitablar və zaman-zaman bu siyahıya yeni əsərlərin əlavə edilməsi oxucu zövqünün sistemli formalaşdırılması ilə yanaşı, mütaliəyə olan marağı gündən-günə artırmaqdadır.

Kitabda haqqında bəhs olunan görkəmli pedaqoq Vasili Aleksandroviç Suxomlinskinin pedaqoji ideyalarının təməlini təhsilə mənəvi yanaşma təşkil edirdi. Suxomlinski çalışıb hər bir uşağın uşaqlıq dövrünün uzadılmasını vacib sayırdı. Onun fikrincə, uşaqların saflığını qorumaq üçün onlarda dünyaya müsbət baxış formalaşdırmaq önəmlidir. Estetik tərbiyəni lap kiçik yaşlardan başlamağı, onlara uşaq oyunları, nağıllar, mahnılar öyrətməyi, şəkilli kitablar, teatr, kino, sərgilərdən istifadə etməyi məsləhət görürdü.

Böyük ədib Maksim Qorkinin kitaba daxil edilmiş "Mən necə öyrənirdim?", "Oxumaq lazımdır", "Mən necə oxumuşam?" adlı məqalələrində kitaba və oxumağa olan həvəsin yolları açıqlanır.

Cəlil Məmmədquluzadə pedaqoq kimi daim məktəb həyatı ilə bağlı olub. "Maarif" məqaləsində də o, cəmiyyət həyatının nicatını məhz maarifdə görür.

Kitabda pedaqoji fikrimizin əsas simalarından biri kimi təqdim olunan Məhəmməd Tağı Sidqinin açdığı yeni üsullu məktəblər xalqımızın bütöv bir ziyalı nəslini yetişdirib. "Elm bir çox kitabları oxuyub yazmaqdan ibarət deyil, oxuduqca anlamaqdan ibarətdir", - deyən Məhəmməd Tağı Sidqi məktəbdə tədrisin səviyyəsinə, müəllimlərin dərsə hazırlığına, şagirdlərin bədii nitqinə, biliklərinin inkişaf etdirilməsinə xüsusi fikir verməklə Azərbaycan məktəbdarlığında yeni ənənələrin əsasını qoyub, milli maarifçilik tariximizdə özünə böyük abidə ucaldıb.

Nəriman Nərimanovun həyatında onun pedaqoji-maarifçilik fəaliyyəti ayrıca əhəmiyyət kəsb edir. Onun pedaqoji irsində mərkəzi yerlərdən birini də müəllim, onun şəxsiyyəti, müəllim kadrlarının hazırlığı məsələsi tutur. Nəriman Nərimanov xalq arasında savadın yayılmasında, xalqın ümumi tərəqqisində müəllimin rolunu yüksək qiymətləndirirdi. O, "müəllim" sözünü geniş mənada başa düşür, müəllimin geniş xalq kütlələri arasında işinə, ictimai fəaliyyətinə böyük əhəmiyyət verirdi. Nərimanov dövrün görkəmli müəllimlərinin yaxından iştirakı ilə 1894-cü ildə Bakıda ilk milli kütləvi kitabxana-qiraətxananın əsasını qoyub. Nəriman Nərimanov təkcə praktik pedaqoq deyil, eyni zamanda pedaqogika tarixi, psixologiya, Azərbaycan dili və onun tədrisi metodikasının bir sıra nəzəri məsələləri ilə də məşğul olub.

Kitabda pedaqoji fikir nümunəsi kimi Hüseyn Cavid yaradıcılığına da müraciət edilib. O, "Həsbi-hal" məqaləsində ibtidai siniflərin dərslik və proqramları haqda ayrıca söz açıb. Hesab edib ki, dərslik və proqramlar olduqca düşünülmüş, aydın və mənfəətli olmalıdır. Onlarda mövhumat və xurafata aid nə varsa islah edilməlidir. Başqa sözlə, dərsliklər, proqramlar elmi-pedaqoji və metodiki prinsiplərə uyğun hazırlanmalıdır. Çünki bu, zamanın tələbidir. Cavid mütaliə ilə bağlı müəllimin qarşısına ciddi vəzifələr qoyurdu. Yazırdı ki, müəllim öyrənib və şagirdlərə öyrətdiyi kitablarla kifayətlənməməlidir. Müntəzəm olaraq pedaqogikaya, təbiyyətə və əxlaqa aid kitabları mütaliə etməlidir. Sadəcə mütaliə etməli deyil, oxuduğu kitablardan faydalı nəticə çıxarmalı və bunu öz işində tətbiq etməlidir.

Kitabda həmçinin Eynəli bəy Sultanov, Məhəmməd ağa Şahtaxtlı, Məmməd Səid Ordubadi kimi görkəmli mütəfəkkirlərin elm, maarif, məktəb, təlim və tərbiyəyə dair qiymətli fikirlərini ifadə edən əsərlərindən parçalar verilib.

Əminik ki, "Pedaqoji fikir tarixindən" kitabının kütləvi nəşr edilib, pedaqoji ictimaiyyətə hədiyyə edilməsi, cəmiyyətimizin mütaliəyə, təhsil və tərbiyəyə istiqamətləndirilməsi, müəllim nüfuzunun yüksəldilməsi, milli təhsil islahatlarına mühüm yanaşma baxımından əvəzsiz mənbə rolunu oynayacaq. Geniş oxucu kütləsi, hətta valideynlər üçün qiymətli sayılan bu əsərin pedaqogika tarixinə faydalı olacağına tam əminliklə inanırıq.

# "Milli maarifçilik ənənələrinin davamçısı" mövzusunda elmi-seminar



"Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində Təhsil Nazirliyi ilə Xalq Təhsili Muzeyinin birgə təşkilatçılığı ilə 19 aprel 2019-cu il tarixdə "Milli maarifçilik ənənələrinin böyük davamçısı" mövzusunda elmi-seminar keçirilib.

Bakı Dövlət Universitetinin yaradılmasının 100 illik yubileyinə həsr edilmiş seminarda Milli Azərbaycan Tarixi Muzeyinin və Xalq Təhsili Muzeyinin əməkdaşları ilə yanaşı BDU-nun müəllimləri, gənc alimlər, tədqiqatçılar, tələbələr və Bakı şəhər Nərimanov rayon 202 nömrəli tam orta məktəbin müəllim və şagirdləri iştirak edib.

Seminarı giriş sözü ilə açan Milli Azərbaycan Tarixi Muzeyinin elmi işlər üzrə direktor müavini, dosent Nərgiz Əliyeva Bakı Dövlət Universitetinin elmi-təhsil müəssisəsi kimi əhəmiyyətini, onun tarixinin tədqiq və təbliğ edilməsinin vacibliyini bildirib. Eyni zamanda, universitetin 100 illik yubileyi münasibəti ilə Tarix Muzeyinin BDU ilə birlikdə sərgi keçirməyə hazırlaşdığını diqqətə çatdırıb. Xalq Təhsili Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi L.Bayramova birgə təşkil edilmiş bu tədbirin əhəmiyyətini vurğuladı və BDU-nu ali təhsil müəssisələrinin bayraqdarı adlandırmaqla Azərbaycanda yüksək ixtisaslı kadrların hazırlanmasında böyük rolundan danışıb, muzey tərəfindən hazırlanmış "Bakı Dövlət Universitetinin şərəfli inkişaf yolu" adlı səyyar sərgini iştirakçılara təqdim edərək elmi seminarın işinə uğurlar arzulayıb .

Elmi seminarda Bakı Dövlət Universitetinin tarix fakültəsinin professoru, tarix elmləri doktoru N.Məmmədov, Xalq Təhsili Muzeyinin direktor müavini Z.Şiriyeva, "Azərbaycan məktəbi" jurnalının əməkdaşı B.Mikayıllı çıxış edərək 100 illik yubileyi keçirilən, müsəlman Şərqində ilk yeni tipli ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinin yaranması tarixi, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və qabaqcıl maarifçi ziyalıların universitetin təşkilində xidmətləri barədə ətraflı məruzə ediblər və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Elmi seminarın sonunda iştirakçılar Xalq Təhsili Muzeynin sənəd və materialları əsasında hazırlanmış 8 stenddən ibarət sərgi ilə tanış olub.

# Çingiz Abdullayev Füzuli rayonu 50 nömrəli tam orta məktəbdə şagirdlərlə görüşüb



**Niyazi RƏHİMOV**

Aprelin 23-də Qaradağ rayonu Müşviqabad qəsəbəsində yerləşən Füzuli rayon 50 nömrəli tam orta məktəbdə "Ümumdünya Kitab və Müəllilik Hüququ Günü" ilə əlaqədar Azərbaycan Yazıçılar Birliyinin üzvü, nasir, publisist, hüquq elmləri doktoru, "Şöhrət" ordenli Çingiz Abdullayevlə görüş keçirilib. Görüşdə məktəbin müəllim-şagird kollektivi iştirak edib.

Tədbiri giriş sözü ilə açan təhsil ocağının direktoru Günel Kazımova "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nün təsis edilməsi tarixindən söz açıb. G.Kazımova bildirib ki, bu əlamətdar günün elan edilməsi barədə qərarda mədəni ənənələrin inkişafı və dərk edilməsi, həmçinin biliklərin yayılması və qorunması üçün kitabların ən böyük vasitə və ən etibarlı üsul olması vurğulanır, müəllifin cəmiyyətdəki xüsusi rolu qeyd olunur və bununla müəlliflik hüququ institutunun dəstəklənməsi göstərilir.

Ölkəmizdə "Ümumdünya Kitab və Müəlliflik Hüququ Günü"nün 1997-ci ildən qeyd olunmasını vurğulayan direktor bu münasibətlə hər il Müəllif Hüquqları Agentliyinin təşəbbüsü ilə silsilə tədbirlərin təşkil olunmasından da söhbət açıb. Belə bir əlamətdar gündə böyük oxucu kütləsi qazanmış yazıçı Çingiz Abdullayevin rəhbərlik etdiyi məktəbdə olmasından məmnun olduğunu deyib, məktəb kollektivinin dəvətini qəbul etdiyinə görə yazıçıya dərin təşəkkürünü bildirib.

Görüşdə çıxış edən Çingiz Abdullayev iştirakçıları salamlayaraq təhsil ocağında, şagirdlərin ətrafında olmağın xüsusi bir hiss olduğunu bildirib. Belə tədbirlərin əhəmiyyətindən söz açan Çingiz Abdullayev kitabların insan həyatındakı rolundan danışıb. Müəlliflik hüququnun mədəni irsin yaranmasında və qorunub saxlanılmasındakı rolundan da söz açan yazıçı, bu cür məsələlərin təbliğində pedaqoqların, məktəb rəhbərlərinin üzərinə düşən vəzifələrdən bəhs edib. Şagirdlərdə mütaliə vərdişlərinin formalaşması məsələsinin ən vacib amillərdən olduğunu deyən nasir məktəblilərə bir sıra tövsiyələr verib.

Çingiz Abdullayevin məktəbə gəlişini böyük sevinclə qarşılayan şagirdlər yazıçıya həm həyat, həm də yaradıcılığı ilə bağlı xeyli suallar verib. Yazıçı şagirdləri maraqlandıran sualları cavablandırıb və məktəblilərin ona verdiyi sualların məzmunlu və dolğun olduğunu xüsusilə qeyd edib.

Sonda fəxri qonaq məktəb kollektivi ilə xatirə şəkli çəkdirib.

Bu gün istənilən vətəndaşı narahat edən ən ciddi məsələlər içərisində təhsil problemləri önəmli yer alır. Təhsilin inkişafı naminə aparılan islahatların, axtarışların, qəbul edilən qanun və qərarların, icra olunan layihələrın səmərəliliyi cəmiyyəti qane edirmi, bu işlər ən müasir çağırışlara və Azərbaycan insanının gələcək ehtiyaclarına cavab verəcək istiqamətdə aparılırmı?

Hər hansı bir məsələyə sual şəklində yanaşma müəyyən mənada qıcığa səbəb olur. Bu, təbiidir. Hər kəs ona tapşırılmış işə məhz onun cavabdeh olduğunu düşünür. Nəsə alınmırsa, lazım olan məqamda bu cavabdehliyə görə məhz onun məsuliyyət daşıyacağını zənn edir. Təbii ki, bu, olduqca bəsit bir yanaşma və düşüncədir. Əgər cəmiyyətdə çoxtərəfli münasibətlər varsa, istənilən hadisə və ya oyunun, ictimai əhəmiyyətə malik proseslərin iştirakçısı olan hər kəs öz roluna uyğun məsuliyyət daşıyır. Səhnədə, bədii əsərdə, sənət nümunəsində kiçik və böyük rollar, obrazlar, detal və ştrixlər yalnız öz tutumuna görə kiçik və böyük hesab oluna bilər, əslində isə onların hamısı müəllifin ümumi ideyasının ifadəsinə xidmət edən məqamlardır. Həyatda da eynilə belədir. Cəmiyyətin ümumi maraqlarından, ümumi ictimai proseslərdən kənarda real insan konsepsiyasına, zaman və cəmiyyətə, şəxsiyyət və cəmiyyətə düzgün baxış formalaşa bilməz.

# Yeni yanaşmalar təhsildə innovativ fəaliyyətin rəhnidir

**Telman CƏFƏROV,**
*Bakı Slavyan Universitetinin tədris işləri üzrə prorektoru, professor, Əməkdar müəllim*

Sivilizasiyalar boyu yaradılan nə varsa, hamısı cəmiyyətlərə məxsus ortaq dəyərlər kimi ortaya çıxıb, tarixin malına çevrilib. Bizə elə gəlir ki, hər hansı bir dahi yaşadığı zamanının problemlərinin dahiyanə həllə ehtiyacından dahiyə çevrilib. Necə ki, erkən orta əsrlərdə birlik, cəsurluq və cəngavərlik çağırışları altında “Kitabi-Dədə Qorqud” və ona bənzər Avrasiya qəhrəmanlıq eposları yarandı, Orta əsrlər Azərbaycan İntibahının zirvələri hesab etdiyimiz Nizami, Nəsimi, Füzuli və onların adıyla bağlı ruhsal cərəyanlar, Avropada Jan Jak Russonun yeni insan fəlsəfəsi, Rusiyada Karamzin və rus masson dərnəklərinin təbliğ etdiyi daxili insan konsepsiyası formalaşdı. 18-ci əsrdən başlayaraq, Avropa və Rusiyada təhsilin inkişafının özülündə duran prinsiplər məhz klassisizm, maarifçilik, sentimentalizm, romantizm və realizmin kanon və ideyalarından bəhrələndi. Yüzilliklər boyu cəhalət və zülm içərisində çabalamış Rusiyanı 18-ci əsrdə fövqəl dövlətə çevirən I Pyotr və II Yekaterinanın təhsil siyasəti mütərəqqi Avropa təhsil modelinin məhz Rusiyada tətbiqinə, bu ölkədə Derjavin, Puşkin, Tolstoy və Dostoyevski, Çexov kimi dühaların yetişməsinə və dünya əhəmiyyətli böyük ədəbiyyatın, dünyanın dərkinə və ictimai-nəzəri-fəlsəfi düşüncənin təkamülünə, Şərq-Qərb, roman-german və slavyan-yunan, avrasiyaçılıq, qərbçilik, hətta türkçülük ideyalarının məhz bu ölkədə yaranmasına meydan açdı. Bu inkişafdan bizim maarifpərvər ziyalılarımız da bəhrələndi. Elə hesab edirik ki, Mirzə Kazım Bəy, Mirzə Fətəli Axundzadə, Abbasqulu Ağa Bakıxanov, İsmayıl Bəy Qutqaşenlidən sonra formalaşmış Azərbaycan ziyalıları nəsilləri, o cümlədən, milli kimliyimizin müəyyən olunması, türkçülük ideya və ideallarının formalaşmasında misilsiz rol oynamış Əli Bəy Hüseynzadə, Əhməd Bəy Ağaoğlu və ən nəhayət, Qori seminariyasında müəllimlik etmiş və təhsil almış yüzlərlə soydaşımız, bugünkü müstəqil Azərbaycanımız və müstəqil ölkənin vətəndaşları olan insanlarımız öz köklərindən uzaq düşmədən inkişaf üçün zaman-zaman şanslı olmuşlar. Dərinə getsək, görürük ki, mütərəqqi Avropa nəzəri-ideoloji cərəyanları, ədəbiyyatı, mədəniyyəti və təhsili öz təməl prinsiplərini Şərq dəyərləri üzərində qurmağı bacarıb. Yəni Orta əsrlər Şərq və Azərbaycan poeziyasına və fəlsəfəsinə xas olmuş sufizm ideyaları, düşüncə tərzi sonradan Avropa tərəfindən məharətlə transformasiya edilərək, mənimsənilibdir, əslində istər daxili insan konsepsiyasının, istərsə də bundan irəli gələn massonçuluq ideyalarının, sentimentalist təsvirin, Lev Tolstoya məxsus “qəlbin dialektikası”nın, Müsse, Höte, Lermontov və Dostoyevski psixologizminin kökündə sufizm ideyaları dururdu. Şükürlər olsun ki, Şərq xarakterini və dəyərlər məcmusunu özündə ehtiva edən Azərbaycan insanı Avropa və Rusiya təhsil məkanına transformasiya olunmuş, müxtəlif milli ideyalar və maraqlar, dini cərəyanlar hesabına zənginləşmiş bu elmi-mədəni sıçrayışların içində ola bilmiş və bundan faydalanmışdır...

XXI əsrin ikinci onilliyinin tamamına Azərbaycan tam başqa və özünəməxsus bir milli-mənəvi dəyərlər sistemi ilə gəlib çatıb. Arxada XIX əsrin sonu - XX əsrin əvvəllərinə təsadüf edən böyük maarifçilik, milli özünüdərk və oyanış mərhələsi, 2 illik müstəqil Cümhuriyyət quruculuğu dövrü və 70 il sovet hakimiyyəti ərzində bizi kütləyə, milli-etnik kökündən qopan, tarixi torpaqlarından və yaddaşından, dilindən imtina etməyə kökləyən, eyni zamanda, kütləvi savadlılıq və inkişaf bəxş edən, əvvəlki dövrlərdə qazanılan bariz milli-mədəni-qəhrəmanlıq keyfiyyətlərini sönməyə imkan verməyən və bu keyfiyyətləri zaman-zaman gənc nəslə aşılamağı bacaran, qan yaddaşımızı və ruhumuzu korşalmaqdan xilas edən milli ədəbiyyatımız, tarixi və fəlsəfi araşdırmalarımız, Cənublu-Şimallı mübarizlik nümunələrimiz və ən nəhayət, bədnam qonşularımızın və böyük dövlətlərin təzyiq və təsirlərinə rəğmən 30 ilə yaxın dövr müddətində qazanılan müstəqillik təcrübəmiz var. Prezident tərəfindən elan olunmuş “Cümhuriyyət İli”ndə biz bir çox məsələlərə aydınlıq gətirməyə çalışdıq, ən əsası isə bu qısa, lakin möhtəşəm tarixi dönəmdə Azərbaycan türklərinin, ziyalı qisminin imza ata bildiyi tarixi faktları, xalqın böyük coşqu və mətanətlə bu Cümhuriyyət uğrunda canından keçməsi, üsyanlar və siyasi mübarizələr, azad Vətən sevgisi ilə çarpışan mühacir ömürləri ilə azərbaycançılıq ideallarımızı yaşadan və bu ideallara yetişməkdə qolumuzu bağlayan və yolumuzu kəsən amilləri dərk etməyə imkan qazandıq. Görəsən, bu özünüdərki bu gündən belə atacağımız addımlarımızda əsas götürə və rəhbər tuta biləcəyikmi? Ulu öndər Heydər Əliyevin “Təhsil millətin gələcəyidir” inkişaf formulunun dialektik və fəlsəfi yozumuna uyğun bütün fəaliyyətlərimizin (iqtisadi, ictimai-siyasi, diplomatik, elmi-tədqiqat, innovativ, humanitar, ədəbi-publisistik, mətbu və s.) təməl daşı olan təhsil-təlim-tərbiyənin məzmun, istiqamət və standartlarını millətimizin gələcəyi, müasir və sürətlə dəyişən dünyamızın rənginə rəng qata, səsinə səs verə biləcək bir qüvvə kimi rənglər içərisində və səslər arasında seçdirə biləcəyikmi? Məhz Azərbaycan təhsilinin yetişdirməsi olacaq Azərbaycan insanını (insan resurslarını) onun malik olduğu elmi, mənəvi, mədəni, tolerant səviyyəsi ilə Avropa və Amerika, Cənub-Şərqi Asiya məkanında intellektual brend olaraq təqdim etməyə, sonda isə onun məhz Azərbaycan adına sevgi, ehtiram və iqtisadi-maliyyə dividentləri qazandırmaq adı ilə dönüşünə nail olacağıqmı? Başa düşülmək üçün burada bir haşiyə çıxmaq istəyirəm. Bu yaxınlarda Moskvada çıxan “Literaturnaya qəzeta”da (2019,13-19 fevral, №6) bir vərəqin bu və o üzündə iki yazıçı barədə məqalədə diqqətimi bir cəhət cəlb elədi. Azərbaycan türklərinin qanına susamış, Xocalı qətliamının səhərisi günü əsir balalarımızın meyitlərindən salınmış körpüdən adlaya-adlaya özünü dünyanın xoşbəxt yazarı hesab edən erməni faşisti, üzdəniraq şair Zori Balayanın “Ya bez tebya, kak parus bez vetrov” kitabından sətirlərə diqqət yetirdim: “Plıvyot, podprıqivaya na krutıx okeanskix volnax, malenkoye sudyonişko, udivlyaya, pojaluy, razve, çto stai delfinov, kotorıye, navernoye, s interesom smotryat na vıvedennıye oboix bortax uzorçatıye bukvı armyanskoqo alfavita, na svetuşiy krest, na kruq s soqnutımi luçami vnutri, simvoliziruyuşiy samu veçnost”. Qəzetin o biri səhifəsində isə tanınmış xalq yazıçımıza həsr olunmuş “Solo Rustama İbraqimbekova” məqaləsi verilib. Hər dəfə göstərilən qəzetdə şovinist və millətçi Zori Balayana ünvanlanmış yersiz təriflərə və müəllifin öz yazılarına rast gələndə istər-istəməz əsəbiləşirdim, bu dəfə də əsəbi-əsəbi səhifəni çevirəndə Rüstəm İbrahimbəyov adı və soyadını görüb biz az sakitləşdim. Lakin xalq yazıçımızla bağlı yazıda Azərbaycana aid hansısa cümlə, fakt, söz və fikrə rast gəlməyəndə kədərləndim ki, təhsilimizin və ədəbiyyatımızın yetişdirdiyi bu boyda yazıçı haqqında məqalədə milli-mədəni kimliyin izi-tozu da hiss olunmur. Erməni yazarı əlinə xırda fürsət düşən yerdə öz milli mənsubluğunu, xalqının və ölkəsinin özünəməxsusluğunu vurğulamağı vərdişə çevirir və elə bu bacarıqla da dünya mədəniyyəti tarixində qalacağını anlayır, bizsə



ümumbəşəri ideyaları, kosmopolit düşüncəni əlimizdə bayraq edib, zaman-zaman torpaqlarımızın əlimizdən getməsi barədə belə az-az düşünürük...

Həmişə fəxrlə qeyd etmişik ki, bizim güclü rusdilli ədəbiyyatımız var, rus dilində təhsil verən yüzlərlə məktəbimiz mövcuddur. Bu və digər əcnəbi dillərdə təhsil alan soydaşlarımız sözümüzü və həqiqətlərimizi dünyanın hər yerində çatdıra bilmək iqtidarındadırlar. Onilliklər boyu övladlarımızın əcnəbi dillərdə təhsilini dəstəkləmişik ki, sözümüzü dünyanın ən mötəbər kürsülərindən səsləndirə bilək. Elə buradaca daha bir sual fikrimizə hakim kəsilir: görəsən, hazırda ana dili ilə yanaşı digər əcnəbi dillərdə təhsil verdiyimiz gənc azərbaycanlılar nəslini Vətənə sevgi, milli-mənəvi dəyərlərimizə, tariximizə ehtiram duyğusu ilə tərbiyə edib, onları Azərbaycana xidmətə yönəldə biləcəyikmi? Axı milli kimlik, milli-ideoloji platforma konseptini biz düşünməmişik. Bu platforma Avropada, Fransada formalaşıb, onun özülündə duran dəyərlərdən birincisi isə dövlət dili amilidir. Yenicə qəbul edilmiş “Ümumi təhsil haqqında” Qanuna görə, bölmədən asılı olmayaraq, istənilən halda dövlət dilində tədrisin üstünlük təşkil etməsi barədə bəndin tələbini bu cəhətdən olduqca önəmli hal hesab edir və təcili qaydada bu istiqamətlə tədris planları və standartlarının təqdim olunmasını vacib sayırıq.

**Həmişə fəxrlə qeyd etmişik ki, bizim güclü rusdilli ədəbiyyatımız var, rus dilində təhsil verən yüzlərlə məktəbimiz mövcuddur. Bu və digər əcnəbi dillərdə təhsil alan soydaşlarımız sözümüzü və həqiqətlərimizi dünyanın hər yerində çatdıra bilmək iqtidarındadırlar. Onilliklər boyu övladlarımızın əcnəbi dillərdə təhsilini dəstəkləmişik ki, sözümüzü dünyanın ən mötəbər kürsülərindən səsləndirə bilək.**

Biz təhsil, xüsusən də kurikulum islahatlarının tətbiqi barədə əvvəlki məqalələrdə dəfələrlə rəy söyləmişik, müəllim nəsillərinin dəyişməsi probleminə toxunmuşuq, burada inqilabi dəyişikliklərin fayda verməyəcəyini söyləmişik. Bu gün də öz narahatçılığımızı ifadə etməyə bilmirik. Zehnlərin, şüurun və yanaşmanın dəyişməsi zamanın işidir. Bu, nə fabrik-zavoddur, nə də üzüm və çay plantasiyalarıdır ki, onu bir göz qırpımında ləğv edib, sonra yenidən salasan... Ulu öndərin sərəncamları ilə 1998-ci ildən təhsil islahatlarına başladıq, əsas ideya müxtəlif deviz və çağırışlarla milli təhsilimizin təxminən bir əsrdə, əsasən də son 70 ildə əldə etdiyi təcrübə və nailiyyətləri qoruyub, yenilikləri onların üzərində tətbiq etməyi bacarmaq, keçid dövrünü ciddi itkilərsiz aşmaq idi. Lakin 2008-ci ildən başladığımız kurikulum islahatını və yeni qiymətləndirmə konsepsiyasını əvvəlki planlarımızla uzlaşdıra bilmədik, xarici təcrübəni və sənədlər toplusunu mexaniki şəkildə mənimsəməyə üstünlük verdik...

Gəlin boynumuza alaq ki, çox vaxt biz problemlərin müzakirəsindən qaçırıq. Bu isə təhsilin inkişafı naminə qəbul edilmiş bəzi dövlət proqramlarının yarımçıq icrasına və ya həyata keçirilməsinə səbəb olan amillərin gündəmə gəlməsnə yol açmır. Bu məsələlərdən biri üzərində xüsusi dayanmaq istərdik. Əslində məqalənin yazılmasına əsas səbəb də bu məsələ ətrafında düşüncələrimiz oldu. “Azərbaycan müəllimi” qəzetinin 22 fevral 2019-cu il tarixli sayında “Rusiyada yeni məktəblər yaradılır” sərlövhəli yazı və “Dərsləri alimlər keçəcək” yarımbaşlığı köhnə dərdimizi təzələdi. Burada ən yaxşı ümumtəhsil müəssisələrinin bazasında yaradılacaq məktəblərin elmi institutların himayəsinə verilməsindən, seçiləcək 700 məktəbin bu layihəyə cəlbi üçün təşkilati, tabeçilik və maliyyə təminatı məsələlərinin həlli, hüquqi-normativ aktların yaradılması istiqamətində Maarif Nazirliyinin, Elmlər Akademiyasının və bələdiyyələrin birgə fəaliyyətindən bəhs edilir. İstər-istəməz Azərbaycanda bu sahədə görülən işlərə nəzər saldıq: 1996-cı ildə 4 ali təhsil müəssisəsinin nəzdində yeni tipli orta təhsil müəssisəsi adı altında yaradılan məktəblər; istedadlı və qabiliyyətli uşaqlarla işin səmərəli təşkili məqsədilə Prezident İlham Əliyevin sərəncamı ilə 2006-cı ildə qəbul edilmiş Dövlət proqramı və bu proqrama uyğun müvafiq elmi-pedaqoji potensiala və maddi-texniki bazaya malik olan universitetlərin nəzdində liseylərin yaradılması; 2013-cü ildə baş tutmuş Azərbaycan müəllimlərinin XIV qurultayının qəbul etdiyi qərarda növbəti dövrlər üçün AMEA və Təhsil Nazirliyinin birgə fəaliyyətinin vurğulanması; “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na pedaqoji internaturaların yaradılması məsələsinin daxil edilməsi və s. Elə bu yaxınlarda Bakı şəhər 6 nömrəli orta məktəb-liseydə “Ümumi təhsil: mövcud vəziyyət və hədəflər” mövzusunda keçirilən müşavirədə təhsil naziri Ceyhun Bayramov tərəfindən təhsili idarəetmə orqanları ilə pedaqoji profilli universitetlərin əməkdaşlığının vacib olduğunun vurğulanması yaxın zamanlarda bu planda ciddi layihələrin icrasını vəd edir.

AMEA strukturlarının, eləcə də Təhsil Nazirliyi sisteminə daxil olan elmi, elmi-metodiki institut və mərkəzlərin fəaliyyətinin optimallaşdırılması, onların bazar iqtisadiyyatının tələblərinə və ən müasir dünya elminin çağırışlarına uyğun təşkili, elmi potensialın təhsilə yönəldilməsi üçün: 1)“Strategiya”ya uyğun olaraq, pedaqoji ixtisaslar üzrə mütəxəssis hazırlığı aparan universitetlər müvafiq fakültə və kafedraların potensialı hesabına orta məktəblərdə pedaqoji internatura (və ya metodika və pedaqogika kafedralarının filiallarını), digər ixtisaslar üzrə buraxılış kurs tələbələrini istehsalat təcrübəsinə göndərən ali məktəblər isə profilinə uyğun gələn sənaye, istehsalat, kənd təsərrüfatı və s. müəssisələrdə, texnoparklarda öz tədris-təcrübə strukturlarının formalaşdırılması barədə təkliflərlə hökumət qarşısında məsələ qaldırmalıdırlar. Tələbə bakalavriatın tam bir semestrini istehsalatda keçirir, buna görə 21 kredit toplayır və əmək bazarına daxil olmaq şansı qazanırsa, hər bir ali məktəb üçün bu işin təşkili olduqca vacibdir; 2)Prezidentin 2006-cı il sərəncamına uyğun olaraq, elmi-pedaqoji və maddi-texniki potensiala, müasir universitet modeli konsepsiyasına, fasiləsiz təhsil proqramlarının icrası niyyətinə malik universitetlərin nəzdində onların təmayülünə uyğun orta ümumtəhsil müəssisələrinin yaradılması və ya mövcud məktəblərin baza müəssisəsi statusunda universitetlərə inteqrasiya olunmasının zamanı yetişib. Bakı, Sumqayıt, Gəncə və sair mərkəzi şəhərlərimizdəki məktəblərdə şagird sıxlığını, buradakı universitetlərin potensialını, eyni zamanda, yenicə qəbul edilmiş “Ümumi təhsil haqqında” Qanunun məktəblərə peşə hazırlığı istiqamətində açdığı imkanları nəzərə alsaq, bu, müsbət nəticələr verə biləcək layihədir; 3)AMEA institutlarının elmi potensialına və apardıqları elmi tədqiqatların istiqamətinə uyğun olaraq, onların Təhsil Nazirliyi nəzdindəki müvafiq lisey və gimnaziyalarla, digər ümumtəhsil müəssisələri ilə müştərək fəaliyyətinə şərait yaradılmalıdır. Bunun üçün məktəblilərin AMEA institutlarının bazasında fənn olimpiadalarının respublika və beynəlxalq turlarına, Təhsil Nazirliyinin “Sabahın alimləri”, “Ədəbiyyat biliciləri” və bu səpgidə digər layihələrə hazırlığının təşkili mexanizmlərinin yaradılması, maliyyə-iqtisadi şərtlərinin işlənilməsi, qanunvericilik bazasının formalaşdırılması vacibdir; 4)AMEA nəzdində ali təhsilin magistratura və doktorantura səviyyələrində tədris bu mühüm və yeniləşən strukturda elmi kadrların hazırlanması üçün olduqca əhəmiyyətli görünür, eyni zamanda, ayrı-ayrı elmi institutların hamiçiliyi ilə liseylərin yaradılması məqsədəuyğundur; 5)“Ümumi təhsil haqqında” Qanunun məktəb iqtisadiyyatı üçün yeni şərait yaradacağını əsas götürsək, tədris planlarında maraq kurslarının, eləcə də əlavə təhsil xidmətlərinin təşkilinə yol açılır ki, bu da məktəb rəhbərlərinə məktəbin öz vəsaiti hesabına ayrı-ayrı alimlərin mühazirələrinin, kurslarının, emalatxanalarının, xüsusi siniflərinin, studiyalarının və s. yaradılmasına, onların müqavilə əsasında elmi rəhbər kimi cəlb olunmasına, Uşaq akademiyalarının, Şagird elmi cəmiyyətlərinin fəaliyyətinin səmərəli şəkildə qurulmasına imkan verəcək.

Bütün bu təklifləri əsaslandıran digər cəhətləri də nəzərdən qaçırmayaq: 1)son illər müəllimlərin işə qəbulu xətti ilə məktəblərə gələn gənclər burada ümumi ab-havaya müsbət təsir göstərsələr də, onların bu ab-havanı köklü şəkildə dəyişməyə gücü yetərli deyil, bunu onlardan gözləmək belə yersizdır. Halbuki məktəb mühitinin saflaşdırılmasına, ziyalılığın, intellektuallığın, yeni yanaşma və texnologiyaların bura məharətlə və tədricən gətirilməsinə daim ehtiyac duyulur; 2)müəllim peşəsi regionların əmək bazarında rəqabətədözümlülüyü ilə seçildiyi halda, xüsusilə Bakı şəhərində universitetləri bitirən gənc istedadlı və potensiallı müəllimlərə təklif olunan digər seçimlər onları pedaqoji fəaliyyətdən yayındırır. Bu isə məktəblərdəki pedaqoji heyətin təzələnməsi prosesini ləngidir. Bu boşluğun ölkənin elmi potensialının - məktəb işinə, pedaqoji-psixoloji fəaliyyətə marağı olan ziyalıların səmərəli istifadəsi yolu ilə doldurulması da zamanın tələbidir. Boynumuza alsaq ki, uzun illər ərzində kimi gəldi məktəbə müəllim qəbul edib, xüsusilə də ibtidai təhsil pilləsində təsadüfi şəxslərə ixtisasdəyişmə yolu ilə müəllim diplomu verib, sinfə buraxmışıq və bu insanların qeyri-professionallığı və anti-pedaqoji təbiəti üzündən neçə-neçə nəslin təhsilə marağını öldürmüşük, onda bu tipli tədbirlərin vacibliyini də hamı anlayar, ictimaiyyət Təhsil Nazirliyinin müəllimlərin sertifikatlaşdırılması təklifinə də anlaşıqlı münasibət göstərər; 3)unutmaq lazım deyil ki, yaradıcı fəaliyyətə, kreativ düşüncəyə, innovativ yanaşmaya malik insanları biz, ilk növbədə, təhsilə xidmətdə, cəmiyyət arasında müəllim və tərbiyəçi qismində görməliyik. Təəssüf ki, bu cür adamları biznes strukturları, xarici şirkətlər onlara verilən əməkhaqqı səviyyəsinin azlığı üzündən asanlıqla ələ keçirirlər.

Təhsil sahəsindən “beyin axını”nın qarşısının alınmasını, istedadlı gənc mütəxəssislərin məhz təhsil xidməti sahələrinə yönəldilməsini, ölkədəki elmi potensialın artan əhalimizin tədris-təlim ehtiyaclarına istiqamətləndirilməsini milli təhlükəsizliyimizin təmin olunmasında əsas vəzifələrdən biri kimi qiymətləndiririk.

“Məktəb illəri”

# Get, sən Bakıya qayıdacaqsan...

## Ümummilli lider Heydər Əliyevin uğur dilədiyi gəncin məktəb direktorluğuna doğru yolu

Jalə MÜTƏLLİMOVA






Elə bir həftədəyik ki, müəllimlər, direktorlar yenə də gündəmdir. Yenə dinləmədən yarğılamalarla üzüzədir bütöv bir sistem. Dəhşətlisi odur ki, “bir pis varsa, sistemdəki hər kəs pisdir” iddiası ortadadır. Düzü, bəzən axına düşüb gedir adam. Deyirsən yəqin artıq hər yer qara rəngdədir. Ağ gördüyüm də qaradır yəqin, sadəcə, gözlərimə ağ gəlib, görmürəm... Yəni durumun bu qədər qarışıq olduğu yerdə bir işıqlı üz, ağ sima həm də sənə səslənir, danışır. Anlayırsan ki, gözlərin qapalı deyil, görürsən, duyursan, eşidirsən. Hələ işıqlı adamları tükənməyib dünyanın və məmləkətin.

Bu gün sizə təqdim etdiyimiz sima təhsil sisteminin işıqlı adamlarından biridir. “Məktəb illəri”ndəki həmsöhbətimiz Binəqədi rayon 313 nömrəli məktəbin direktoru, Respublikanın qabaqcıl təhsil işçisi Zakir Bayramovdur.

- Məktəbimiz 2007-ci ildə tikilib. Həmin ildən mən burada rəhbərlik edirəm. Amma ona qədər olandan başla desəniz, 1954-cü il təvəllüdlüyəm, Salyanın Kürsəngi kəndində fəhlə ailəsində doğulmuşam. Kəndimizin məktəbi səkkiz illik idi. 1961-ci ildə birinci sinfə getmişəm. Mənə dərs deyən müəllimlərin hamısı bu gün də yadımdadır. Onların bizə qayğısı, diqqəti, sevgisi bir başqa idi. İbtidai sinif müəllimimiz Hüseynbala müəllim idi. İndi həyatda deyil. Amma çox işıqlı adam idi. Əlimdən tutub yazdırdığı ilk söz “ana” idi.

### Atan gələndə deyəcəm...

Səkkizinci sinfi bitirəndə bir çoxları davam etmək istəmirdilər. Amma bizim ailədə dedilər, yox, bitirmək lazımdır. Kəndimizdən yuxarıda Yuxarı Xalac kəndinin çox güclü məktəbi var idi. Valideynlərim məsləhət gördü ki, orda təhsilimi davam etdirim. Onlar daha çox və daha yaxşı oxumağı tələb edirdilər. Mən deyə bilmərəm hansının üzərimizdə diqqəti az olub, hansının çox, ikisi də eyni qədər bizimlə maraqlanırdı. Diqqətdən kənarda qalmağımıza imkan vermirdilər. Ümumiyyətlə, elə bil zəmanə o cür idi. Valideynlərin özlərinin ali təhsili olmasa da, uşaqlarına təhsil verməkdə maraqlı idilər. Bütün həyatlarını az qala buna sərf edirdilər.

Məndən də hamıdan tələb olunanları istəyirdilər. Oxumalıydım, özü də yaxşı oxumalıydım, başqa yolum yox idi. Amma dəcəl idim, o birilərdən çox dəcəl. Ən qorxduğum hədə isə anamın “atan gələndə deyəcəm” sözü idi. Anam o sözü dedimi, axan sular dururdu mənim gözümdə. Atam zəhimli kişi idi. Bizi döyməyi olmazdı. Amma anam şikayət edirdisə, sözünü bitirənə qədər diqqətlə üzümüzə baxardı atam, sonra da üzünü çevirib gedərdi. Onun bu jesti bizə bəs idi. Bəlkə ən pis sözdən də ağır idi o baxışlar. Sonra uzun müddət ona yaxınlaşıb nəsə deməyə, yanında danışmağa qorxardıq. Özümüzü yığışdırırdıq. Ailənin təsərrüfat işləri ilə məşğul olmağımızı görəndə atamın xoşuna gəlirdi. Mən də onun gözündə ucalmaq, həm də anama kömək eləmək üçün o işləri ürəkdən görürdüm. Kitabımı da əlimdən yerə qoymurdum. Amma ortancıl qardaşımı keçə bilmirdim. Aramızda ən əla oxuyan o idi. Kimin dərslə bağlı nə problemi olardısa, ona yaxınlaşırdı. Düzünü deyim, bəzən sui-istifadələrim də olurdu. Özüm əziyyət çəkməyim deyə, qardaşımdan dəstək alırdım. Bilmirəm, o, bunu başa düşürdü, ya yox, amma heç zaman kömək etməkdən imtina etmirdi. Hətta başa düşürdüsə belə, yəqin ki, mənim sonbeşikliyimə, dəcəlliyimə görə üzümə vurmurdu. Nə də olsa, uşaq idik, min oyunumuz vardı...

**Direktor kimi fəaliyyətdə olduğum vaxtdan bəri atamın tövsiyələrinə əməl eləməyə çalışıram. Səmimi deyirəm, əməl etdiklərim sırasında hələ uduzduğum olmayıb. Bəlkə elə qazandığımız uğurlarda da o qaydaların böyük rolu olub. Bu tədris ilinin başlanğıcında məktəbimizdən üç müəllim təltif edilib.**

### Çıxdı buz üstə qoçaq...

Bir məktəb yoldaşım var idi, Hüseyn adlı. Məktəbə həmişə bir gedib gələrdik. Qış aylarında ikimizin də ən sevdiyi bir iş var idi. Yollardakı üstü buz bağlayan xırda gölməçələrin üzərindən sürüşərdik. Bunu hər dəfə etmək üçün evdən bir az tez çıxırdıq ki, “qış oyunumuz” dərsə gecikməklə nəticələnməsin. Çünki bilərdilər və bizi danlayardılar. Nə isə... bir gün oynayanda buzu qırdıq. İkimiz də suyun içinə düşdük. Təsəvvür edin, səhər tezdən iki azyaşlı uşaq buzlu suya yıxılıb, paltarlar suyun içindədir. İkimiz də eyni vaxtda qayıtdıq ki, yox, evə dönmək olmaz, məktəbə... Çünki qızıl qayda var idi ailələrdə o zaman, nə olur olsun, dərsdən qalmaq olmaz, dərs buraxmaq olmaz. Beləcə, suyumuz süzülə-süzülə məktəbə gedəsi olduq. Müəllim sinfə girən kimi uşaqlar dedilər ki, Zakirlə Hüseyn suya düşüb. Müəllim bizi ayağa qaldırdı, vəziyyətlə tanış oldu və direktorun yanına apardı. Direktordan qorxurduq, zəhimli idi, amma humanist adam olduğunu da hamımız bilirdik. Tez evə getməyimizin məsləhət olduğunu bildi.

### Müəllim elə insandır ki...

Mənim aləmimdə müəllim elə insandır ki, onun sayəsində gələcək qazanırsan. İndi yaşın o dönəmindəyəm, müəllimlərimin xeylisi həyatda yoxdur. Amma həyatda olanda özlərini, dünyasını dəyişəndən sonra da gedib məzarlarını ziyarət elədiklərim olub. Elə indi də həyatda olanlara baş çəkirəm. İsmayıl və Sərəfraz müəllim həyatdadır. Onların dünyasını dəyişəninə də, həyatda olanına da mən həmişə minnətdaram. Bilirsiniz, insan ədalətini və vicdanını itirməyə gərək. Bu gün mən kiməmsə, nə qazanmışamsa, məhz onlardan öyrəndiklərim sayəsindədir.

Həmişə atamın bir sözü yadımdadır. Təhsil almaq hələ adam olmaq deyil. Misallar da göstərirdi mənə, deyirdi bax, o filankəsdən savadlısı yoxdur, amma adam deyil. Ya da həyat elə gətirib ki, təhsil ala bilməyi deyə, birini göstərirdi. Deyirdim axı ola bilməz, hamı onu sayır. Deyirdi hə, bala, o İNSANdır, yaxşı insan olduğuna görə hamının hörmətini qazanıb. İnsanlar onu sayır, sevir... Deyirdi, adam olmağı həyatda yaşayıb öyrənmək lazımdır. Bu, mənim qulağımda yaxşı bir sırğa kimi asılıb. Yaxşı adam olmaq üçün çalışmışam. Yəni yaxşı adam nə etməlidirsə, ona etmişəm, indi nə qədər alınıb bilmirəm.

### Üç mükafatçı

Direktor kimi fəaliyyətdə olduğum vaxtdan bəri atamın tövsiyələrinə əməl eləməyə çalışıram. Səmimi deyirəm, əməl etdiklərim sırasında hələ uduzduğum olmayıb. Bəlkə elə qazandığımız uğurlarda da o qaydaların böyük rolu olub. Bu tədris ilinin başlanğıcında məktəbimizdən üç müəllim təltif edilib. Yeri gəlmişkən, dövlətimizə və cənab Prezident İlham Əliyevə bu etimad üçün minnətdaram.

### Kişi müəllimlər

Bir məqama xüsusi toxunmaq istəyirəm. İbtidai sinfə gələn uşaqlara elə qadın müəllimlər dərs desə yaxşıdır. Çünki ilk müəllim təkcə təhsil vermir, həm də uşağa qarşı daha çox həssas olmalıdır. Uşağın gördüyü ilk ictimai adamdır ibtidai sinif müəllimi. Mən arzulayardım ki, ibtidai metodistlərimizin çoxu elə qadınlar olsun. Ancaq yuxarı siniflərdə kişi müəllimlərim çoxluğuna tərəfdaram. Doğrudur, anlaşılandır ki, əməkhaqları o qədər böyük məbləğdə deyil ki, ailə başçısı olan kişi müəllimlər bir iş yeri ilə kifayətlənsinlər. Bəlkə də bu üzdən müxtəlif fənlərin tədrisində də qadın müəllimlər çoxluq təşkil edir. Amma düşünürəm kişi müəllimlərin artmasına ehtiyac da var. Çünki biz məktəblərdə təkcə qızlar oxudub, böyüdüb, yetişdirmirik. Həm də xarakterli oğlanlarımız olsun istəyirik. Xarakterli oğlanların formalaşmasında isə kişi müəllimlərin böyük təsiri olur. Bütün problemlərə baxmayaraq, mən gənc nəsil həmkarlara deyirəm ki, gəlin, qorxmaq, narahat olmağa dəyməz, gəlin, müəllim olun oğlanlar, müəllimlik müqəddəs peşədir.

### Kimsəyə demədiyim xatirə

Ali təhsilimi bitirmişdim. O vaxt təyinatların çoxunu rayon kəndlərinə verirdilər. Şəhər də elə bir yer idi ki, hətta rayondan gələnlər də geri getmək istəmirdilər. Təyinat müddətində şəhərdə müxtəlif iş tapıb işləyirdilər. Mən getdim. Pedaqoji İnstitutu bitirib qardaşımgildə bir az gözlədim. Təyinatımın verilməsini və diplomumu gözləyirdim. Könüllü almışdım təyinatımı. Kənd müəllimi kimi işləmək maraqlı idi. Sabirabad rayonuna təyinat aldım. Demişdim Moranlı, Həşimxanlı kimi uzaq kəndlərə də təyin etsələr gedəcəm. Bir yay axşamı idi. Alatavada yaşayırdıq. Mikrorayona gedən yolda köhnə bazar vardı. Gördüm məndən altı-yeddi metr qabaqda bir qara maşın saxladı. Qapısı açıldı, maşından Heydər Əliyev düşdü. Mən onu o vaxta qədər ekrandan görmüşdüm. Gözlərimə inana bilmədim ki, efirdə gördüyüm adam təsadüfən qarşımdadır. Bir dəqiqə içində adamlar onu dairəyə aldılar. Adamlarla söhbət edirdi, mən də heyrətlə baxırdım. Bazar, bazar qiymətləri, adamların dolanışığı ilə maraqlandı. Elə bil məni sezdi. Adamların arasından əlini mənə tərəf yönəltdi və sual verdi ki, sən tələbəsənmi? Dedim bu il bitirmişəm, qardaşımgildə təyinatımı və diplomumu gözləyirəm. Hara təyinat aldığımı soruşdu. Dedim rayona gedəcəm. Güldü, soruşdu ki, bu, özününmü arzundur? Dedim bəli, ucqar bir kənd məktəbində müəllim olmaq istəyirəm. Bir neçə ildən sonra qayıdıb yenə təhsilimi davam etdirmək arzumu da bildirdim. “Oğul, yaxşı fikirdi, get, indi cavanların hamısı butkalarda su satır, amma ən düzgünün sən seçmisən. Get, sən qayıdacaqsan da...”. Mənə ilk xeyirduanı Heydər Əliyev verdi. Mən o günü heç zaman da unutmuram.

Sabirabadın Qaratuğay kəndində 7 il kimya və biologiya fənlərindən dərs dedim. Sonra 1982-ci ildə kəndimizə qayıtdım, ata-anama baxmaq lazım idi. Ailəli idim. Atamgilin evinin yaxınlığında özümə ev tikdim. 1975-ci ildə Bakıya gəldim. Beş il də AMEA-nın Kibernetika İnstitutunda işlədim. Gördüm burda çalışmağın sonu yoxdur. Xətai rayonundakı məktəblərdən birində dərs hissə müdiri kimi fəaliyyətə başladım. 2007-ci ildən isə artıq Binəqədi rayonundakı 313 nömrəli məktəbdə direktor kimi çalışıram.

### On iki günə on yeddi sinif

Məktəbə müəllimləri özüm toplamalı oldum. Təsəvvür edin, əmrimi verib təyin ediblər, bir məktəbdir, bir mənəm, başqa kimsə yoxdur. Sentyabrın 3-də mənə bildiriblər ki, 15-nə məktəb dərs ilinə tam hazır olmalıdır. Məktəbi yığmaq üçün təxminən on iki günüm var. Bacarmayacağımdan narahat olurdum. Bir katib götürdüm ştatla işə. Onunla başladım həm şagird qəbuluna, həm də müəllim seçiminə. 337 şagird üçün müraciət olundu. Bunun ardınca test sualları hazırlatdım ki, işə götürmək üçün müsabiqə keçirim. Çox sürətli müəllim və şagird axını var idi, ədalətli olmaq şərt idi. Bütün fənlər üzrə iki-üç müəllim işə götürdüm. Dərs ilinin başlanğıcına, yəni, on iki günə on yeddi siniflə fəaliyyətə başladıq...

...İndi yüz müəllim, iki mindən çox şagirdlə yola davam edirik. Artıq bir neçə ildir respublika üzrə yaxşı məktəblər siyahısına düşə bilmişik.

### Mühit həmişə vacibdir

Düşdüyüm mühit elə idi ki, oxumaqdan başqa yolum yox idi. Qardaşımla bir evdə qalırdıq. Bizi valideynlər işləməyə qoymurdu. Özləri bacardıqları qədər dəstək olurdular ki, fikrimiz ancaq dərsdə, oxumaqda olsun. Üstəlik, təqaüdlərimiz vardı və qardaşım yaxşı tələbə olduğu üçün əlavə təqaüd də alırdı. Bu, bizə yetirdi. Bir də istər-istəməz böyük qardaşımla bir evdə qaldığımız üçün onun çevrəsinin təsirindən kənarda ola bilmirdim. Qardaşım daxil hamısı oxuyan uşaqlar idi. Onların yanında olub oxumamaq, ya da aşağı qiymət almaq mümkün deyildi. İndi onların xeylisi ən müxtəlif vəzifələrdə çalışır. O zamansa oxumayan adama birtəhər baxırdılar, yaxınlarına buraxmazdılar. Necə yəni oxumuram? O üzdən qiymətlərim həmişə yaxşı olub. Yəni ərköyün tələbə, oxumayan uşaq olmamışam. Şagirdin, tələbənin düşdüyü mühiti də həmişə vacib saymışam. İndi də mühit vacib məsələdir. Çalışdığım müəssisədə bunu həmişə nəzərə alıram. Şagirdlərimiz üçün münbit mühit olmalıdır ki, onlar yaxşını aydın seçə bilsinlər.

### Müəllimin arzusu

Heç yadımdan çıxmaz, bizə ilk dəfə atom kimyasından mühazirə oxunurdu. Mardaxayev soyadlı, milliyyətcə yəhudi müəllimimiz var idi. Mühazirənin ortasında dayanıb auditoriyaya diqqətlə baxdı və dedi ki, hamınız gəncsiniz, diqqətlə sizə baxanda adama elə gəlir, qarşısında coşqun çay var. Arzu edirəm ki, bu coşqunluq, enerji sizi həmişə yaxşıya sarı aparsın, uşaqlar. Sizin üçün indinin ən yaxşısı, əla təhsil almağa çalışmaqdır. Sonra həyatınızda heç zaman belə fürsətiniz olmayacaq, onda da “kaş ki” deyəcəksiniz...

**SON:** *Zakir müəllim niyə bu fikirləri söhbətin sonunda səsləndirdi? Belə sonluq nəyə lazım idi axı? Anlamaq çətin deyil. Əminəm ki, bu, şagirdlərini “kaş ki”lərdən qorumaq arsuzudur. Daha yaxşı təhsilə, daha yaxşı nəticələrə can atmaları üçün bir çağırışdır. O dedi, mən qələmə aldım, qəzetimiz diqqətinizə çatdırdı bu arzunu. Yenə də son seçim uşaqlarda, şagirdlərdədir. Kaş Zakir müəllim kimi təcrübəli müəllimlərdən bəhrələnməyi lazım biləlmajor. Sonra həyatda “kaş ki” deməmək üçün...*

# “Şahin” hərbi-idman oyununun rayon birinciliyinin qalibləri



Ümumi təhsil məktəblərinin VIII-X sinif şagirdləri arasında keçirilən “Şahin” hərbi-idman oyununun paytaxt üzrə rayon birinciliyinin qalibləri bəlli olub.

Belə ki, paytaxtın Binəqədi rayonu üzrə 100, Xəzər rayonu üzrə 26, Sabunçu rayonu üzrə 148, Qaradağ rayonu üzrə 195, Nizami rayonu üzrə 328, Nərimanov rayonu üzrə 178, Yasamal rayonu üzrə 20, Xətai rayonu üzrə 221 nömrəli tam orta məktəblərin, Səbail rayonu üzrə 160 nömrəli Klassik Gimnaziya, Nəsimi rayonu üzrə “Atatürk” liseyi, Suraxanı rayonu üzrə isə Səttar Bəhlulzadə adına Xarici Dillər Təmayüllü Gimnaziyanın komandaları qalib olub.

Rayon birinciliyinin qalib komandaları diplom, Fəxri fərman və kubokla təltif olunublar.

Qaliblər aprelin 27-də Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində keçiriləcək Bakı şəhəri üzrə zona birinciliyində iştirak etmək hüququ qazanıblar.

“Şahin” hərbi-idman oyununun keçirilməsində əsas məqsəd yeniyetmə və gənclərin hərbi vətənpərvərlik, milli ruhda tərbiyəsi işini daha da gücləndirmək, məktəblilərin hərbi hazırlıq səviyyəsini yüksəltmək, Gənclərin çağırışaqədərki hazırlığı (GÇH) fənninin tədrisini təkmilləşdirməkdən ibarətdir.

Qeyd edək ki, “Şahin” hərbi-idman oyunu Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Mədəniyyət Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Veteranlar Şurasının birgə qərarı ilə təşkil edilir.

# Gənclər elmi fəaliyyətə cəlb edilir

## ADPU-da magistrantların II Respublika elmi konfransı





Aprelin 18-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) "Yeni texnologiyalar və tədris prosesinin idarə olunması" mövzusunda magistrantların II Respublika elmi konfransı keçirilib. Konfrans Prezident İlham Əliyevin 2018-ci il 9 aprel tarixli sərəncamına əsasən təsis edilmiş "Elm günü"nə həsr olunub.

Konfransı ADPU-nun rektoru, professor Cəfər Cəfərov giriş sözü ilə açaraq Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında böyük keyfiyyət dəyişikliklərinin baş verməsindən, təhsil sahəsinin sürətli inkişaf yoluna qədəm qoymasından danışıb. Dahi şəxsiyyət Heydər Əliyevin "Təhsil millətin gələcəyi, müstəqil dövlətin təməlidir" fikrini xatırladan rektor müasir Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə təhsil sahəsinin qanunvericilik bazasının təkmilləşdirildiyini, normativ-hüquqi sənədlər hazırlandığını, maddi-texniki bazanın gücləndirildiyini, təhsilin keyfiyyətinin yüksəldiyini vurğulayıb. Qeyd edib ki, ulu öndər Heydər Əliyev yüksəkixtisaslı pedaqoji və elmi-pedaqoji kadrların hazırlanmasına xüsusi diqqət yetirirdi. Əbədiyaşar liderin "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" kəlamı fəaliyyətimizin leytmotivini təşkil edir.

Prezident İlham Əliyevin elm və təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərdiyini söyləyən professor Cəfər Cəfərov deyib: "Bu qayğı və diqqətdən ruhlanan ADPU elm və təhsilimizin inkişafına öz töhfələrini verir. Aparılan islahatlar, həyata keçirilən yeniliklər, layihələr ADPU-nun yeni inkişaf mərhələsinə daxil olmasına şərait yaradıb. 2021-ci ildə ADPU-nun yaradılmasının 100 ili tamam olacaq. Biz əldə edilmiş uğurlarla kifayətlənməməli, fəaliyyətimizi müasir dünyanın çağırışlarına uyğun qurmalıyıq. Bu baxımdan magistrantlarımızın üzərinə böyük məsuliyyət düşür. Onlar daim çalışmalı, bilik və bacarıqlarını artırmalı, rəqəmsal bilikləri, dünyanın aparıcı xarici dillərini dərindən öyrənməli, vətənpərvər olmalıdırlar. Hazırda ADPU-da 17 ixtisas, 18 ixtisaslaşma üzrə 707 magistr təhsil alır. Bugünkü konfransda Bakı Dövlət Universitetinin, Lənkəran Dövlət Universitetinin, Odlar Yurdu Universitetinin və digər ali təhsil müəssisələrinin magistrantları iştirak edirlər. Konfransa 503 magistrant məqalə təqdim edib. Ötən illə müqayisədə bu 2 dəfə çoxdur".

Rektor çıxışının sonunda konfransın işinə uğurlar arzulayıb.

ADPU-nun elm və innovasiyalar üzrə prorektoru, professor Asəf Zamanov çıxışında qeyd edib ki, müasir dünyamızda dövlətlərin gücü onların elmi səviyyəsi ilə müəyyən edilir. Ölkəmizdə "Elm günü"nün təsis edilməsi elmin inkişafı üçün stimul yaradır. Bildirilib ki, son illər ADPU-da elmi-tədqiqat işlərinin səviyyəsi yüksəlib, professor-müəllim heyətinin impakt faktorlu jurnallarda dərc edilən elmi məqalələrinin sayı artıb, alimlərimiz müxtəlif respublika və beynəlxalq miqyaslı elmi toplantılarda fəal iştirak edirlər. Universitetdə elmi fəaliyyətin biznes tərəfinə ciddi diqqət yetirilir. ADPU Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 5 qrant layihəsini qazanıb. Eyni zamanda, gənclərin elmi fəaliyyətə cəlb edilmələrinə xüsusi önəm verilir. Professor Asəf Zamanov qeyd edib ki, ötən illə müqayisədə builki konfransda həm kəmiyyət, həm də keyfiyyət baxımından dinamika müşahidə olunur. ADPU-da son 3 ildə dissertasiya işləri yüksək səviyyədə müdafiə edilir. Prorektor çıxışında ADPU-da keçirilən elmi tədbirlər barədə də geniş məlumat verib.

Odlar Yurdu Universitetinin rektoru, professor Əhməd Vəliyev, Bakı Dövlət Universitetinin elm və innovasiyalar üzrə prorektoru, AMEA-nın müxbir üzvü, professor Aydın Kazımzadə, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin elm və texnika işləri üzrə prorektoru, dosent Rauf Əliyarov tədbirin yüksək səviyyədə təşkilinə görə ADPU-nun rəhbərliyinə təşəkkür ediblər və konfransın işinə uğurlar arzulayıblar. Çıxışlarda qeyd edilib ki, ADPU ölkəmizin taleyində böyük rol oynayıb. Xalqın, millətin varlığı auditoriyalardan, müəllimlərdən başlayır. Bu mənada müəllim hazırlığı ilə məşğul olan ali təhsil müəssisələrinin üzərinə mühüm vəzifələr düşür. Gənclərimiz ənənəvi və yeni dəyərləri dərindən mənimsəməli, yüksək səviyyəli mütəxəssis kimi yetişməlidirlər.

Sonra magistrantlardan Abdulxaliq Məmmədli "Məktəb idarəçiliyində sistem liderliyi", Aysel Cəlallı "Riyaziyyat dərslərində əyləncəli və maraqlı çalışmalar vasitəsilə şagirdlərin idraki maraqlarının formalaşdırılması yolları" mövzularında çıxışlar ediblər.

Daha sonra konfrans öz işini 4 elmi bölmədə- innovasiyalar və təhsilin keyfiyyəti, təhsilin təşkili və idarə edilməsi, təhsildə sosial-psixoloji problemlər və tədrisin müasir problemləri bölmələrində davam etdirib.

İki gün davam edən tədbir aprelin 19-da başa çatıb. Konfransın yekun iclasında bölmə rəhbərlərinin hesabatları dinlənilib, müvafiq qərarlar qəbul edilib.

# "Araz şahiddir"

## Azərbaycan tarixi üçün vacib mənbə




**Şəhla ASLAN,**
*yazıçı-jurnalist*

*Tarixin müxtəlif dövrlərində olduğu kimi, 1918-1920-ci illərdə də Naxçıvan əhalisinə daşnak erməni quldur dəstələri hücumlar etmiş, amma məğlub olaraq fərar ediblər. 1999-cu ilin 4 fevralında, hələ o dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi haqqında verdiyi xüsusi fərmanında Naxçıvanın qədim və müasir tarixinin, mədəniyyətinin, onun qəhrəmanlıq ənənələrinin, böyük şəxsiyyətlərinin dərindən və ətraflı öyrənilməsini bir vəzifə olaraq qarşımıza qoyub. Bu fərman sayəsində vaxtilə sovet dövründə, kommunist rejimində yazılmasına və deyilməsinə imkan verilməyən, daim xalqdan gizli saxlanılan sənədlərin, tarixi hadisələrin və xatirələrin yazılıb geniş xalq kütləsinə çatdırılmasına əlverişli imkan yaranıb.*

Məlum bir həqiqətdir ki, "Böyük Ermənistan" yaratmaq ideyasını gerçəkləşdirmək üçün ermənilər 1918-1920-ci illərdə Azərbaycanın başqa bölgələrində olduğu kimi Naxçıvanda da türk-müsəlman əhalisini qırıb yox etmək cəhdi ilə qanlı cinayətlər törədib. Ermənilərin törətdiyi bu cinayətlər sovet dövründə ört-basdır edilsə də, lakin həmin cinayətləri öz gözləri ilə görənlər daşnakların bu əməllərini xalqımıza çatdırmağa nail olub.

Bu cinayətləri öz gözləri ilə görənlərdən biri də 1903-cü ildə Naxçıvanda doğulub, boya-başa çatan Lətif Hüseynzadədir. Lətif Hüseynzadə 1930-cu ildə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsindən məzun olduqdan sonra uzun illər İrəvanda, Naxçıvanda, Bakıda müəllimlik edib. "Əməkdar müəllim" adına qədər yüksələn L.Hüseynzadə Türkiyə-Azərbaycan dostluq əlaqələrinin möhkəmlənməsində də yaxından iştirak edib. O, türk ordusunun, Şərq cəbhə komandiri general Kazım Qarabəkir Paşanın qəhrəmanlıq şücaətlərinin təbliği sahəsində xidmətlərinə görə Türkiyənin "Türk Kara Küvvetleri Komutanlığı" ordeni ilə də təltif olunub. 106 illik mənalı həyat sürən Lətif müəllim tariximiz, ədəbiyyatımız, mədəniyyətimizə dair dəyərli kitablar, memuarlar, xatirələr yazıb.

Ulu öndərimiz Heydər Əliyev Lətif Hüseynzadənin elm, maarif və pedaqoji fəaliyyət sahəsində göstərdiyi xidmətlərini həmişə yüksək qiymətləndirib, onu "İstiqlal" ordeni ilə təltif edərək demişdir: "Lətif Hüseynzadə - özü bir tarixdir!"

Lətif Hüseynzadənin müəllifi olduğu "Araz şahiddir. Türk ordu generalı Kazım Qarabəkir Paşa Naxçıvanda" adlı kitabının təkrar nəşri (2018, ADPU nəşriyyatı. Elmi redaktoru və ön sözün müəllifi akademik İsmayıl Hacıyev, rəyçi akademik İsa Həbibbəyli və redaktor professor Rüfət Hüseynzadə) yenə də yaddaşımızı, keçmiş hadisələri bir daha bizə xatırlatdı. Lətif Hüseynzadə kitabında gözləri ilə gördüyü, şahidi olduğu o dövrün acısını, qanlı hadisələrini qələmə alıb. O həmçinin kitabında özünü Kazım Qarabəkir Paşanın əsgəri olması ilə fəxr edərək, onun qəhrəmanlıq şücaətlərini, Naxçıvanın taleyində oynadığı rolu əks etdirib.

Lətif Hüseynzadə öz xatirələrində yazmışdır: "1918-ci il mart ayının əvvəllərində Naxçıvan camaatı əziz Novruz bayramını şən keçirmək həvəsi ilə hazırlaşdıqları bir zamanda ermənilər şəhərin Şahab, Əlixanlı, Zaviyə məhəllələrini top atəşinə tutdular. Yaşadığımız Sarvanlar məhəlləsini və bu məhəlləyə yaxın Gomayi, Dizə, Xoşulu məhəllələrinə od vurub yandırdılar... Əgər türk ordusu, Kazım Qarabəkir Paşanın ordusu Naxçıvana köməyə gəlməsəydi bu vilayətdə bir nəfər türk-müsəlman qalmayacaqdı. Bütün bunlar mənim gözlərimin qarşısında olmuşdur".

Bu kitabda tarixi faktlar elə dəqiq və müfəssəl şərh edilib ki, hər bir tarixçi bu kitabdan faydalana bilər. Kazım Qarabəkir Paşa ilə Hüseyn Cavidin dostluğuna xüsusi yer ayıran müəllif kitabda yeri gəldikcə şeir, bədii parça nümunələrindən də məharətlə istifadə edib. Həmçinin kitabda döyüş səhnələri, hərbi strategiyalar və siyasi anlaşmalar yerli-yerində tam dəqiqliklə öz əksini tapıb. Lətif Hüseynzadənin hadisələri, döyüş meydanlarını öz gözləri ilə görməsi və iştirakçısı olması, həmçinin dahi şairimiz Hüseyn Cavidin şagirdi, Kazım Qarabəkir Paşanın əsgəri, xatirələrinin isə daha canlı və aydın, daha zəngin və məlumatlı olması kitabın maraqlı və oxunaqlı olmasına zəmin yaradıb. Bu cəhətdən kitabı oxuduqca sanki özünü bu hadisələrin içində hiss edirsən, hadisələrin iştirakçısına çevrilirsən. Elə bu səbəbdən də bu kitaba istinad edilərək profesoor Adil Babayev pyes, yazıçı-müəllim, pedaqoq, məktəb direktoru Səadət İskəndər "Qarsa gedən yol" adlı roman, yazıçı Güllü Məmmədova isə "Qarabəkir əfsanəsi" adlı sənədli roman yazıb.

Kitabda qeyd edilir ki, Azərbaycanda Demokratik Cümhuriyyət yarananda Kalbalı Xan Naxçıvanski Kəngərli Naxçıvanda yenicə yaradılmış "Milli komitə"nin təşkil etdiyi orduya baş komandan təyin olunur. Lətif müəllim bu ordunun yaradılmasını təfsilatı ilə dəqiq təsvir və hətta ordu quruculuğunda çeçen zabiti Böyük Xanın bu orduya top, silah-sursatla yardım etməsini nadir bir fakt kimi qeyd edir.

Ermənilərin daşnak erməni birləşmələrindən yardım alaraq Naxçıvanı daim narahat etdiyini qeyd edən Lətif Hüseynzadə göstərir ki, Naxçıvan ordusu onlara güc gələn kimi, ermənilər tez aman diləyir, təslim olurdular. Amma yenidən qüvvə toplayan ermənilər öz quldurluqlarından əl çəkmirdilər.

Kitabdan oxuyuruq ki, 1918-ci ilin iyun ayının əvvəllərində Andranik 15 minlik quldur dəstəsi ilə qəflətən Naxçıvan ərazisinə soxulmuşdu. Onlar ilk addımlarında 700 evlik Culfanın Yaycı kəndinin əhalisini qılınc, xəncər və süngü ilə qətl edərək Araz çayına tökmüşdülər. Araz bu qanlı cinayətlərə şahiddir.

Andranikin qoşunu Nehrəm kəndini mühasirəyə alıb kəndi top atəşinə tutmuşdusa da kəndə girə bilməmiş, amma kənd ətrafinda obalara hücum edərək oradakı qadın, uşaq və çobanları vəhşicəsinə öldürmüşdülər. Andranik Naxçıvanın türk-müsəlman əhalisini qırıb, şəhəri işğal etmək üçün ciddi hərəkətə keçmişdi. Əhali soyqırım qarşısında, vətən erməni işğalı təhlükəsində idi.

Bu zaman 1918-ci ilin iyul ayının 7-də şanlı Türk ordusu Naxçıvanı erməni işğalından xilas etmək üçün zəfər marşı ilə şəhərə daxil oldu. Naxçıvan əhalisi türk ordusunu böyük məhəbbətlə qarşıladı. Məlum olur ki, Mustafa Kamal Atatürk Naxçıvana xüsusi diqqət və qayğı göstərib və bu diyarı "Türk qapısı" adlandırıb. Kazım Qarabəkir Paşa isə Naxçıvanı "Şərq qapısı" adlandırıb. Naxçıvanda nəşr olunan dövlət qəzeti "Şərq qapısı" adı da məhz buradan götürülüb.

Əsərdə Kazım Qarabəkir Paşanın təşəbbüsü ilə "Naxçıvan Araz-türk cümhuriyyəti"nin təşkilindən və o zaman Naxçıvanda yaşayan böyük şairimiz Hüseyn Cavidlə Kazım Qarabəkir Paşa arasındakı dostluq əlaqələrindən, Naxçıvanın gələcək taleyi üçün bu dostluq əlaqələrinin böyük əhəmiyyətindən bəhs olunur. Burada bir sıra maraqlı faktlar, hadisələr verilib ki, bunlar tarixşünaslığımız, cavidşünaslıq və habelə Kazım Qarabəkir Paşanın həyat və döyüş fəaliyyətinin indiyə qədər bilinməyən cəhətlərini öyrənmək baxımından həm Türkiyə oxucusu, həm də Azərbaycan oxucusu üçün oduqca əhəmiyyətlidir.

Lətif Hüseynzadə kitabında Hüseyn Cavid barədə məlumat verərkən öz müəlliminə olan dərin hörmət və məhəbbətini səmimi sözlərlə təsvir edir. Kazım Qarabəkir Paşanın özü də Cavid Əfəndiyə ustad kimi yanaşmışdır. Əsərdən bəlli olur ki, Türkiyənin Naxçıvana ordu göndərməsində Kazım Qarabəkir Paşanın cani-dildən çarpışmasında hadisələrin bizim xeyrimizə istiqamətlənməsində Hüseyn Cavidin böyük rolu olub.

Türk ordusunun Naxçıvandan getməsi ərəfəsində Rüşdiyyə məktəbində Kazım Qarabəkir Paşa ilə vida görüşü keçirilib. Lətif Hüseynzadə xatirələrində qeyd edir ki, bu görüşdə Kazım Qarabəkir Paşa "Naxçıvan xatirələrini" nümayiş etdirərkən burada çəkdiyi rəsmləri göstərib və "Çocuklara öyüdlərim" adlı əsərinin bir əlyazma nüsxəsini Cavid əfəndiyə hədiyyə olaraq verib. Sonra üzərində Şərur, Naxçıvan, Culfa, Ordubad bölgələrində "Erməni məzalimi"-adlı yazdığı kitabın əlyazmasını göstərərək deyib: "Bən bu xatirələrimdə bu bölgələrdə ermənilərin fənalıqlarını, öldürdükləri insanların sayını, yakdıqları köylərin miqdarını toplayıb yazmışam. Bunu Türkiyədə çap etdirib bütün dünyaya yayacağam". Sonralar Cavid əfəndi 1921-ci ildə "Çocuklara öyüdlərim" əsərini Bakıda nəşr etdirdi.

Məktəbdə vida görüşündən sonra şəhər camaatı, Kazım Qarabəkir Paşa, bir çox əsgər və zabitlər, Cavid əfəndi o zaman "Sultaniyyə" adlanan indiki "Böyük bağ"da döyüşlərdə həlak olmuş türk əsgərlərinin məzarlarını ziyarətə-vida görüşünə getdilər. Müəllimimiz türk dünyasının böyük şairi Cavid əfəndi şəhidlərin ruhuna fatihə oxuduqdan sonra dedi: Şəhidlər tanrı aşiqləri ərlər-ərənlərdir, millət vətən fədailəri qəhrəmanlardır. Şəhidlər ölməz, onlar əbədiyyətə qovuşarlar. Sonra bir şeirini dedi:

*"Vətən eşqinə can nişan edən ərlər*
*Əbədi bir həyat içində gülər"*

Sonra Kazım Qarabəkir Paşa məzar önünə keçərək şəhidlərin ruhuna fatihə oxuduqdan sonra məzarın başdaşı yanında diz çöküb çox hüznlü bir halda dedi:

*Yolçu: Gel bir kaç dakika yolundan kal!*
*Bir fatihe sun! Büyük sevap al!...*

*Korkma .. Eger açıqsa alnın,*
*Toprağın altı, üstünden de aydın!.*
*Ben gideyorum, sen rahat uyu bu toprakda*
*Ana yurtdur, türk yurtudur bu toprak da*
*Al kanından kızıl lalə, elvan güller bitecekdir*
*bu toprakda*
*Geliceyim yine bir gün mezarının önünde ben*
*Secde edib muhebbetle görüşerik seninle*
*ben bu toprakda*

Paşa gözləri yaşarmış halda ayağa qalxdı. Əsgərlər vida xatirəsi olaraq 12 yaylım atəşi açdılar.

Kazım Qarabəkir Paşanın ordusu Naxçıvanı tərk edərək Təbrizi də xarici müdaxiləçilərdən azad etməyə getdikdə daşnak erməni birləşmələri xarici havadarları ilə birlikdə Naxçıvanı və hətta Şərqi Anadolunu bölmək və işğal etmək cəhdlərinə başladılar.

Belə bir vəziyyətdə Türkiyə Böyük Millət Məclisi öz nümayəndələrini Moskvaya göndərərək sülh yolu ilə həm Rusiya, həm də Ermənistanla münasibətləri tənzimləməyə çalışdı. Lakin Ermənistan imperialist dövlətlərin Türkiyəni parçalamaq siyasətini fürsət sayaraq Türkiyənin bir sıra bölgələrini işğal etməyə cəhd göstərdi. 1920-ci il sentyabrın 24-də türk ordusu əks hücuma keçərək Sarıqamışı, Qarsı, Gümrünü (Aleksandropol) və bir sıra başqa əraziləri geri qaytardı. 1920-ci il noyabrın 18-də türk komandanlığı daşnakların xahişini nəzərə alaraq atəşi dayandırdı. Türk tərəfinin irəli sürdüyü şərtləri ermənilər qəbul etdikdən sonra noyabrın 25-də Gümrüdə türk və erməni nümayəndələri arasında danışıqlar başlandı. 18 maddədən ibarət bu müqavilənin 2-ci və 12-ci maddələrində Naxçıvanın Azərbaycanın tərkibində Muxtar Respublika olması göstərilir.

Xalqımızın böyük oğlu Heydər Əliyev Qars müqaviləsinin tarixi əhəmiyyəti haqqında danışarkən belə demişdir: "... Qarsda Azərbaycan xalqı üçün çox əhəmiyyətli olan Qars anlaşması, müqaviləsi imzalandı. Onu Türkiyə imzaladı, Rusiya imzaladı, Azərbaycan imzaladı, Ermənistan imzaladı. Bu imzalarla Naxçıvanın Azərbaycanın tərkibində olması təsdiq edildi. Burada da əsas rolu Türkiyə oynadı. Həmin o Qars müqaviləsinin altında bizim hörmətli Paşamız Kazım Qarabəkir Paşanın imzası vardır".

Bu müqavilədə və daha sonra 1921-ci ilin 16 martında Moskvada imzalanmış "Dostluq və qardaşlıq haqqında" RSFSR və Türkiyə müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində olması göstərilmiş, sərhədləri müəyyənləşdirilmiş, təhlükəsizliyinə Türkiyə hökuməti təminat vermiş və hər hansı bir dövlətin Naxçıvana təcavüzü zamanı türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq təsbit edilmişdir.

Naxçıvanın statusunun beynəlxalq müqavilələrdə əks olunması istər o dövrdə və istərsə də indiki dövrdə böyük siyasi əhəmiyyət kəsb edir. Bu kitab keçmişimizin bir parçasını öyrənmək, günümüzün hadisələrini düzgün qiymətləndirmək baxımından həm Azərbaycan, həm də Türkiyə oxucusu üçün dəyərli bir vəsaitdir.

# 85 düymlük "divar planşeti" təqdim olunub

Samirə KƏRİMOVA



"Microsoft" şirkəti ofis əməkdaşları üçün nəzərdə tutulmuş böyükölçülü "Surface Hub 2" kompüter-monoblokunun ikinci nəslini təqdim edib.

"Ağıllı" ağ lövhə müşavirə və təqdimatların keçirilməsi üçün nəzərdə tutulub: lövhə 4K təsvir ölçülü 85 düymlük sensor ekranla təchiz edilib, stilusdan daxiletməni dəstəkləyir və "Windows 10" əməliyyat sisteminin idarəetməsi altında işləyir.

**www.hitech.vesti.ru** saytının məlumatına əsasən, "Microsoft"un nümayəndələri Nyu-Yorkda keçirilmiş təqdimat zamanı yaxınlıqda olan "Surface" noutbukları ilə birgə iş funksiyasını, həmçinin 4 nəfərdən ibarət videoçat imkanını nümayiş etdiriblər. Səsin otağın istənilən küncündən aydın eşidilməsi üçün "divar planşeti" 8 mikrofona malikdir. Qurğu gələn il bazara çıxarılacaq.

# "Internet Explorer"də aşkar olunan boşluq təhlükəlidir




İnformasiya təhlükəsizliyi sahəsi üzrə tədqiqatçı Con Peyc "Internet Explorer" brauzerindən istifadə etməyən istifadəçilərin məlumatlarını oğurlamağa imkan verən boşluq aşkar ediblər.

**www.life.ru** saytının məlumatına görə, müasir brauzerlərin əksəriyyəti MHT genişlənməsini dəstəkləmir, buna görə həmin fayl tipi "Internet Explorer" brauzerində açılır. Hakerlər zərərli fayl və linkləri poçt və ya messencerlər vasitəsilə göndərirlər. Həmin fayl və linkləri açdıqda kompüterə zərərli proqram təminatı quraşdırılır.

Sözügedən boşluq istifadəçilərin izlənilməsi və ya lokal məlumatların oğurlanması üçün istifadə oluna bilər. "Microsoft" korporasiyası, hələ ki, Con Peycin sözlərinə reaksiya verməyib.

# "WhatsApp" messencerində animasiyalı stikerlər



Populyar messencerin tərtibatçıları animasiya sayəsində stikerlərin cari funksionalını yaxşılaşdırmağa hazırlaşırlar.

**www.hi-tech.mail.ru** saytının məlumatına əsasən, sözügedən funksiya tezliklə "Android", "iOS" və veb versiya üçün son yeniləmələrdə əlçatan olacaq. Animasiyalı elementlər stikerlər dəstinə daxil ediləcək.

Stikerlər göndərildikdən sonra GIF formatlı fayllardan fərqli olaraq həmişə animasiya formasında olacaqlar.

# "Huawei" yeni "5G" smartfon istehsal edəcək




"Huawei" şirkəti 5-ci nəsil mobil şəbəkəsinə qoşulma imkanına malik ucuz smartfon istehsalı haqqında planını bölüşüb.

İstehsalçı belə telefonun qiymətinin 600 dolları ötməyəcəyinə dair söz verib və bu, rəqib şirkətlərin müvafiq modelləri ilə müqayisədə 2 dəfə ucuzdur.

**www.hitech.vesti.ru** saytının məlumatına əsasən, bu barədə Çin şirkətinin marketinq direktoru Piter Çjou "Financial Times" nəşrinə müsahibəsində məlumat verib. Onun proqnozuna görə, sözügedən qurğunun qiymətinin 2020-ci ilədək daha ucuz olması nəzərdə tutulur.

Yüksəksürətli "5G" şəbəkəsini dəstəkləyən 600 dollarlıq smartfon bazarda ən əlverişli təklif olacaq. Müqayisə üçün, aprelin əvvəlində Cənubi Koreyada təqdim edilmiş "Samsung Galaxy S10" aparatının qiyməti 1200 dollardan çoxdur.

# 20 ən yaxşı smartfonun adı açıqlanıb

"Business Insider" nəşri hazırda əlçatan olan və ya yaxın aylarda satışa çıxarılacaq 20 ən yaxşı smartfonun adını açıqlayıb.

**www.iz.ru** saytının məlumatına əsasən, analitiklərin fikrincə, "OnePlus 6T" qurğusu ən yaxşı smartfondur. Bu cihaz bütün müasir funksiyalara, həmçinin simsiz enerjidoldurma texnologiyasına, yaxşı kameraya malikdir və su keçirmir. Onun qiyməti eyni funksiya ilə təchiz edilmiş cihazların əksəriyyətindən xeyli aşağıdır. "Samsung" şirkəti tərəfindən bu yaxınlarda təqdim edilmiş "Galaxy S10e" smartfonu ikinci yeri tutub. Sözügedən cihaz əla ekran, barmaq izi datçikilə təchiz edilib və qiyməti qabaqcıl "Galaxy S10" aparatından ucuzdur.

ABŞ-ın "Apple" şirkətinin "iPhone XR" cihazı üçüncü yerdə qərarlaşıb. Nəşrin müəlliflərinin sözlərinə görə, bu smartfon daha aşağı təsvir ölçülü maye kristal ekrandan başqa "iPhone XS" cihazından heç nə ilə fərqlənmir, amma qiyməti bahadır.

"Samsung" şirkətinin "Galaxy S10 Plus" və "Galaxy S10" aparatları ilk beşlikdədirlər.

Reytinqə, həmçinin yaxşı kameralarla təchiz edilmiş və "Google" korporasiyası tərəfindən "Android" üçün çıxarılmış yeniləmələri birinci alan "Pixel 3" və "Pixel 3 XL" aparatları, "Samsung Galaxy Note 9", "iPhone XS", "iPhone XS Max", "Samsung Galaxy S9 Plus" və "iPhone X" qurğuları daxil ediliblər.

"Apple iPhone 7" və "7 Plus", "iPhone 8 Plus", "iPhone 8" və "Samsung Galaxy S9" kimi köhnə modellər isə ən yaxşı qurğular kimi elan olunublar.

Həmçinin "Huawei Mate 20 Pro", "Razer Phone 2", "LG V40", "Moto G7", "LG G8" və düyməli "BlackBerry Key2" smartfonları reytinqdə yer alıblar.


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397881

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6864, **Sifariş** 1429

**Məsul növbətçi:** Ş.Cəfərov


# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Mustafayeva Nərmin Firudin qızına verilmiş A-034698 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Əliyeva Kəminə Nüsrət qızına verilmiş B-073113 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Mustafayeva Nərmin Firudin qızına verilmiş B-686110 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şahağac kənd 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əliyeva (Dadaşova) Zəhraxanım Ramiz qızına verilmiş A-039807 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 2 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Şakərimov Məhərrəm Ağakərim oğluna verilmiş A-170243 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 239 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Vəlicanov Sənan Eldar oğluna verilmiş A-410702 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Həsənzadə Turan Vasif oğluna verilmiş A-033792 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 34 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Əliyev Məmməd Cabbar oğluna verilmiş A-218087 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Eminov Tofiq Rubil oğluna verilmiş A-082914 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Samux şəhər** 3 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Əsgərov Zəki Ərəstun oğluna verilmiş B-095153 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**DİN-in Polis Akademiyası** tərəfindən 1994-cü ildə Həsənov Razi Cəfər oğluna verilmiş 003140 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qaradağlı kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Çələbiyeva (Cəfərova) Məhbubə Hüseyn qızına verilmiş A-000912 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Tibb Məktəbi** tərəfindən 1992-ci ildə Hüseynova Mətanət Vitalik qızına verilmiş PT-I-129000 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2004-cü ildə Quliyev Çingiz Ehtibar oğluna verilmiş BB-II-007918 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** şəhər 1 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova (Nəzərova) Günel Bayram qızına verilmiş B-458574 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayıllı şəhər** 3 nömrəli məktəb-liseyi 2007-ci ildə bitirmiş Kamilov Rəşad Eldar oğluna verilmiş B-471322 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Humanitar Kolleci** (keçmiş Bakı Mədəni-Maarif Texnikumu) tərəfindən 1996-cı ildə Abdulova Xədicə İsmayıl qızına verilmiş AB-II-006831 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**American Qraduate School of Business Universiteti** tərəfindən 2012-ci ildə Həsənzadə Turan Vasif oğluna verilmiş bakalavr diplomunun Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş 004989 və 050409 nömrəli qeydiyyat nömrəli şəhadətnamələr itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2013-cü ildə Sahar Ghanbarı Alı qızına verilmiş BB-I-021974 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Qarasu kənd tam orta məktəbini 2017-ci ildə bitirmiş Pənahov Haqverdi Gündüz oğluna verilmiş E-074453 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 159 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Əlizadə Əkbər Muxtar oğluna verilmiş B-677070 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Heybətov İlham Tofiq oğluna verilmiş A-053371 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR Heydər Əliyev adına Hərbi Liseyi** 2008-ci ildə bitirmiş Əsgərov Sədaqət Şəxavət oğluna verilmiş B-472606 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xocavənd rayon** 4 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bəhrəmova Nərminə Rəfayıl qızına verilmiş B-343292 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu** tərəfindən 1982-ci ildə Qasımova Gülqayıd Yusif qızına verilmiş ИВ-030001 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Səhrədabad kənd tam orta məktəbini 1982-ci ildə bitirmiş Ağayeva Rəsmiyyə Ağamoğlan qızına verilmiş 713256 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 13 nömrəli tam orta məktəbi 1984-cü ildə bitirmiş İbrahimova Fəridə Əli qızına verilmiş A-943317 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Sosial İqtisad Kolleci** tərəfindən 2008-ci ildə Sərdarova Elnarə Hakim qızına verilmiş BB-II-087466 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Dərk kənd tam orta məktəbinin IX sinfini 1990-cı ildə bitirmiş Fətullayeva Natiqə Qəzənfər qızına verilmiş AN-604124 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 191 nömrəli tam orta məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Hüseynov Rəhim Rövşən oğluna verilmiş A-766797 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 34 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Cahangirova Sevinc Ağairza qızına verilmiş A-218849 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Pedaqoji Seminariyası** (indiki Sumqayıt Özəl Orta İxtisas Kolleci) tərəfindən 2002-ci ildə Hüseynova Ramilə Ramiq qızına verilmiş AB-II-086939 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 152 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Məmmədli Nahid İlqar oğluna verilmiş B-587975 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Bakı Neft Energetika Kolleci** tərəfindən 2011-ci ildə Abdiyev Kənan Şahin oğluna verilmiş AA-005839 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Nağıyeva Elmira Polad qızına verilmiş A-025717 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Ramazanlı Vüsal Namiq oğluna verilmiş A-203228 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye Pedaqoji Texnikumu** tərəfindən 2004-cü ildə Motuxova Vəfa Şaban qızına verilmiş BB-II-006851 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 65 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Rəcəbov Eladi Qurban oğluna verilmiş A-314850 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbin IX sinfini 2016-cı ildə bitirmiş Hacıyev İsmayıl Qurban oğluna verilmiş A-618480 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

## Düzəliş

Qəzetimizin 19 aprel 2019-cu il tarixli sayında dərc olunmuş "Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin vakant yerlər üzrə vəzifələri tutmaq üçün müsabiqə" elanında 1 kafedra üzrə dəyişiklik aşağıdakı kimi oxunmalıdır:

**Təsviri sənət tarixi və nəzəriyyəsi kafedrası üzrə:**
*baş müəllim - 0,5 ştat - 1 yer*

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı şəhər 102 nömrəli tam orta məktəbin direktoru və kollektivi məktəbin ingilis dili müəllimi Gülnarə Həsənzadəyə bacısı

**XATİRƏ HƏSƏNZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Balaca Yazarlar Birliyi Studiyası



## *Aysel Fikrət:* “Məqsəd yaradıcı şagirdlərin inkişafına töhfə verməkdir”

**Sifai SƏFƏROVA**

Olduqca sevindirici haldır ki, Azərbaycan Milli Konservatoriyanın tərkibində İncəsənət Gimnaziyasının teatr şöbəsində Balaca Yazarlar Birliyi Studiyası da fəaliyyət göstərir. Studiyaya ancaq istedadı, yaradıcılıq potensialı işartı verməkdə, necə deyərlər, cücərməkdə olan şagirdlər cəlb olunurlar. Gimnaziyada teatr və kino dramaturgiyası fənnini tədris edən, Azərbaycan Yazıçılar Birliyinin üzvü, tanınmış yazar Aysel Fikrət həmin studiyaya rəhbərlik edir. Yazıb-yaratmağın sirlərinə burada hədsiz həvəslə yiyələnən şagirdlərin yaradıcılıq potensiallarının inkişafı və ümumiyyətlə, studiya üzvlərinin ötən bu müddət ərzində qazandıqları uğurlar barədə daha çox məlumatlı olmaq arzusunda olduğumu bildirəndə Aysel Fikrət telefon əlaqəsi zamanı məmnuniyyətlə məni gimnaziyaya dəvət edib, özü və yetirmələri ilə canlı görüşüb söhbətləşməyi, fəaliyyətləri haqqında həqiqətləri təkcə onun deyil, hamının dilindən eşitməyi təklif etdi. Müəllimin dilindən bu sözləri eşitmək lap ürəyimcə idi. Odur ki, görüşümüz də elə studiyada növbəti məşğələ zamanı baş tutdu.

### Tanınmış yazıçı və şairlərlə canlı təmasda

Bildiyiniz kimi, gimnaziyada istedadlı uşaqların sayı günü-gündən artmaqdadır. 2018-ci ilin oktyabrın 5-də gimnaziyanın teatr şöbəsində Balaca Yazarlar Birliyi Studiyası açıldı. Elə həmin gün studiya üç layihə təsdiq etdi: “Məşhurlarla müsahibə”, “Bizim əsgər”, “Futbol və biz”. Bu layihələr artıq fəaliyyətə başlayıb. Şagirdlər araşdırmalar nəticəsində çoxlu məşhurlarla, sənət adamları ilə müsahibə aparıblar. Verilişlərdə aparıcı olan şagirdlər gimnaziyada keçirilən bütün tədbirlər barədə qısa süjetlər, ssenarilər hazırlayıb təqdim edirlər, filmlər çəkir, hekayələr yazırlar. Bundan başqa studiyada ustad dərslərinə və ekskursiyalara da böyük önəm verilir. Dəfələrlə balaca yazarlarla Yazıçılar Birliyində olmuşuq. Uşaqlar tanınmış yazıçı və şairlərlə canlı təmasda olmaqdan xüsusi zövq alırlar. İndiyə qədər üzlərini görmədikləri, yaradıcılıq nümunələri ilə ancaq qəzet-jurnallar, kitablar, telekanallar vasitəsilə tanış olduqları şair və yazıçılarla artıq onların öz iş yerlərində görüşmələri, şeirlərini, başqa yaradıcılıq nümunələri məşhurların öz dillərindən eşitmələri uşaq və yeniyetmələr üçün olduqca əhəmiyyətlidir. Bu cür canlı ünsiyyətin hər iki tərəf üçün böyük effekti barədə saatlarla danışmaq olar. Doğrudan da yetişməkdə olan yaradıcı nəslin yaşlı yazar nəslin nümayəndələri ilə canlı təmasda olması əslində hər iki tərəf üçün kifayət qədər xeyirlidir. Bəlkə də bu, yaşlı nəsil üçün daha çox əhəmiyyət kəsb edir. Çünki onların da yeni dünyanın tələb etdiyi bucaqdan dünyanı bu istedadlı yeniyetmələrin gözləri ilə görmələrinə ehtiyac var ki, gələcək yaradıcılıqlarında artıq bu gün müasir gənclik üçün heç bir maraq kəsb etməyən arxaik mövzulardan daha müasir mövzulara rahatca keçid edə bilsinlər. Axı, gənc yaradıcı nəsil yeni nəfəs, yeni ruh, yeni həyat fəlsəfəsi ilə zəngin bir xəzinədir. Onlar həm də bir enerji mənbəyidir yaşlı nəsillər üçün.



### Studiyanın əhəmiyyəti çox oldu

Əlbəttə, Studiyanın əhəmiyyəti çox oldu, özü də əhəmiyyətli dərəcədə. Məqsəd yaradıcılıq potensialı hiss olunan yeniyetmə və gənclərimizə bu sahədə kömək etmək idi, onu da elədik. İstər şair, yazıçı, istərsə də rəssam, yaxud musiqiçi olsun, istedadı olanlara kömək olunmalıdır ki, onlar həm öz seçimlərində yanılmadıqlarına əmin olsunlar, həm də seçdikləri sahələrdə inkişaf edə bilsinlər, uğurlara imza atsınlar. Mənim də bu studiyanı yaratmaqda məqsədim yaradıcı şagirdlərin inkişafına öz töhfəmi verməkdir. Artıq məqsədimə nail olmuşam. Bir məqamı da az qala unutmuşdum; Bilirsiniz ki, mən gimnaziyada şagirdlərə teatr dramaturgiyası fənnini də tədris edirəm. Studiyamızın istedadlı üzvlərinin hazırladıqları “Bizim əsgər” verilişi artıq yayımlanıb. Bu verilişin layihə rəhbəri Rufiz Quluzadədir. Müəllif özü öz verilişini təqdim etdi.

### Kiçik yaşlarından vətənpərvərlik ruhunda böyüyürlər

Verilişin, necə deyərlər, canı Azərbaycanın Milli Qəhrəmanları- vətənpərvər oğullarıdır. Bu üsulla da biz gənc nəslin vətənpərvərlik ruhunda böyüməsinə təkan verməyi qarşımıza məqsəd qoymuşuq. Bu cür verilişlər həm də uşaqlara kiçik yaşlarından Milli Qəhrəmanlarımızı tanıtdırır və böyüyəndə onlara bənzəmək ruhunda tərbiyə edir.

“Futbol və biz” verilişlərimizin aparıcısı isə Ayxan Məmmədəliyev və Eldar Kazımovdur. Onlar da öz araşdırmalarını, eyni zamanda futbolun insan sağlamlığında rolu barədə düşüncələrini bölüşürlər. Studiyada şagirdlərin özlərinin qələmə aldıqları süjetlər, kiçikhəcmli hekayələr əsasında filmlərin çəkilişləri də nəzərdə tutulub. Artıq Ayxan Məmmədəliyevin çəkdiyi “Bir qəribə əhvalat” adlı filmi hazırdır və baxış zamanı hamının xoşuna gəlib. İlk yaradıcılıq nümunəsi olan bu filmin maraqla qarşılanması studiya üzvlərinə böyük stimul oldu. Gələcəkdə studiyamızın uğurları daha çox olacaq.

### 15 şagirdin kiçik hekayələri bir kitabda

Şagirdlərin hekayələrindən ibarət “Hekayələr toplusu” adlı balaca bir kitabça çap olunub. Bakı Mətbuat Mərkəzində bu kitabın təqdimat mərasimi də keçirilib və çox da bəyənilib. Kitabda 15 balaca yazarın kiçik hekayələri təqdim edilib.Yeri gəlmişkən qeyd edim ki, gimnaziyada başqa şöbələrdə təhsil alan, gələcəkdə aktyor olmaq həvəsində olan uşaqların yazılarına da diqqət yetiririk. Sona Qurbanzadənin “Yanlış hərəkət”, Aytac İsmayılovanın “Yeni il şənliyi”, Murad Əbdülrəhmanovun “Qış fəsli”, Raul Qasımlının “Dostluq”, Sənan Əliyevin “Ömrün payızı”, Məlahət Kazımovanın “Qəhrəman”, Səid Məmmədovun “Savab iş”, Həmid Hacıbəylinin “Ana təbiət”, Məlik Əliyevin “Vətən uğrunda”, Mirrəvan Həsənlinin “Nənə və nəvə”, Eldar Kazımovun “Şəhidlər ölməz”, Filiz Quliyevanın “Cansunun etirafı”, Xədicə Kərimovanın “Gül kimi gül” və digərlərinin yazılarını oxuyarkən fantaziyalarına vurğun olmamaq mümkün deyil.

### Cəsarətimiz artır, həyəcan arxada qalır

*Xədicə Cəfərzadə:* Yaradıcılıq studiyasının ən fəal üzvlərindən biriyəm. Burada yalnız yaradıcılıq qabiliyyəti olan uşaqlar tab gətirə bilərlər. Biz Bakının bir çox yerlərində ekskursiyalarda, gəzintilərdə olmuşuq. Bakı Kitab Mərkəzində keçirilən tədbirlərdə, yaradıcılıq müzakirələrində tez-tez iştirak edirik. Mən və yazar dostlarım öz yazılarımızı çəkinmədən dinləyicilərin müzakirələrinə təqdim edirik və bəyənilir də. Bu, həm də bizim könlümüzü açır, yavaş-yavaş cəsarətimiz artmağa başlayır, sıxıntı, həyəcan arxada qalır.

### Balaca yazarlar Gürcüstanda

2018-ci ilin dekabrında biz balaca yazarlar Gürcüstan Yazıçılar Birliyinə dəvət olunduq. Gürcüstan Yazıçılar Birliyində Birliyin sədri, görkəmli yazıçı Baqatel Arabuli bizi əsl yazarlar kimi böyük sevinclə, hörmət-izzətlə qarşıladı. Biz də həmin görüşə əliboş getməmişdik. Nodar Dumbadzenin “Mən, nənəm, İliko və İlarion” əsərini və Azərbaycanın dilbər guşələri haqqında yazdığımız monoloqları da səhnələşdirib tamaşaçılara təqdim etdik. Çox da bəyəndilər.

Azərbaycanın tanınmış şair və yazıçılarının “aforizm və deyimləri” əsasında hazırladığımız kompozisiya hamını məmnun etdi. Mən Şamaxı rayonu haqqında yazdığım monoloqu söylədim. M.F.Axundovun “Müsyö Jordan və Dərviş Məstəli Şah” əsərindən parçalar nümayiş etdirdim. Hamı ayağa qalxıb məni alqışladı.

Gürcüstanda olarkən dilimizi bilməsələr də baxışlarından hiss olunurdu ki, bizi yaxşı başa düşürlər. Tamaşaçılar arasında azərbaycanlı məktəblilər də vardı. İngilis və rus dillərində sərbəst danışdığımız üçün xarici vətəndaşlarla da ünsiyyət qurmaqda problemimiz yox idi. Biz onlara öz kitablarımızdan hədiyyə etdik, onlarla ünsiyyət qurduq. Gürcülər və yaponlar Azərbaycana səfər zaman tarixi abidələrimizi ziyarət etdiklərini, onları qoruyub saxladığımız üçün bizə təşəkkürlərini bildirdilər. Orada 3 gün qaldıq. Bu müddət ərzində biz qədim adidələrlə də tanış olduq. Botanika bağına, park və xiyabanlara baş çəkdik. Xarici turistlər milli geyimlərimizi xoşladıqları üçün bizimlə xatirə şəkilləri çəkdirdilər. Səfərimiz çox uğurlu və yaddaqalan oldu.

*Şölə Bəbirova:* Gürcüstanda olarkən “Qarabağ” monoloqunu səsləndirdim. Bütün tamaşaçılar kövrəldi. Hər bölgə slaydlarla göstərilirdi. Tbilisidə olarkən M.F.Axundovun və tanınmış insanların məzarlarını ziyarət etdik. Vətənə üzüağ döndük. Gimnaziyanın direktoru Aytən Əhmədova bizimlə görüş keçirdi və qazandığımız nailiyyətlərə görə diplomlar təqdim etdi.

*Rufiz Quluzadə:* 2019-cu ilin martında UNESCO-nun Beynəlxalq Layihələrin Tətbiqi Mərkəzinin, UNESCO nəzdində Beynəlxalq Ədəbiyyat və Jurnalistika Akademiyasının dəstəyi ilə keçirilən, Azərbaycandan isə "Resurs" Gənclərin İnkisafi Mərkəzinin, NUR ART HOUSE Qalereyasının, Educenter təskilatının birgə təskilatçılığı ilə baş tutan “Dunyanın səsini duyaq” adlı gənc istedadların birinci beynəlxalq müsabiqəsinə 5 yazar qatıldıq. Mən hekayə nominasiyası üzrə I yeri qazandım, qələm dostlarım Xədicə Cəfərzadə, Banu Abbasova, Səid Məmmədov, Həmid Hacıbəyli də qalib oldular. Dostlarıma yaradıcılıq uğurları arzulayıram.

*Studiya rəhbəri Aysel Fikrətlə və onun istedadlı yetirmələri ilə həmsöhbət olmaqdan aldığım zövq əsas verdi və düşünüm ki, qaynar bir çeşməni xatırladan bu yaradıcılıq ocağında kim bilir, bəlkə də gələcəyin ən istedadlı yaradıcı yeniyetmələri yetişməkdədir.*

## ELAN

### 2019-cu il 22-27 sentyabr tarixlərində Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları” mövzusunda 45-ci illik konfransı keçiriləcək

Dövlət İmtahan Mərkəzi qiymətləndirmə alətləri hazırlayan elmi-tədqiqat mərkəzlərini, ali təhsil müəssisələrini, uyğun dövlət orqanları və digər maraqlı tərəfləri Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın Bakıda keçiriləcək 45-ci illik konfransına (IAEA 2019) öz elmi tezislərini təqdim etməyə dəvət edir. Konfrans 2019-cu il 22-27 sentyabr tarixlərində “Fairmont Baku” otelində keçiriləcək. Konfransın mövzusu “Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları”dır.

Qeyd edək ki, Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IAEA) ali və orta ümumtəhsil müəssisələrində, müxtəlif təşkilatlarda və iş yerlərində təhsilin qiymətləndirilməsində iştirak edən qurumlar üçün yaradılmış qlobal forumdur. IAEA hər il təhsildə qiymətləndirmənin keyfiyyətinin artırılması və bu sahədə beynəlxalq əməkdaşlığın inkişafı məqsədi ilə illik beynəlxalq konfranslar təşkil edir.

Konfransda aşağıdakı mövzulara uyğun təqdimatların ediləcəyi nəzərdə tutulur:

- Qiymətləndirmənin qərar-qəbuletmə prosesində istifadəsi;
- Qərar qəbuletmədə qiymətləndirmənin etibarlılığı və uyğunluğu;
- Daha yaxşı qərar qəbul etmək üçün qiymətləndirmə texnikası;
- Daha yaxşı proqnozlar üçün əlavə dəyər ölçülərinin yaradılması;
- Təhsildə və dövlət qulluğunda qiymətləndirmənin institusional islahat aləti kimi istifadəsi;
- Dövlət və özəl sektorda test və işə qəbul siyasəti ilə bağlı imkanlar və problemlər;
- İnsan resurslarının idarəedilməsində Səriştə Modelinin tətbiqi;
- Universitetlərə və dövlət qulluğuna qəbulda qiymətləndirmə alətlərinin gələcəyi;
- Təhsil sistemində və yaxşı idarəetmədə qiymətləndirmənin innovativ alət kimi istifadə edilməsi;
- Qiymətləndirmə verilənləri və qərar qəbul etmə məsuliyyəti;
- E-qiymətləndirmə və texnoloji-üstünlüklü platformalar;
- Təhsil və işçi qüvvəsinin qiymətləndirilməsində operativ tədqiqat.

| |
|---|
| Abstrakt qəbulu üçün qeydiyyat başlanır: 15 dekabr, 2018 |
| Abstrakt qəbulu başa çatır: 1 may, 2019 |
| Məqalə qəbulu başa çatır: 25 avqust, 2019 |
| Konfransın tarixi: 22-27 sentyabr, 2019 |

Konfransda çıxış etmək istəyən şəxslər verilmiş cədvələ uyğun olaraq öz işlərini təqdim etməyə dəvət olunurlar. Qeyd edək ki, **1 may 2019-cu il** son müraciət tarixidir.

Bu konfrans tədqiqatçılar və peşəkarlar üçün mövcud proses və nailiyyətlər haqqında fikirlərini paylaşmaq, eləcə də qiymətləndirmə və qərarvermədə yeni tendensiyalar yaratmaq imkanlarını nəzərdən keçirməyə şərait yaradacaqdır.

Daha ətraflı məlumat üçün konfransın rəsmi səhifəsini ziyarət edə bilərsiniz: **http://iaea2019.org/**

## Atletika və şahmat üzrə respublika çempionatının zona yarışlarına yekun vurulub

Məktəblər arasında respublika çempionatının proqramına uyğun olaraq atletika idman növü üzrə Şirvan Olimpiya İdman Kompleksində sonuncu zona yarışı keçirilib. Hacıqabul, Şirvan, Sabirabad, Saatlı, Kürdəmir, Ucar, İmişli, Zərdab, Füzuli, Xocavənd rayonlarının məktəb komandalarının mübarizə apardığı yarışlarda I yerə Ucar rayonu Heydər Əliyev adına Qazıqumlaq kənd 2 nömrəli, II yerə Şirvan şəhəri 9 nömrəli, III yerə isə Zərdab rayonu 3 nömrəli tam orta məktəblərin komandaları layiq görülüb.

Quba rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbində keçirilən şahmat idman növü üzrə zona yarışına yekun vurulub. Sumqayıt şəhərinin, Xaçmaz, Quba, Qusar, Şabran, Xızı, Qobustan, Abşeron, Qubadlı rayonlarının məktəb komandalarının qatıldığı yarışların nəticəsi olaraq I yeri Sumqayıt şəhəri Texniki və Təbiət Elmləri Liseyinin, II yeri Abşeron rayonu Saray qəsəbə 2 nömrəli, III yeri Quba rayonu 3 nömrəli tam orta məktəblərin komandaları tutub.

Qaliblər diplomlarla təltif olunub.

Çempionatın əsasnaməsinə uyğun olaraq zona yarışlarında I və II yerləri tutan məktəb komandaları final mərhələsinə vəsiqə qazanıb.

Məktəblər arasında respublika çempionatı 26 sentyabr 2018-ci il tarixində Təhsil, Gənclər və İdman nazirlikləri, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyası tərəfindən imzalanmış birgə əmrə əsasən keçirilir.

